**Bu bir xalq qəzetidi**

**ƏDALƏT**

## Prezidentin xüsusi nümayəndəsi: "Ağalı məktəbində son tamamlanma işləri aparılır"



**"Ağalı kəndində artıq məktəb binasında son tamamlama işləri aparılır. İnşallah 15 sentyabr Ağalı da ilk zəng sədaları eşidiləcək. Bu gün köçən ailələr içərisində müəllimlərimiz də var. Bununla əlaqədar olaraq möhtəşəm tədbirin olması planlaşdırılır".**

"Report"un məlumatına görə, bunu Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib.

"Son bir ay ərzində ət kəsim məntəqəsi arıq fəaliytdədir, yanacaqdoldurma məntəqəsi artıq fəaliyyət göstərir. Bütün bu sahələrdə bizim Ağalı kəndinin sakinləri çalışırlar. Burada artıq tikiş müəssisəsidə fəaliyyət göstərir, 15 nəfərdən çox Ağalı kənd sakinləri həmin müəssisədə çalışırlar. Kənd təsərrüfatı sahəsində də burda şirkətlər var ki, Ağalı kənd sakinləri orada çalışırlar", - Vahid Hacıyev bildirib.

Onun sözlərinə görə, bu gün 12 ailənin 63 nəfər üzvü uzun illərdən sonra, müvəqqəti məskunlaşma yerlərindən daimi yaşayış üçün, doğma kəndlərinə qayıdıblar və məskunlaşıblar.

## Türkiyə Prezidenti yanında Şuradan Ermənistana xəbərdarlıq



**"Ermənistanın Baş naziri Nikol Paşinyan Brüsseldə fərqli, İrəvanda fərqli davranış sərgilədiyi müddət ərzində Ermənistanın hər mənada normallaşması mümkün deyil".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin və Azərbaycan Evinin rəhbəri Aygün Attar tviter səhifəsindfə yazıb.

"Ermənistanın iqtisadi, siyasi və sosioloji baxımdan çökməsi qaçılmazdır", - o bildirib.

## Ədalət Muradov gənc müəllimlərlə görüş keçirdi



**Rektor professor Ədalət Muradov UNEC-də ilk dəfə pedaqoji fəaliyyətə başlayacaq müəllimlərlə görüşüb.**

Adalet.az xəbər verir ki, gənc müəllimləri təbrik edərək, onlara uğurlar arzulayan rektor bildirib ki, dünya səviyyəli universitetlər sırasında yer almağı hədəfləyən UNEC gənclərlə işin qurulmasına xüsusi önəm verir.

Rektor "Gənc müəllimlər 4" layihəsi də daxil olmaqla, bu il 30-dan çox gənc müəllimin pedaqoji fəaliyyətə cəlb olunduğunu deyib, son 8 ildə isə 700-dən çox gəncin UNEC-də işlə təmin olunduğunu diqqətə çatdırıb. Tədris prosesində tələbələrin fərdi keyfiyyətlərinin nəzərə alınmasını xüsusi vurğulayan rektor, uğurlu təhsil modelinin əsasında fərdi təhsil trayektoriyasının təmin edilməsinin olduğunu bildirib.

Ə.Muradov "UNEC-100" İnkişaf Strategiyasının hədəflərindən, eləcə də tədqiqatçı-müəllim, tədqiqatçı-dosent və professor vəzifələrindən, reytinq sistemindən, rəqəmsal universitet modelindən də söz açıb. Gənc müəllimlərə pedaqoji, elmi-tədqiqat işlərində, star-tap layihələrində fəal olmağı tövsiyə edib.

**Sonra gənc müəllimlər üçün təlimlərə start verilib. 2 gün davam edəcək təlimlər UNEC-dəki tədris prosesi, elektron universitet və EDUMAN tətbiqləri, tələbə biliyinin qiymətləndirilməsi və attestasiyası, tədqiqat ekosistemi, akademik göstəricilərin fərdi və institusional qiymətləndirmə prosesləri, mübadilə proqramları, kitabxana informasiya mərkəzi, karyera imkanları barədə olacaq.**

## BU TƏLƏBƏLƏRİN GÜNAHI NƏ?



**Xaricdə təhsil alan tələbələrin vəziyyəti ilə bağlı millət vəkili Aqil Abbas "Ədalət"ə açıqlamasında demişdi:**

"Təkcə Türkiyədə 20 min tələbəmiz ali təhsil alır, hələ iki-üç min də Şimali Kipr Türk Cümhuriyyətində. Bu tələbələrin çoxu da, daha dəqiq əksəriyyəti, imkansız ailələrin uşaqlarıdı. Türkiyəni ona görə seçiblər ki, orda təhsil haqqı bizdəkindən bir neçə dəfə ucuzdur. İndi sərhədlər bağlı olduğundan məcburdurlar AZAL-ın ceyran belinə mindirdiyi qiymətlərlə bilet alıb təyyarə ilə uçmağa.

Hökumət ya bu tələbələrə 50 faiz endirim etməli, ya da xaricdə oxuyan tələbələrin avtobusla Naxçıvan və Gürcüstandan keçməklə Türkiyəyə getmələrinə şərait yaratmalıdır.

**Necə ki tələbələrin qayıdış vaxtı onlar üçün Naxçıvanda Türkiyə ilə sərhədləri açdılar. Bunu indi də eləmək mümkündür. Hökumətin istəyi olsa təkədən pendir tutar".**

*Aqil ABBAS*

## SİZ AĞDAMLILAR PAXILSINIZ DANA...

Bax:səh-3

## ZATULİN ÖZÜNÜ AXIRINCI YOLA QOYUB



*Axırıncı yol da bilirsiniz də nədi? İşləyib işdən düşəndən sonra trasda dayanıb ZİL-130 gözləyən qadınların yoludu.*

*Terrorçuların uydurduqları müstəqillik gününə Dumanın adından təbrik məktubu göndərir, sonra da Putini tənqid edib yamanlayır ki, Qarabağ məsələsində düzgün mövqe tutmur.*

*Görəsən, hansı azərbaycanlı onun anasının, ya bacısının pulunu verməyib ki, bizə belə düşmənçilik edir? Siz Allah, aparın o pulu verin.*

*Hər gün Rusiyanın üç telekanalında, Solovyov başda olmaqla, canlı yayımlar verilir. Mütləq hər verilişdə də ən azı bir, bəzən iki, bəzən də Zatulin kimiləri olmaqla üç erməni ekspert çıxış edir. Mövzu Rusiya-Ukrayna müharibəsi, tətbiq olunan sanksiyalar, Avropada adamların necə sanksiyalara etiraz etməsi və sair və ilaxır müzakirə edilir. Və mütləq iki daşın arasında erməniər və zatulinlər Ermənistan-Azərbaycan münasibətlərinə, Qarabağ mövzusuna toxunur.*

*Bundan ruhlanan ermənilər də həm sərhəd boyu, həm də Qarabağda tez-tez atəşkəsi pozurlar.*

*Belə görünür ki, ordu ya Paşinyana tabe deyil, ya da Paşinyan ikiüzlülük edir. Əslində elə ikisi də var.*

*Gərək bizim Milli Məclis Zatulinin şərəfsiz açıqlamaları ilə bağlı Rusiya Dumasına müraciət etsin.*

**Bu bir xalq qəzetidi** www.adalet.az

**ƏDALƏT**

Qurucusu: Adil Minbaşıyev | *Gündəlik hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 40 (5977) 10 sentyabr 2022-ci il | Qiyməti 30 qəpik

# Prezident sanatoriyanın açılışında iştirak etdi



Bax:səh-2

## HƏMRƏYLİK, YOXSA DİDİŞMƏ GÜNÜ?

**Heç demə, 8 sentyabr Jurnalistlərin Beynəlxalq Həmrəyliyi günüdür. Yəni bu gün bizim həmrəylik bayramımızdır. Bilmirdim ey, mətbuatda oxudum.**

**Amma jurnalistlərin həmrəyliyini görməmişəm, didişmələrini görmüşəm.**

**Əziz həmkarlar, didişmə bayramınız mübarək olsun.**

## Ərdoğan ABŞ-a gedir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-a səfər edəcək.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Prezident Administrasiyasından bildirilib.

"Prezidentin səfəri sentyabrın 17-dən 22-dək nəzərdə tutulur", - məlumatda deyilir.

## FHN-də müşavirə: Nazirlər görüşüb meşələrdə baş verən yanğının səbəblərini müzakirə etdilər

Bax:səh-2

## DÜNƏN "STOP" QOYAN BU GÜN ÖZÜ "STOP"LANIR





**20 il Respublikanın baş prokuroru olasan, qılıncının qabağı da kəsə, dalı da, qəbzəsi də, istədiyin adamı tutdurasan, istədiyin adama "stop" qoydurasan, istədiyin adamı çarmıxa çəkdirəsən.**

Kresloda oturduğu müddətdə gözü çıxmış qardaşları heç yada salmayasan və bilməyəsən ki, bu kreslo heç vaxt əbədi deyil, bir sonu var. Və son gəlsin çıxsın, vəzifədən götürüləsən, amma adamların arasına alnıaçıq çıxa bilməyəsən. Məsələn, elə İlyas İsmayılov. O da baş prokuror olub 30-32 il bundan əvvəl, amma yenə həm iqtidar, həm də camaat hörmətini saxlayır.

Mətbuatda oxudum ki, sabiq baş prokuror Zakir Qaralov xaricə müalicəyə getmək istəyirmiş, sərhəddən buraxmayıblar.

**Bu hələ ən yüngül cəzadı. Hələ kinonun başlanğıcıdı.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**



## ƏVVƏLLƏR PAMBIQ PRİPİSKA EDİRDİK, İNDİ ADAM PRİPİSKA EDƏCƏYİK

*Sovetlər dönəmində pambıq pripiskası dəbdəydi. Əslində bu pripiskanın xalqa heç bir ziyanı yox idi. Əkmədiyi, becərmədiyi, yığmadığı pambığı pripiska edirdi və həmin pripiska olmuş pambığı da kiloqramına 5-10 qəpik rüşvət verməklə sırıyırdı Rusiyanın fabrik və zavodlarına. Rusiyanın fabrik və zavodları da hər kiloqramına görə, növündən asılı olaraq, 60-86 qəpik pul ödəyirdi bizim pambıq zavodlarına. O pulu da zavodlar verirdi kolxozlara, sovxozlara. Kolxoz və sovxozlar da bir pay özüyçün, katib üçün götürürdü, qalanını da paylayırdı camaata. Camaat becərmədiyi pambığın hesabına milyoner olmuşdu.*

*Üzümçülükdə pripiska daha asan idi. Plan üzrə üzümün şəkərliliyi 18 dərəcə olmalı idi. Sovxozlar əsasən rkasteli növü əkirdilər, o da 27-28 dərəcə şəkərlilik verirdi. Yendirirdilər 19 dərəcəyə, çünki şəkərliliyi 19 dərəcə olanda üzümçülər mükafatlandırılırdı. Yerdə qalan 8-9 dərəcə də sovxozun nəfi idi. Ondan hazırlanan çaxırı vaqonlara yükləyib göndərirdilər Rusiyanın şərab zavodlarına. Çox qəribədir ki, o vaxtlar bizdə şərabı butılkaya dolduran zavodlar yox idi (bir-iki xırda zavodu çıxmaq şərtilə). Həmin zavodlar Rusiyada idi, əsas xeyir də onlar götürürdü.*

Bax:səh-2

*Mehman CAVADOĞLU*

## Vardanyanın münəccimliyi

Bax:səh-3

## «QARABAĞ» HAKİMLƏRİN QURBANI OLDU

**Komanda dör-dör döyüşdü. İkinci hissədə almanları pişiyə döndərmişdi. Və bu dəfə də, həmişə olduğu kimi yenə hakimlərin qurbanı oldu. Əvvəla, 5-ci dəqiqədə qapımıza təyin edilən 11 metrlik cərimə zərbəsi düzgün deyildi. Alman futbolçuları da, hakimin özü də reaksiya vermədi. Rəqibin yıxılan futbolçusu top onun başının üstündən 2 metr hündürdən keçəndən sonra bizim fuibolçu ilə toqquşdu. VAR-da işləyən hakimlər (ermənilərin bayyısı fransız hakimlər) öz var-yoxlarını çölə qoyub yalandan penal kəsdilər.**

İkinci hissədə bizim qapıçı ilə təkbətək çıxan hücumçumuzu göz görə-görə qapının 7-8 metrliyində itələyib yıxdılar, yenə VAR-ın var-yoxdan çıxan hakimləri buna göz yumdular, mərkəz hakimi onlarla qarışıq yüz faizlik 11 metrəni vermədilər.

Elə bil hakimlər düşmən kəsiliblər Azərbaycan komandalarına, xüsusilə də "Qarabağ"a. Nə qədər belə hakimlərin qurbanı olmuşuq.

"Qarabağ"a ruhdan düşməməyi arzulayıram. Futboldu da udmağı da var, uduzmağı da. Əsas odur Avropaya göstərdiniz ki, biz də futbol oynaya bilirik. Özü də almanlara Almaniyada.

Çox qəribədir ki, hakimlərin belə münasibəti tək bizə deyil, qardaş Türkiyəyə də, qonşu Rusiyaya da həmişə belə münasibət bəsləyiblər.

**Stalinin sözü olmasın, gün gələr bizim də küçədə toy-bayram olar.**

**İradə TUNCAY**
**iradetuncay@rambler.ru**

## Yüz il sonra...



**Hər səhər ayılıb xoş xəbərlərlə doyuruq... 21-ci əsrdi, təbii qarşılamaq lazımdı.**

**Hərənin öz fikri var bu barədə... Mənim öz fərziyyəm... Belə düşünürəm ki, yer kürəsində ümumilikdə rahatlıq yoxdusa, qan tökülürsə, nalə ərşə çıxırsa ayrı-ayrılıqda ölkələrin rahat yasamasi mümkün deyil... İnsan orqanizminə fikir verin - bir üzv sıradan çıxırsa başqa üzvlər də xəstələnir. Yer kürəsi də vahid orqanizmdi. Bir ölkədə bomba yağırsa - yağış yerinə, o biri ölkədə insanlar çörək yerinə bir-birinin ətin yeyirlərsə, bizim başımıza bomba yağmasa da faciələrdən uzaq qala bilməyəcəyik... Dənizdə boğulacağıq, balkondan düşəcəyik, maşınlarımızın qəzaları çoxalacaq, narkotik, alkol bağımlıları artacaq... Moya xata s krayu demək olmur... Dialektika... Haqlı olduğumu düşünürəm yenə də... Ən azından eyni problemləri yaşadıq bu aylarda.**

Bax:səh-3

### AXIRDA BUNLAR CƏRCƏNƏK OLACAQLAR

**Ermənistanın müdafiə naziri gedib ABŞ-a, xarici işlər naziri də gedib Moskvaya.**

### Qəzetimizin əməkdaşı Eminquey Şuşadan xoşbəxtcəsinə zəng eləmişdi



**Qəzetimizin əməkdaşı, şair Eminquey çoxdandı arzuladığı Şuşadan xoşbəxtcəsinə zəng eləmişdi. Amma səsində bir kədər vardı. Xoşbəxtlik və kədər. Gələr, öyrənərik: xoşbəxtlik nə idi və səsindəki kədər nə idi?**

### GÜNÜN LƏTİFƏSİ

### MERKELİN PUTİNLƏ SÖHBƏTİ



Merkel deyir:

**- Vladimir Vladimiroviç, mən işə "Mersedes"lə gedirəm. Camaatla görüşə "Volsfagen"lə, xaricə səyahət zamanı isə "BMV"-lə. Siz necə?**

Putin:

**- Mən işə də, camaatla görüşə də "Çayka" ilə gedirəm, xaricə isə "Armata" tankıyla.**

# Prezident sanatoriyanın açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.**

Adalet.az xəbər verir ki, sanatoriyanın yeni binası Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən inşa olunub.

Səhiyyə naziri Teymur Musayev dövlət başçısına görülən işlər barədə məlumat verib. Bildirilib ki, 1914-cü ildən fəaliyyət göstərən professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyası sağlamlığına qovuşmaq istəyən şəxslərin istifadəsi üçün tam hazır vəziyyətə gətirilib. Sanatoriya üçün 300 çarpayılıq beşmərtəbəli yeni bina inşa edilib. Sağlamlıq müəssisəsində müasir avadanlıqla təchiz olunmuş laboratoriyalar, şüa-diaqnostika, poliklinika, fizioterapiya şöbələri fəaliyyət göstərəcək. Sanatoriyaya uşaqlar 6 yaşa qədər və 7-17 yaş qrupları üzrə qəbul edilir. Sanatoriyada stasionar şəraitdə müalicə alan uşaqların 11 illik təhsili təşkil olunacaq və beləliklə, onların təhsillərində fasilələr yaranmayacaq. Prezident İlham Əliyev sanatoriyanın fizioterapiya, rentgen otaqlarında, kliniki laboratoriyada, yeməkxanada, akt zalında, kitabxanada, palatalarda, sinif otaqlarında yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, vərəm ən çox ölümə səbəb olan yoluxucu xəstəlikdir. Buna baxmayaraq, vərəm sağalan xəstəlikdir. ÜST-nin ekspertlərinin fikrincə, onun aşkarlanması, müalicəsi və sağalması üçün əhalinin məlumatlılığının artırılması, qlobal epidemiyanın ləğvi və profilaktika üsulları ilə əlaqədar səylər birləşdirilməlidir. Son illər vərəmin diaqnostika və müalicəsində səmərəliliyin artırılması statistikaya da müsbət təsirini göstərib, həm yoluxma, həm də ölüm hallarında azalma müşahidə edilməkdədir.

Azərbaycan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edilən ölkələrdən biridir. Ölkəmizdə də ictimai sağlamlığın əsas məsələlərindən olan vərəmlə mübarizədə dövlət proqramı və Milli Strategiya qəbul edilib, ixtisaslaşmış tibb müəssisələri tikilib, müasir yanaşma tətbiq olunub. Respublikamızda rəsmi qeydiyyata düşən vərəm xəstələrinin müayinəsi və müalicəsi tam dövlət hesabına həyata keçirilir.

# İlham Əliyev Bakıda yeni korpusu tikilən məktəbdə yaradılan şəraitlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub.**

Adalet.az xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, 1931-ci ildən fəaliyyət göstərən 35 nömrəli tam orta məktəb tamamilə yenidən qurulub, təhsil ocağının 1931-1935-ci illərdə inşa edilmiş köhnə korpusu sökülərək yenidən inşa olunub. Məktəbin 888 şagird yerlik yeni binasında 24 sinif, informatika, əmək, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, yeməkxana və akt zalı yaradılıb. Dördmərtəbəli binanın ümumi sahəsi 5454 kvadratmetrdir. Prezident İlham Əliyev məktəbin yeni binasının çağırışa qədər hərbi hazırlıq otağında, ekosinifdə, biologiya kabinetində, informatika və rəsm otaqlarında, yeməkxanada, əmək otağında və fizika kabinetində yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, təhsil müəssisələrinin işinin, tədris proqramlarının müasir çağırışlara uyğunlaşdırılması, müasir əmək bazarına uyğun kadr potensialının formalaşdırılması dövlətimizin prioritetləri sırasındadır. Müasir məktəblərin tikilərək istifadəyə verilməsi, təhsil müəssisələrində bərpa və yenidənqurma işlərinin ardıcıl xarakter alması da bu prosesin tərkib hissəsidir. Bu strategiyaya Heydər Əliyev Fondu da 2005-ci ildən icra olunan "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramı ilə davamlı şəkildə dəstək verir. Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayə deməkdir. Dövlətimiz bu baxımdan hazırda dünyada lider ölkələrdən biridir. Heç bir ölkədə qısa müddət ərzində bu sayda məktəb tikilməyib və yenidən qurulmayıb. Çox mühüm amillərdən biri də odur ki, yeni yaradılan və əsaslı təmir olunan təhsil müəssisələri ən müasir tədris avadanlığı ilə təchiz edilir.

# Prezident Suraxanıda yeni inşa edilmiş məktəb kompleksində yaradılan şəraitlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olub.**

Adalet.az xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevə məktəbdə yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, 1928-ci ildə inşa edilən təhsil ocağında müxtəlif illərdə təmir-bərpa işləri görülsə də, sıxlıq səbəbindən məktəbin əsaslı şəkildə yenidən qurulmasına ehtiyac yaranmışdı. Məktəbin 790 şagird yerlik binasında 54 sinif otağı var idi. Azərbaycan Prezidentinin "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" 2020-ci il 5 may, 2021-ci il 8 may, 2022-ci il 27 aprel tarixli sərəncamlarının icrası ilə əlaqədar məktəbin binası əsaslı təmir edilib və köhnə korpus sökülərək yerində yenisi tikilib. Eyni vaxtda 2304 şagirdin təhsil ala biləcəyi məktəb bütün inventarla təchiz edilib. Yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək müasir məktəb binası 82 sinif otağından ibarətdir.

Qeyd olunub ki, dördmərtəbəli korpusda sinif, əmək, hərbi, rəsm, həkim, musiqi və müəllimlər otaqları, laboratoriyalar, kitabxana, yeməkxana, idman, aerobika və akt zalları var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır. Beləliklə, məktəblərin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür. Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Birinci vitse-prezident Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.

# FHN-də müşavirə: Nazirlər görüşüb meşələrdə baş verən yanğının səbəblərini müzakirə etdilər

**Fövqəladə Hallar Nazirliyində (FHN) nazir general-polkovnik Kəmaləddin Heydərov və ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin birgə iştirakı ilə meşələrdə yanğın təhlükəsizliyi məsələlərinin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.**

FHN-in mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, müşavirədə fövqəladə hallar nazirinin müavini Tapdıq Əmiraslanov, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, hər iki nazirliyin aidiyyəti struktur bölmə və qurumlarının rəhbər heyəti iştirak edib.

Müşavirədə çıxış edən nazir Kəmaləddin Heydərov keçirilən müşavirənin əhəmiyyətinə toxunaraq, son dövrlər ölkəmizdə baş vermiş meşə yanğınları və onların səbəbləri barədə məlumat verib.

Nazir qeyd edib ki, qlobal iqlim dəyişikliyi fonunda havaların uzun müddət isti, quraq keçməsi və antropogen amillərin təsiri ilə təəssüf ki, bu il də ölkəmizin müxtəlif bölgələrində meşə yanğınları baş verib. Nazir xatırladıb ki, mürəkkəb relyefli dağlıq ərazilərdə baş vermiş yanğınların söndürülməsi əlavə çətinliklərlə müşayiət olunsa da Fövqəladə Hallar Nazirliyi çox sayda qüvvə və vasitələr səfərbər edərək, əlaqədar qurumlarla əlaqəli şəkildə yanğınların söndürülməsinə nail olunub. Meşə yanğınları ilə kompleks mübarizənin effektli təşkil edilməsi üçün aidiyyəti dövlət orqanları arasında koordi-



nasiyalı fəaliyyətin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayan nazir K.Heydərov meşə yanğınlarının profilaktikası və meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində təkliflərin hazırlanaraq müvafiq qaydada təqdim edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsinin rəhbərliyi altında hər iki nazirliyin əməkdaşlarından ibarət birgə işçi qrupun yaradılmasını təklif edib.

Sonra müşavirədə çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev meşə yanğınları ilə mübarizənin səmərəliliyinin daha da artırılması üçün bu kimi birgə məsləhətləşmələrin əhəmiyyətini qeyd edib. O, rəhbərlik etdiyi nazirliyin meşə yanğınlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat verib, ekoloji tarazlığın qorunub saxlanılması məqsədilə atılan addımlardan danışıb. Meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi sahəsində qurumlararası birgə fəaliyyətin genişləndirilməsi ilə daha yaxşı nəticələrin əldə olunacağına əminliyini ifadə edən nazir M.Babayev birgə işçi qrupun yaradılması təklifini yüksək qiymətləndirdiyini bildirib. Daha sonra yay aylarında meşələrdə baş vermiş yanğınlar və onların söndürülməsi əməliyyatlarına dair FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi daxili xidmət general-mayoru Füzuli Əsədov, meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində aidiyyəti üzrə görülən tədbirlər barədə Dövlət Yanğın Nəzarəti Xidmətinin rəisi daxili xidmət general-mayoru Hikmət Abbasov çıxış ediblər.

Sonra FHN-in Rəqəmsal texnologiyalar və innovasiyaların inkişafı Baş idarəsi rəisinin birinci müavini Nicat Əliyev pilot layihə olaraq tətbiqinə start verilmiş fövqəladə halların intellektual idarəetmə sisteminin meşə ərazilərində yanğın təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar imkanları barədə təqdimat edib.

**Sonda müşavirənin yekunu olaraq, meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində kompleks təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsinin rəhbərliyi ilə hər iki nazirliyin əməkdaşlarından ibarət birgə işçi qrupun yaradılması barədə qərar qəbul olunub.**

# "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi

## 39 siyasi partiya təkliflərini verdi

**Milli Məclis "Siyasi partiyalar haqqında" yeni qanun layihəsini müzakirəyə çıxarıb. 6 fəsil və 30 maddədən ibarət olan qanun layihəsində siyasi partiyaların yaradılması, qeydiyyata alınması və ləğvi qaydalarında dəyişikliklər, siyasi partiyanın fəaliyyətinə nəzarət təklif olunur.**

Yeni qanun layihəsinin hazırlanması prosesində 20-dən artıq ölkənin bu sahədə təcrübəsi və Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələri də nəzərdən keçirilib.

Milli Məclisin deputatları qanun layihəsi barədə fikirlərini bölüşüblər. **Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov** bildirib ki, siyasi partiyaların fəaliyyətinin bütövlükdə hüquqi müstəvidə həyata keçirilməsini təmin edən qanunvericilik bazasının mövcudluğu müasir dövlətin siyasi sisteminin səmərəli fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir:

"Qanunun aliliyi konsepsiyasının mahiyyəti və məzmunu müxtəlif publik-hüquqi institutların və ya qeyri-dövlət, o cümlədən könüllülük prinsipinə əsaslanan ictimai birliklərin, demokratik təmsilçiliyinə əsaslanan təsisatların idarə olunmasında vətəndaşların iştirakını təmin edən qurumların fəaliyyətinin hüquqi tənzimlənməsini birmənalı olaraq ehtiva edir.

Bu baxımdan, siyasi partiyaların institusionallaşması probleminə və onların fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə Azərbaycan Respublikasında müstəsna diqqət yetirilir.

Xatırladım ki, hazırda qüvvədə olan "Siyasi partiyalar haqqında" Qanun bu növ ictimai birliklərin hüquqi tənzimlənməsinin çağdaş təcrübəsini yetərincə əks etdirmir və ölkəmizin hazırki inkişaf mərhələsində mövcud siyasi reallıqları nəzərə ala bilmir.

Həqiqi çoxpartiyalı sistemin formalaşması, siyasi plüralizmin inkişafı, bütün siyasi təşkilatların fəaliyyəti üçün bərabər hüquqlu şəraitin yaradılması, ictimai münasibətlərin inkişafı üçün partiyaların yeni formatlara uyğunlaşması "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanmasını tələb etmişdir. Bu baxımdan siyasi partiyaların fəaliyyətinin hüquqi əsaslarının yenilənməsi üçün partiya rəhbərlərinin Milli Məclisin sədrinə müraciət etmələri təbii addım idi.

Qeyd edək ki, qanun yaradıcılığı təcrübəsində ilk dəfə olaraq parlament komitələrinin iclaslarında rəsmi müzakirələrdən əvvəl layihənin müvafiq mətni Milli Məclisin internet saytında yerləşdirililmişdir. Bundan başqa, Milli Məclis hələ iyulun 26-da dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara müraciət edərək, onları yeni qanun layihəsi ilə bağlı təklifləri təqdim etməyə dəvət etmişdir və 39 partiya bu cür təkliflərlə çıxış etmişdir.

"Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanmasında böyük həcmdə müqayisəli materiallardan istifadə olunmuşdur. Belə ki, 20-dən



çox dövlətin siyasi təcrübəsi və müvafiq qanunvericiliyi nəzərdən keçirilmişdir, Venesiya Komissiyasının 2010, 2020-ci illərə hazırladığı tövsiyələr, və xüsusilə, "Siyasi partiyaların fəaliyyətinin hüquqi tənzimlənməsi haqqında Əsasnamə" nəzərə alınmışdır.

Birmənalı olaraq vurğulanmalıdır ki, siyasi partiyalar haqqında qanunvericiliyin əsaslı şəkildə yenilənməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən ictimai-siyasi institutların təkmilləşdirilməsi və səmərəli, konsruktiv siyasi dialoqun genişmiqyaslı inkişafı prosesinin tərkib hissəsidir. Ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən sistemli islahatlar dövlətin və cəmiyyətin həyatının bütün sahələrini, o cümlədən siyasi partiyaların fəaliyyətini əhatə edir ki, bu da yeni, müasir siyasi mədəniyyətin, siyasi plüralizmin inkişaf etmiş sisteminin formalaşmasına imkan verir".

### *Qanun layihəsini tələsik tənqid etmək doğru olmaz*

"Azərbaycanda "Siyasi partiyalar haqqında" mövcud qanun 30 il bundan əvvvəl yəni 1992-ci ildə qəbul edilib. Bu, qanunun yenidən formalaşdırılmasına zəruri edən əsas arqumentlərdən biridir. Bu səbəbdən də Azərbaycanda qeydiyyatdan keçmiş bir çox partiyanın təklifi əsasında Milli Məclisdə məhz "Siyasi partiyalar haqqında" yeni qanunun hazırlanması qərarına gəlinib". Bu fikirlərin müəllifi isə **Milli Məclisin deputatı Naqif Həmzəyev**dir.

Onun sözlərinə görə, Milli Məclis tərəfindən bu qanun layihəsinin hazırlanması ilə bağlı ictimaiyyət məlumatlandırılıb və qeydiyyatdan keçmiş bir çox partiya tərəfindən təkliflər də Milli Məclisə göndərilib. Bu da istər-istəməz qanun layihəsinin ictimaiyyətə açıq formada həyata keçirilməsini mümkün edir:

"İlkin dinləmələr zamanı təbii ki, bir çox maddələr üzrə dəyişikliklərin olması, yeni təkliflərin gündəmə gəlməsi mümkündür və gözləniləndir. Qanun layihəsini tələsik tənqid etmək, hansısa maddələr üzrə fərqli fikirlər söyləmək doğru olmaz. Bütün siyasi partiyalar öz təkliflərini Milli Məclisə, İşçi Qrupa göndərsələr çox əla olar.

Biz nəzərə almalıyıq ki, Azərbaycanda islahatlar həyata keçirilir, Milli Məclisin fəaliyyətində də islahatların şahidi olmuşuq və artıq Milli Məclisdə rəhbər vəzifələrdə müxtəlif siyasi partiyaların nümayəndələri təmsil olunur".

Naqif Həmzəyev fikirlərinə davam edərək həmçinin qeyd edib ki, yeni qanun layihəsi qəbul edildikdən sonra Azərbaycanda siyasi proseslərdə bütün partiyaların iştirakı daha rahat, daha çevik və daha məhsuldar olacaq: "Bu baxımdan qanun layihəsinin yenidən hazırlanması dövrün tələbədir, bütün siyasi partiyaların, o cümlədən siyasi fəaliyyətlə məşğul olan ekspertlərin öz təkliflərini, iradlarını göndərmələrinə çox böyük ehtiyac var".

### *Əsas prinsip demokratik dəyərlərin gözlənilməsi və şəffaflıq*

**Millət vəkili Vüqar Bayramov** isə layihə ilə bağlı qeyd edib ki, yeni inkişaf hədəfləri kontekstində yeni Qanunun qəbulu zəruri idi: "Nəzərə almaq lazımdır ki, mövcud "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu 1992-ci il 3 iyun tarixində qəbul edilib. Aydındır ki, ötən 30 ildə siyasi münasibətlərə baxış dəyişib və ölkədə formalaşan yeni siyasi düzən hüquqi müstəvidə də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımların atılmasını vacib edirdi. Layihənin hazırlanması prosesində demokratik dəyərlərin gözlənilməsi və şəffaflığın qorunması əsas prinsiplərdən olub. Belə ki, qanun layihəsi Milli Məclisin plenar iclasına, həmçinin komitələrin iclasına çıxarılmazdan əvvəl Milli Məclisin saytında yerləşdirilib və bu ayın 28-də ilk ictimai dinləmə də təşkil ediləcək. Məhz bu prinsiplərin gözlənilməsi layihənin hazırlanması prosesində siyasi partiyaların daha fəal iştirakına zəmin yaradıb".

V.Bayramov yeni layihənin hazırlanmasında beynəlxalq təcrübənin əhəmiyyətini də vurğulayıb: "Artıq 39 siyasi partiya öz təkliflərini rəsmi olaraq Milli Məclisə təqdim edib ki, bu da prosesdə siyasi inklüzivliyin yüksək olduğundan xəbtəkliflərini ünvanlayan siyasi partiyaların sayı 39-a çər verir. Çox vacib məqamlardan biri də layihənin hazırlanması zamanı beynəlxalq təcrübənin öyrənilməsi və nəzərə alınmasıdır. Layihə hazırlanarkən Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010 və 2020-ci illərdə qəbul etdiyi tövsiyələr, həmçinin 20-dən artıq ölkənin təcrübəsi nəzərdən keçirilib. Bu isə qanun layihəsinin beynəlxalq prinsplərinə uyğun olaraq hazırlanmasının göstəricisidir".

**Nicat Novruzoğlu**

# Təhsil eksperti: III ixtisas qrupunda ballar kəskin şəkildə aşağı düşdü

**Ümummilli lider Heydər Əliyev təhsil haqda danışarkən həmişə deyirdi: "Təhsil millətin gələcəyidir". Doğrudan da belədir. Təhsili olmayan bir cəmiyyətin uğurlu gələcəyi ola bilməz. Belə düşündüyümüz halda niyə görə ali məktəbə qəbul imtahanlarında kifayət qədər uğurlu nəticə əldə edən abituriyentlər öz ölkəmizdə yox, xarici ölkələrdə təhsil almağı üstün tuturlar? Doğrudanmı gənclər öz taleyini bizim təhsillə bağlamaq istəmir ? Yoxsa ölkədən kənara çıxmaqla genişprofilli təhsil sisteminə uyğunlaşmaq sadəcə dəb halını alıb? Bütün bu sual doğuran məqamlara biz də "Ədalət.az" olaraq biganə qalmadıq.**

Gündəmi zəbt edən məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov Adalet.az-a danışdı.

Ekspertin sözlərinə görə, DİM təşkil etdiyi imtahanları mükəmməl olaraq həyata keçirə bildi: "Bu il ali təhsil müəssisələrinin bakalavr pilləsi üçün keçirilən qəbul imtahanları öz məzmununa görə fərqlənirdi. Bu il ilk dəfə olaraq bu qədər tələbələr geniş imtahan prosesinə cəlb edilmişdilər. DİM-in keçirdiyi imtahanlarda ciddi bir pozuntunu müçahidə etmədik. Ali təhsil müəssisələrinin ixtisas qrupları üzrə nəticələri təhlil edəndə ən ciddi bal artımı I ixtisas qrupunda müşahidə olunur. Belə ki, I ixtisas qrupunda əvvəlki illərlə müqayisədə "İnformasiya Texnologiyaları", "Komputer mühəndisliyi" kimi ixtisaslarda ciddi bal artımı müşahidə edilib. Lakin buna baxmayaraq, yenə də 201; 206 balla dövlət sifarişli ixtisaslara qəbul olmaq mümkün olub. Bu il I ixtisas qrupunda ballar artsa da, digər ixtisas qruplarında azalmanı müşahidə edirik. Bu, xüsusən III ixtisas qrupunda müşahidə olunur.

Kamran Əsədov deyir ki, II ixtisas qrpuna qəbul olmaq kifayət qədər əlçatan olub. Keçən illə müqayisədə özəl universitetlərin şərti keçid balı 150 bal adlandırdığımız ixtisaslarda bal artımı müşahidə olunub. Keçən il "marketinq" ixtisasına 150 balla qəbul



olmaq mümkün olmuşdursa, bu il həmin ixtisasa 168 balla qəbul olmaq mümkün olub.

"Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisaslarının II ixtisas qrupundan çıxarılması keçid ballarına öz təsirini göstərdi. Digər vacib məqam isə III ixtisas qrupunda müşahidə olunur. Bu qrupda kəskin bal azalmasını görürük. III ixtisas qrupuna daxil olan bütün ixtisaslarda ballar kəskin şəkildə aşağı düşdü. Bunun da səbəbi IIIixtisas qrupuna artırılan "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisasları oldu.

Məsələn, Hüquqşünaslıq ixtisasının dövlət sifarişli balı 523-ə qədər, ödənişlisi isə daha aşağı bala qədər azaldı. Keçən il 400-450 bal aralığında dövlət sifarişli ixtisaslara qəbul olmaq mümkün deyildi. Ancaq bu il həmin bal intervalında dövlət sifarişli ixtisaslara qəbul olmaq mümkündür.

Lakin IV ixtisas qrupunda tibb ixtisaslarında keçən illə müqayisədə bal artımını müşahidə etdik. Hətta bu qrupda 600 balla abituriyentlər ödənişli ixtisaslara qəbul olublar. Bu da IV ixtisas qrupunda plan yerlərinin müəyyən qədər azalmasının göstəricisidir.

V ixtisas qrupunda isə ciddi bir bal artımı müşahidə edilməyib. Abitruyentlər 90 bal intervalında V ixtisas qrupuna qəbul olmaq imkanlarına malikdirlər.

Bu məsələdə pandemiyanın da təsiri var. Ancaq ümumən, bu ilki qəbul imtahanlarını qənaətbəxş hesab etmək olar. Ən əsası onu qeyd edim ki, Azərbaycanda 90 balla və ondan daha aşağı balla ali təhsil müəssisəsinə qbəul olmaq mümkündür.

**Əntiqə Kərimzadə**

*Aqil ABBAS*

# ƏVVƏLLƏR PAMBIQ PRİPİSKA EDİRDİK, İNDİ ADAM PRİPİSKA EDƏCƏYİK

***Sovetlər dönəmində pambıq pripiskası dəbdəydi. Əslində bu pripiskanın xalqa heç bir ziyanı yox idi. Əkmədiyi, becərmədiyi, yığmadığı pambığı pripiska edirdi və həmin pripiska olmuş pambığı da kiloqramına 5-10 qəpik rüşvət verməklə sırıyırdı Rusiyanın fabrik və zavodlarına. Rusiyanın fabrik və zavodları da hər kiloqramına görə, növündən asılı olaraq, 60-86 qəpik pul ödəyirdi bizim pambıq zavodlarına. O pulu da zavodlar verirdi kolxozlara, sovxozlara. Kolxoz və sovxozlar da bir pay özüyçün, katib üçün götürürdü, qalanını da paylayırdı camaata. Camaat becərmədiyi pambığın hesabına milyoner olmuşdu.***

***Üzümçülükdə pripiska daha asan idi. Plan üzrə üzümün şəkərliliyi 18 dərəcə olmalı idi. Sovxozlar əsasən rkasteli növü əkirdilər, o da 27-28 dərəcə şəkərlilik verirdi. Yendirirdilər 19 dərəcəyə, çünki şəkərliliyi 19 dərəcə olanda üzümçülər mükafatlandırılırdı. Yerdə qalan 8-9 dərəcə də sovxozun nəfi idi. Ondan hazırlanan çaxırı vaqonlara yükləyib göndərirdilər Rusiyanın şərab zavodlarına. Çox qəribədir ki, o vaxtlar bizdə şərabı butılkaya dolduran zavodlar yox idi (bir-iki xırda zavodu çıxmaq şərtilə). Həmin zavodlar Rusiyada idi, əsas xeyir də onlar götürürdü. Hər Rusiyaya yola salınan şərab daşıyan qatarlarda iki sistern "levi" şərab əlavə olunurdu hərəsi 64 tondan. Bələdçilər deyir ki, Rusiyada bütün stansiyalarda bilirdilər ki, Ağdam şərabını daşıyan qatarlar hansı stansiyadan saat neçədə keçəcək. Millət tökülürdü əlində vedrə, bidon, kanistr stansiyalara, biz də düşüb sisternanın kranını açırdıq. Hər reysdən ən azı 120-150 min manat pul qalırdı. Söhbət o vaxtın pulundan gedir, indikindən getmir. İndi görün Azərbaycandan hər gün neçə reys şərab göndərilirdi?***

***Həmin zamanlarda atam üzümçülük sovxozunun direktoru işləyirdi. Mən də o pripiska pulundan çox xərcləmişəm.***

***Müstəqillik dövründə bu pripiskaları yığışdırdılar. Çünki artıq pambığı da, üzümü də özümüz emal etməyə başladıq. Özümüz özümüzü aldada bilməzdik axı?!***

***Bu pripiska söhbətini niyə yazdım? İndi siyasi partiyalar haqqında qanun hazırlanıb. İctimaiyyətdə və Milli Məclisdə geniş müzakirə olunduqdan sonra qəbul ediləcək. Qanunda qeyd edilir ki, hər bir siyasi partiyanın ən azı 10 min üzvü olmalıdır. Əslində çox düzgün qərardı. Bir partiyanın ki 10 min üzvü yoxdur, kimə və nəyə gərəkdir?***

***Bu gün oxudum ki, 8-9 siyasi partiyanın rəhbərindən açıqlama alıblar, hamısı deyib ki, bizim üzvlərimizin sayı 10 mindən çoxdur. Pripiskadı başdan-ayağa. Adam pripiskası. Ölkədə 60 siyasi partiya qeydiyyata alınıb. Bu minvalla hesablasaq Azərbaycanda partiya üzvlərinin sayı 1 milyon 300 mini keçər.***

***Partiyalarda əsl pripiska indən sonra başlayacaq.***

***İndi əsas iş düşür müvafiq icra orqanlarının üstünə. Deyək ki, Ədliyyə Nazirliyinin və Mərkəzi Seçki Komissiyasının üzərinə. Deputat seçkilərində müəyyən həddə imza toplamalısan, sonra yaradılan komissiya həmin imza vərəqələrini götürür kəndbəkənd gəzir və onun nə dərəcədə həqiqət olduğunu araşdırır, özü də bir-bir. Saxtakarlıq varsa həmin şəxsin namizədliyi ləğv olunur.***

***İndi belə komissiyalar yaradılmalıdır və yoxlamalıdır ki, bu siyahılarda nə qədər saxtakarlıq var.***

***Məsələn, mənim doğulduğum kənddə 1500-ə qədər əhali yaşayır. YAP, Müsavat və Ümidin hərəsinin 10-15 nəfər üzvündən başqa heç bir siyasi partiyanın üzvü yoxdur.***

***Bir dəfə deputat seçkiləri vaxtı mənim seçki dairəm olan Ağcabədi rayonu 83 nömrəli dairədə adını yazmaq istəmədiyim bir siyasi partiyaya komissiya üzvü yeri ayrılmışdı. Partiyanın sədri xahiş elədi ki, bir nəfər adam tapım onun partiyasının adından həmin komissiyaya üzv yazdırsınlar. Getdim kəndimizə, ərkim çatan mamam oğlundan xahiş elədim ki, gəl filan partiyadan komissiya üzvü ol, altı ay da maaş alacaqsan filan qədər. Güldü, dedi ki, mən heç o partiyanın adını da eşitməmişəm. Getsəm elə YAP-dan gedərəm də.***

***Bizdə 3-4 partiyanı çıxmaq şərtilə demək olar ki, əksər partiyalar bölgə partiyalarıdı. O bölgədən ki, sədr oralardandır.***

***Azərbaycanda mənim subyektiv fikrimə görə, YAP (750 mindən çox üzvü var, heç biri də pripiska deyil), Müsavat, AXCP-dən savayı 10 min və ya 10 mini keçəcək üzvü olan partiyalar yoxdur. Bir az da Ümiddi, orda da əsasən qarabağlılar, bir də Bakı şəhəri təmsil olunur.***

***İndi partiya sədrləri, ya üzvləri və onların trolları mənə hücuma keçəcəklər, kağız üzərində sübut etməyə çalışacaqlar ki, onların partiyalarının 10 min nədi, 20-30 min üzvü var.***

***Partiyanız ağırdı - bu daş, bu tərəzi. Daş partiyalardı, tərəzi də Ədliyyə Nazirliyi və Mərkəzi Seçki Komissiyası.***

***Və yeri gəlmişkən, İsa Qəmbər çox hazırcavab və incə yumoru olan bir şəxsdi. Bir dəfə Müsavatın binasında müxalif partiyaların iclası keçirilirmiş. İclas qurtarandan sonra İsa Qəmbər pəncərənin önündə siqaret çəkirmiş və görür ki, bir partiya sədri və müavini binadan çıxıb oturdular "Jiquli"lərinə. Və "Jiquli" də elə onların ofisi idi.***

***Gülüb deyir:***

***- Partiya belə olar ey, yığcam və lakonik.***

***Görəsən, Azərbaycanda belə nə qədər yığcam və lakonik partiya var? İnşallah, qanun qəbul olunandan sonra biləcəyik.***

# UNİVERSİTET DİPLOMLARI ETİBARSIZ SAYILIRMI?

**Mənfur Sovet hökumətində təyinat vardı, ali məktəbi bitirənlər məcburi qaydada iki il təyinat yerində işləməli idi. Və hökumət bilirdi ki, hansı rayonda, hansı kənddə və yaxud hansı müəssisədə, zavodda, fabrikdə hansı mütəxəssisə ehtiyac var. Təyinat verirdi və həmin gəncə də gənc mütəxəssis kimi imtiyazlar tanıyırdı.**

**Bəndəniz universiteti bitirəndə Təhsil Nazirliyi təyinatımı Ağdama deyil, Ağsu rayonuna verdi - internat məktəbində dil-ədəbiyyat müəllimi. Düz bir il Ağsuda müəllim işlədim. Bir ildən sonra mənə icazə verdilər ki, Bakıya qayıdım, dəfələrlə ərizə və xahişimdən sonra. Çünki təyinat yerindən qaçan gəncləri heç bir müəssisə işə götürmürdü. Mən müəllim işləyə-işləyə jurnalistika ilə məşğul olurdum, yazılarımı yığıb göndərirdim nazirliyə, xahiş elədim ki, məni vaxtından əvvəl işdən çıxarsınlar. İcazə verdilər və gəlib "Elm və həyat" jurnalında jurnalistlik fəaliyyətinə başladım.**

**Yəni deməyim odur ki, mənimlə qurtaran 50 tələbə yoldaşımın hamısı təyinatla rayonlara göndərildi. Fərqlənmə diplomu ilə qurtaranlar isə ya birbaşa aspiranturaya qəbul olundu, ya da Akademiyada işlə təmin edildi. İndi onların çoxu elmlər doktoru, professordu.**

**İndi day təyinat yoxdu. Diplomu verirlər, deyirlər get özünə iş tap. Və ölkə diplomlu işsizlərlə doludu. İşə qəbul olunmaq üçün Dövlət İmtahan Mərkəzində imtahan verməlisən. Universiteti bu il qurtaran, hətta fərqlənmə diplomu ilə bitirən gənc niyə Dövlət İmtahan Mərkəzində imtahan verməlidir?**

**4 il universitetlərdə təhsil alan, dövlət imtahanı verən gəncin diplomu niyə bu qədər etibarsız sayılır?**

**Dövlət İmtahan Mərkəzi Azərbaycan universitetlərinin verdiyi təhsilə inanmırmı? Və niyə inanmır?! Və universitetin rektorları da niyə bu məsələyə etinasız yanaşır? Rayon və kəndlərimizdə nə qədər müəllim yeri, həkim yeri (təkcə Ağdam və Ağcabədi rayonlarının hər birində 80-dən yuxarı həkim çatışmır), mühəndis, aqronom yeri boşdur. Niyə Tibb Universitetinə hüquq verilmir ki, universiteti bitirən gənc mütəxəssisləri təyinatla bölgələrə göndərsin? Hökumət nə qədər xərc çəkib həmin tələbələri oxudub, getsin iki il təyinat yerində işləməklə dövlətə borcunu qaytarsın. Sonra orda işləmək istəmirsə, buyursun üzü güləbətinə, harda istəyir gedib işləsin.**

**Və keçmişdə olduğu kimi, təyinat yerlərinə göndərilən gənc mütəxəssislərə imtiyazlar da tanınsın.**

**Nə isə, bu da belə.**

Aqil ABBAS

# SİZ AĞDAMLILAR PAXILSINIZ DANA...

*"Qarabağ"ın ən ağır günləri idi. Rayon işğal altında, stadion yox, maliyyə dəstəyi yox, maaş yox. Az-çox Ağdamın o vaxtkı icra başçısı Həsən Sarıyev kömək edirdi, bir də bəzi ağdamlılar. Qeyri-ağdamlı dostlardan da hərdən maliyyə dəstəyi görürdük. Komandanı dağılmaqdan futbolçuları Ağdam təəssübü qoruyurdu. Bütün çətinliklərə, məhrumiyyətlərə baxmayaraq futbolçular komandanı tərk etmirdi.*

*Belə bir vaxtda komandanın direktoru Adil Nadirov üzünü mənə tutub dedi:*

*- Məllim, Ağcabədinin icra başçısını tanıyırsan?*

*- Hə, nədi ki?*

*- Ondan bir xahiş edərsən?*

*- Dostumdu, özü də yaxşı kişidi, niyə eləmirəm?*

*Həmin vaxt Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şamil Həsənov idi. Həm qonşu kənddən idik (Bayatla Kəhrizlinin arası heç 2 kilometr olmaz), həm də dostuyduq. Sözü bütöv adamıydı, Qarabağın saytal kişilərindən, xətirli-hörmətli kişilərindən idi. Uzun illər kolxoz sədri, Aqropromun sədri və rayonun İspalkomu işləmişdi.*



*Cəbhəçilər rayon Partiya Komitəsinin 1-ci katibi Aydın Alıyevi şəhərə buraxmayıb, Partiya Komitəsinin binasını zəbt edəndə onu da zorla mitinqə gətirmişdilər ki, işdən gedən katibin əleyhinə danışsın.*

*Amma bu dizibərk kişi nəinki katibin əleyhinə danışmışdı, əksinə, katibi tərifləmişdi. Ona görə onu da işə buraxmamışdılar. Gün döndü, Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra hələ kolxoz sədri işləyən vaxtdan tanıdığı Şamil Həsənovu rayona icra başçısı təyin etmişdi.*

*Adil Nadirovdan soruşdum ki, nə məsələdi?*

*- Bizim Səttarın valideynləri, qardaşı Ağcabədidə yerləşiblər. Qardaşının Ağdamda apteki vardı, başçıdan xahiş edərsən onun qardaşına Ağcabədidə bir aptek yeri versin, qardaşı da həm öz ailəsini dolandırsın, həm də arada Səttara əl tutsun.*

*Səttar "Qarabağ" komandasının kapitanı idi. Nə isə, getdim Ağcabədiyə. Şamil müəllimlə görüşdük, vəziyyəti izah elədim. O da müavini çağırdı, tapşırıq verdi ki, Səttarın qardaşına bir aptek yeri verin. Sonra da dedi:*

*- Bu gün Ağcabədidə kəndlərarası futbol yarışı keçirilir, bəlkə gedək stadiona futbola baxaq? Ondan sonra gedək çörək yeməyə.*

*Gəldik stadiona. Onu da deyim ki, 1987-ci ildə Aydın Alıyev tikdirmişdi bu stadionu və mən də bir fəhlə kimi bu stadionun ot örtüyünün salınmasında iştirak etmişdim. Onda elə Aydın Alıyev də, Şamil Həsənov da stadionun tikintisində fəhləlik edirdi.*

*İki kənd arasında oyun başladı. Bir də gördüm ki, kəndlərin birinin komandasında Səttar da oynayır, özü də ayaqyalın. Ayağının ölçüsünə idman aqaqqabısı tapılmamışdı.*

*Səttar peşəkar futbolçu, bir sağdan, bir soldan, bir zərbə, qol. Yenə bir sağdan, bir soldan, yenə zərbə, yenə qol. Səttar od-alov olub.*

*Şamil Həsənov da ayaqüstə alqışlayır və birdən çöndü mənə tərəf əsəbi halda:*

*- Siz ağdamlılar paxılsınız dana, özünüzdən başqa heç kəsi sevmirsiz. Görürsən Ağcabədidə nə futbolçu var, özü də hələ ayaqyalın oynayır. Aparın da "Qarabağ"a, niyə aparmırsınız? Ağcabədilidi deyin gözünüz götürmür?*

*Məni bir dəli gülmək tutdu.*

*- Şamil müəllim, bayaq qardaşına aptek yeri istədiyim oğlandı o. "Qarabağ"ın kapitanıdı.*

*Şamil müəllimi də gülmək tutdu:*

*- Ə, nə aptek yeri, bütün Ağcabədi ona qurbandı. Hələ tapşıracam apteki tikəndə də kömək eləsinlər.*

*Belə kişilər olub və var. Şamil müəllim indi təqaüddədi, hərdən telefonla danışırıq, ya da yolum Ağcabədiyə düşəndə görüşüb bir ötən günləri yad edirik.*

# GÜNAHIMIZ MÜSƏLMAN OLMAĞIMIZDIR

***Müsəlmanlar bircə dəfə adam kimi yaşayıblar o da Osmanlı imperiyasında. Osmanlı dağıldı və İslam aləmi zillətə düşdü. Osmanlını dağıdanlar, yəni Avropa 21 ərəb dövləti yaratdılar, hərəsinə də bir kral seçdilər, xəritələrini də xətkeşlə çəkdilər. Və indi bu 21 ərəb dövləti bir-biriylə düşməndir, bir-birini qırır, şəhərlərini dağıdır. ABŞ və Avropa da onlara öz silah və sursatlarını sırıyır baha qiymətə. Neftini daşıyır, nələri var daşıyır - incəsənət əsərlərini də, fironların mumiyalarını, hətta məbədlərinin daşlarını, antikvar nə varsa hamısını.***

***Müsəlman dövlətləri içərisində yalnız Türkiyə Qazi Mustafa Kamal Atatürkün sayəsində bunların arasından sıyrılıb çıxdı. 90-cı illərdə də keçmiş SSRİ məkanındakı türk müsəlman respublikaları da yarısalamat qaldılar. Onların da içində separatçılar yaratdılar, müharibələr saldılar, amma məhv edə bilmədilər, yenidən dirçəldilər.***

***Sabir yazır:***

***Cin görürəm, şeytan görürəm, qorxmuram,***
***Harda müsəlman görürəm, qorxuram.***

***Amma yazıq müsəlmanlar qalıblar cinlərin, şeytanların əlində. ABŞ başda olmaqla Avropa dövlətləri olub cin, şeytan onlara "Bismillah" sözü də təsir etmir.***

***Oxuyuram ki, Myanmada Arakan bölgəsində yaşayan müsəlmanları buddistlər qırır. Günahları müsəlman olmalarıdı. Özü də dünyanın gözü qarşısında. Heç kim mane olmaq istəmir. Bakılılar demiş, nöşün? Nöşün ki, müsəlmandırlar.***

***Uzağa niyə gedək? Ermənistandan 300 min azərbaycanlını üç-dörd ayın içində qırdıqlarını qırdılar, qıra bilmədiklərini ölkədən qovdular. Özü də bu, birinci hadisə deyildi, üçüncü hadisə idi. Nöşün? Nöşün ki, türkdülər, müsəlmandılar. ABŞ, Avropa dövlətləri, Rusiya hələ bir Ermənistana dəstək də verdi, silahlandırdı, Qarabağda separatçı rejimə hər il milyonlarla dollar pul ayırdı ki, yaxşı silahlanın.***

***İndi Myanmada müsəlmanları adam sayıb siyahıya almadıqlarına görə sayları dəqiq bilinmir, səkkiz dəfə qətliam etdikdən sonra indi təxmini hesablayırlar ki, 600 min müsəlman qalıb. Onları da sürgün ediblər, qapıbir qonşuları olan müsəlman dövlətləri Banqladeş, İndoneziya, daha nə bilim hansı kərtənkələ öz qardaşlarını qəbul eləmirlər. Alın bu da sizə müsəlman dövlətləri.***

***"Belə-belə işlər" Youtubedə Myanma müsəlmanlarının taleyindən dəhşətli bir video paylaşıb baxmaq olmur. Bugünki saytımızda həmin videonu biz də paylaşırıq, baxın, bu faciəni siz də görün. Hərçənd ki bu faciəni biz özümüz də yaşamışıq, bizə doğmadı.***

***Görünür, müsəlmanlara yeni bir xəlifə lazımdı, türk sultanları kimi. Ərəblər xəlifəliyi bacarmadı.***

İradə TUNCAY

# Yüz il sonra...

**Hər səhər ayılıb xoş xəbərlərlə doyuruq... 21-ci əsrdi, təbii qarşılamaq lazımdı.**

Hərənin öz fikri var bu barədə... Mənim öz fərziyyəm... Belə düşünürəm ki, yer kürəsində ümumilikdə rahatlıq yoxdusa, qan tökülürsə, nalə ərşə çıxırsa ayrı-ayrılıqda ölkələrin rahat yasaması mümkün deyil... İnsan orqanizminə fikir verin - bir üzv sıradan çıxırsa başqa üzvlər də xəstələnir. Yer kürəsi də vahid orqanizmdi. Bir ölkədə bomba yağırsa - yağış yerinə, o biri ölkədə insanlar çörək yerinə bir-birinin ətin yeyirlərsə, bizim başımıza bomba yağmasa da faciələrdən uzaq qala bilməyəcəyik... Dənizdə boğulacağıq, balkondan düşəcəyik, maşınlarımızın qəzaları çoxalacaq, narkotik, alkol bağımlıları artacaq... Moya xata s krayu demək olmur... Dialektika... Haqlı olduğumu düşünürəm yenə də... Ən azından eyni problemləri yaşadıq bu aylarda.

Söz vaxtına çəkər. Sentyabr ayı idi o vaxt da, daha dəqiq desəm, 1973-cü ilin 11 sentyabrı. Dünya qarışdı. Çilidə dövlət çevrilişi oldu və prezident Alyende öldürüldü. Görünür, okeanın o tayında düz burunlarının dibində sol yönümlü, Sovetin dəstəklədiyi bir quruluşu istəmirdilər təbii olaraq. Yalnız prezidentin ölümüylə kifayətlənmədi olaylar. Bütün müxalif düşüncəli adamlar ölkədən qaçdı , mərkəzi stadiona toplanmış 3200 insanı güllələdilər.... Ağlasığmaz vəhşiliklər törədilmişdi. Elə həmin stadionda məşhur Çili şairini işgəncə ilə, əzabla öldürdülər. Bu qətl də dünyada böyük əks-səda yaratdı. Məmməd Arazın məşhur şeirlərindən biri həmin şairə həsr olunub - Viktor Xara oxuyur.... Və bu günlərdə Qan Turalı mənə bir link göndərib xatırlatdı həmin şairi. Sən demə, ailəsi uzun illərdi ədalət axtarırmış və 9 milyon dollar təzminat ala bilib. Ən ədalətli ölkə haradı??? Bəli, düz fikirləşdiniz... Okeanın o tayındadı bizim qəzetin adına olan ədalət... Neçə illərdən sonra dollar şəklində qayıdıb.... Bu da fəlsəfi məsələdi yəqin.

1989-cu ilin mayında Polşaya gedirdim. Marşrut belə idi ki, yol Lvovdan keçirdi. Təyyarədən düşdük, vaxt var idi deyin şəhərdə gəzdik bir az. Lvovu görənlər bilir - gözəl şəhərdi. Gəzməyə dəyir... Küçələrdə ianə qutuları qoymuşdular. Taras Şevçenkoya heykəl qoymağa yardım üçün. Biz də pul atdıq, qırmızı sovet əskinasından...

Başım möhkəm ağrıyırdı, dedim aptekdən ağrıkəsici alım. Başıma xeyir, dedilər ki , sənin bura propiskan yoxdu. Sənə dərman sata bilmərik. Dedim insafınız olsun... Yoxeee... Vermədilər... Ürəyimdə dedim haramınız olsun o onluq... Sovetin lap son vaxtları idi. Elə bilirdilər ayrılıb qüdrətli dövlət olacaqlar. ( hahaha). Sonra Gürcüstanda da belə hadisə gəldi başıma. Şampun satmadılar mənə. Propiskan yoxdu dedilər...

İllər keçdi... Bunlar hamısı qüdrətləndilər. Yenə gedəsi oldum oralara. Lap xaraba gündə, lap kasıb. Amma quzu kimi idilər. Yalvara-yalvara satırdılar hər şeyi. Çünki bizim aldıqlarımızdan asılı idi həyatları... Sonuncu dəfə Lvovda olanda ərəfə idi - futbol üzrə Avropa çempionatının. Bunların aeroportunda bir miskin vəziyyət vardı ki. Baqajı əlimizdə apardıq təyyarəyə. Özlərinə dedim gömrükdə - Avropadan gələnlər bura gələcək? (yadınızdadı yəqin, ora salınmışdı ) Dedilər düzəldərik.

Ta bilmirəm. O vaxtdan sonra olmamışam orda... O vaxtdan dollarların gücü ilə oralar da dağılıb...

Nə deyirdim... Qüdrət forslanmaqla olmur. Ticarəti bacarmaq da lazımdı. Keçənlərdə futbola baxanda ağrıkəsici yadıma düşdü. Uduzdu Türkiyə Ukraynaya... Amma indi Türkiyənin dəstəyinə ehtiyacları var...

Görəndə ki ictimai müzakirələrin əhəmiyyəti yoxdu, hamı çəkilir fərdi müzakirəyə. Və bu da bir cür mübahisə-müharibə yaradır...

Ağrıkəsici dedim yadıma düşdü. Belə xatırlayıram, bəlkə səhv edirəm - əvvəllər bizim ucsuz-bucaqsız vətənimizdə farmasevtik zavod (fabrik) vardı. Ən azından lazım ola biləcək sadə dərmanları ala bilirdik... İndi... İndi ceyran belində, hər mənada. Həm qiymətdə, həm də tapılmır... Yəni məmləkətin tibb unisində farmasevtika fakültəsi də mövcuddur... Kim İstanbula, Ankaraya gedir, kim Moskvaya gedir onlardan xahiş edirik. Yəni bu da "Mersedes" istehsalıdı mümkünatsız olsun? Əvvəllər apteklərin özündə dərman düzəltmək üçün laboratoriyalar da var idi... İndi o da yoxdu ...Niyə? Niyəsini başbilənlər bilir mütləq. Hər işimiz kimidir... Bu qədər, hər mənada, xəstə toplum, dərdli toplum və əlac yox... Bu da gedir yol salmağa???

***

Hətta ehtiyac olmayacaq məsələni məcburiyyətə çeviririk...

Heç bilmirəm necə deyim...Çalışım birtəhər ifadə etməyə... Məktəblilərin forma məsələsi gündəmdədir...Əvvəl atam alırdı Moskvadan, bəzən anam özü tikirdi. İndi yetim qızam... Atam-anam yoxdu. Yeni sezon gəlib və yeni libas ala bilmirəm...Kişi alsın desəniz - o da alır, yəni nəvələrə alır...Kitab alır ,dəftər alır və sairə... Bəs, biz yetimlərə yeni libası kim alsın??? Elə köhnələri geyinək yenə??? Ağır dərddi...Məktəblilərdən danışmışkən müəllimlərin səhv yazmağın da xatırladaq? Başqa nəyi xatırladaq? Həə, jurnalistlər də həşirə düşüblər - vəzifə davası gündəmə gəlməkdədir. Davalı bir qəzet əlavəsini xatırladım...

Kitabı açdım və avtoqrafı gördüm - "Aqil Abbasa, alatoranda inci axtaran qəvvasa"... Müəllif Qabil idi... "Alatoran" isə o vaxtlar Aqil Abbasın "Ədalət" qəzetinə əlavəsi idi. Ədəbi əlavə...Xatırlayanlar var mütləq.

Oxudum və qəvvas sözünün mənasını xatırlamağa çalışdım. Çünki "Alatoran" bir çox yaşlı adamlarda qıcıq yaradan bir əlavə idi... Görünür, Qabil də nəyəsə əsəbi idi ki, belə tikanlı avtoqraf yazmışdı. O vaxt internet belə yayğın deyildi və burdan nəsə axtarıb tapmağa ümid olmazdın... Soraqlaşdım ahıl adamlardan - "inci" axtaran dedilər.

Suyun altına dalıb ordan mirvari çıxaran adamlara deyirlərmiş...

...Dünən yenə xatırladım inci axtaranları...Əvvəl çox bahalı idi mirvari. Səbəb də çətinliklə tapılması, əmələ gəlməsi idi. Xatırlayıram, total defisit dövründə köhnə adı Zevin küçəsində komisyon dükan vardı, yəhudi qardaşlar işlədirdi. Orda bir neçə sap düzülmüş mirvari boyunbağılar vardı. Çoox baha... Elə hamı tamaşa edib gəlirdi... Mirvari taxmaq hər adamın hünəri deyildi...

Sonra çoxaldı - çay mirvariləri gətirdilər çox sayda və ucuzlaşdı...

Amma yenə də təbii yolla, dənizin dibindən çıxarılan mirvarilər baha olaraq qalır...Təbii olan hər şey bahadır.

Klassik ədəbiyyatımıza daxil olmuş qəvvas sözü unudulsa da...

***"Ayrılıq gölündə, qəm dəryasında ,***
***Təzə qəvvas olub, üzən necoldu..."***

Həyatımızdan bütün qiymətli nəsnələri sildilər. Yeni qəvvaslar gərəkir indi dalıb suyun altından çıxarsınlar...Ənənələr inci olub...

Köhnə filmə baxıram...Yəni sovetin köhnəsi, daha dəqiq desəm, Eldar Quliyevin filmi...

Maşınlar şütüyür... Fikirləşdim - bir "Jiquli" ilə xoşbəxt olduğumuz vaxtlar var idi...İndi ...İndi heç nə bizi xoşbəxt eləmir. Məsələ "Jiquli" deyildi, əlbəttə. Ona görə ki, kitab oxuyurduq, teatra gedirdik, əşşi kinoya gedirdik... İçimiz zəngin idi. Ona görə xoşbəxt idik... Hərtərəfli olmasa, natamam qalır insan.

Onlar deyir ki, bizə inanmırsız. Biz deyirik ki,inanırıq. Onlar da bizim inandığımıza inanmırlar... Belə qarşılıqlı inam şəraitində keçinib gedirik...

Nəzarət funksiyalarını kənara qoysaq, sosial şəbəkələr insanların sosiallaşmasını ehtiva edən bir nəsnədi. Bizim məmləkətdə yenicə təşəkkül tapmağa başlayanda burda indikindən çox rahat idi ünsiyyətdə olmaq. Şəkil də paylaşmaq olurdu , istədiyini public yazmaq da. Sonradan tam şəkildə keçdi qrupların nüfuz dairəsinə. Burdan kimlərisə vurmaq və kütləni yönləndirmək an məsələsinə çevrilib. Maarifçilik funksiyası qalmayıb. Özümüzə oxşadırıq xaricilərin icadlarını. Belə mənimsəyirik...

Əvvəllər necə olurdu ? Kimsə, harasa gedirdi və ordan səyahət kitabları yazırdı. Əyyami-qədimdən belə olub.... Və sonralar bu kitablardan mənbə kimi istifadə edirdilər. Hamı gedə bilmir, hamının getdiyi yeri anlayıb da izah etmək qabiliyyəti olmur ...

Burda hamı eyni bir listədə birləşə bilər. Amma bu o demək deyil ki ,hamının dərk qabiliyyəti, istedadı eynidi. Elə olsaydı dünya çox monoton olardı. Rəngsiz ... Sağ olasız rəng qata biləcək insanları məcbur eləyirsiz bir qabığın içində gizlənməyə...

Kef eləyin - artıq bura sosial yox, kütləvi olub ...

Belə oımağına səbəb isə indi yaxasını cıranlardı...Sifarişlə yaxa cıranlar... Mətbuat elə bir sahədir ki, hər kəsə açıqdır. Kimin imzasının hansı çəkidə olduğu da məlumdur. Təbii ki, oxuyan varsa... "Millət addım atdıqca ayaqlarının izi mətbuatda qalır...". 1916-cı ildə yazıb Yusif Vəzir Çəmənzəminli...

Elə qəribə ovqatdır ki, hətta özümlə dialoq alınmır...Hələ yüz il keçməyib...

**Yüz ilin yoldaşı olan Kraliça da getdi...**

# Kadırovun "istefa" açıqlaması əslində "yeni sürprizlər var" deməkdir

**Çeçenistan rəhbəri Ramzan Kadırov Rusiya- Ukrayna müharibəsi başlayan gündən öz "müdir"Putinə xoş getsin deyə "dəridən-qabıqdan" çıxdı.**

Yadınızdadırsa, müharibənin ilk günündən 10 mindən çox ordusu ilə Rusiyaya dəstək görüntülərini yayımlayan Kadırov ukraynalıları təhdid edən görüntülər də paylaşdı. Kadırov öz qoşunlarının gücü ilə öyündü və dedi ki, Ukrayna qüvvələri onun döyüşçüləri ilə qarşılaşanda "qaçırlar". Kadırov daha sonra "Şeytanı bağışlamayacağıq"da, - dedi. Məlumdur ki, "şeytan " dedikdə Ramzan Kadırov Ukrayna Prezidenti Volodimir Zelenskini nəzərdə tutdu. Çeçen liderin Ukrayna Prezidentini təhqir etməsi də nəzərlərdən yayınmadı: " Burada oxudum ki, Zelenski on il döyüşməyə hazır olduğunu bəyan edib. Ay axmaq, sən nəsən? O qədər vaxtımız yoxdur, bu günlərdə səni bitirəcəyik. Məncə, səndə şizofreniya var. Sən son günlərini yaşayırsan",- deyə Kadırov Ukrayna Prezidenti barədə təhqir və təhdid dolu sözlər işlətdi. Amma Ukrayna Prezidenti Volodimir Zelenski düşməndən 1028 yaşayış məntəqəsinin geri alındığını qeyd etdikdən sonra Ramzan Kadırovun kürkünə birə düşüb.

Adalet.az xəbər verir ki, 2007-ci ildən Çeçenistana rəhbərlik edən Ramzan Kadırov Teleqram kanalındakı video-müraciətində "müddətsiz və uzun məzuniyyətə" hazırlaşdığını bildirməsi böyük müzakirələrə səbəb olub. Onun Rusiyanın güc strukturlarında daha yüksək vəzifəyə gətiriləcəyi ilə bağlı iddialar da yayılmaqdadır.

Amma gəlin bir düşünüb, bir qərar verək: Kadırov niyə getmək istəyir? Onun yuxarı vəzifəyə çəkiləcəyi gerçək ola bilərmi?

**1.** Maraqlıdır, görəsən niyə məhz 15 ildən sonra Kadırova elə gəldi ki, o "müddətsiz və uzun məzuniyyətə" çıxmalıdır?Bunu , məsələn 2022-ci ilin ilk günlərində düşünə bilməzdimi? Yaxudda 2021-ci ildə növbəti dəfə 5 illiyinə "padşah" seçkilərində niyə namizədliyini verirdi? Niyə "yox" demirdi? Deyə bilmək ki, Kadırovun könüllü istefası mümkün deyil, hec ağlabatan da deyil.





**2.** Rusiyanın iqtisadi və ticari əlaqələri dalana dirəndikcə, partnyorları onu tərk etdikcə, sanksiyalar ölkəni uçruma yuvarladıqca, xüsusən cəbhədəki itkilər artıqca Rusiyanın siyasi məğlubiyyəti reallaşır. Bunu nəinki siyasətçilər, elə adi insanlarda anlayır. Kadırov bu gerçəyi aydın başa düşür. Müharibə dövründə ukraynalıları və onların prezidentini təhqir etməsi, dəfələrlə çeçn döyüşçülərindən batalyon yaradaraq cəbhəyə göndərməsi, orada günahsız insanların kütləvi qırğınına səbəb olması Ukraynanın hərbi tribunalından yaxa qurtara bilməyəcəyini deyir. Çeçen lider bilir ki, əgər ölkənin prezidenti olaraq qalarsa, fəaliyyətini dondura bilmək kimi bir ixtiyarı yoxdu. Yenə cəbhəyə hərbçi göndərməli, ukraynalıları və Zeleniskini təhqir etməli, onlara psixoloji basqılar etməlidir. Onda da cəza ağırlaşacaq, vəzifədə qalıb da müharibəyə "fəaliyyət"ilə töhfə verməsə Putinin ona nələr edə biləcəyini düşünmək belə dəhşətdir.

**3.** Daxildəki narazılıqlar Kadırov üçün ən böyük təhlükə həddinə çatıb. Əhali yoxsulluq içərisində yaşamaqla bərabər, həm də hər gün Rusiya- Ukrayna savaşından tabutda dönən oğullarını dəfn edir. Vaxtı ilə (Rus -Çeçen müharibəsində 1991-94-cü ildə çeçen hərbi qüvvələri 18,000, mülki şəxs 50,000, ikinci dəfə 1999-2009-cu ildə 25,000-50,000 nəfər arası çeçen həyatını itirdi).

Çeçenistanı qan gölündə üzdürən Rusiyanı müdafiə etmək qisas hissi ilə yanan millətçi çeçenlərin məqsədidir. Üstəlik Ukraynada öz azadlıqları uğrunda döyüşən ukraynalıların üzərinə qoşun yeritmək, elə Rusiyaya nifrət edən çeçenlərin üzərinə qoşun yeritmək qədər iyrənc bir hərəkət kimi dəyərləndirilir. Hətta rusiyalı siyasətçi Gennadi Qudkov da qeyd edib ki, Ramzan gözəl anlayır ki, respublikada onu aradan götürmək istəyən çoxsaylı düşmənləri var. Kadırovu salamat buraxmayacaqları haqqında bəyan edən çeçenləri şəxsən tanıyır.

Kadırov cinayətlərinin ağırlığını anlayır və çıxış yolu axtarır; Əslində gedəcəyini desə də konkret addım atmadığı da bu səbəbdəndir.

**4.** 2020-ci ildə general-mayor hərbi rütbəsi alan çeçen lider həm də ölkənin ali mükafatına - Rusiya Federasiyasının Qəhrəmanı adına layiq görülən çeçen lider müharibə başlayandan bu günə qədər Putin tərəfindən "Aleksandr Nevski" ordeni. Putinin göstərişi ilə "LXR Qəhrəman"ı mükafatını alıb. Yəni Kadırovun sədaqəti Putinə bəllidir. Hazırkı durumda Putinin ətrafında elə də sadiq adamlar qalmayıb. Bunu anlayan Putin Kadırovu qorumaq üçün əlindən gələni edəcək.

Hamıya məlumdur ki, Putin demokrat deyil, əksinə dünyada tanınan 3 diktatordan biridir.

Onun müəyyən bir göstərişi olmasa Kadırov nəinki, istefa sözünü dilinə gətirə bilər, hətta ukraynalılara qarşı "şanlı f əaliyyətini" dayandıra bilməz. Onda məlum olur ki, Kadırov yaxın gələcəkdə Kremlin rəsmi simalarında biri olacaq.Ən azından hərb sahəsində önəmli bir isim kimi təqdim ediləcək. Onun "müddətsiz və uzun məzuniyyətə"proqnozunu verməsi əslində ona qarşı sürpriz gəlişmə olacağından xəbər verir.

***P.S.* Kadırov Ukrayna- Rusiya müharibəsində ən azı Putin qədər çirkaba bulaşıb. Dinc insanların ölümündə günahlandırılır. Onun yeri əlbəttəki, Putinin yanıdır.**

**Əntiqə**

Mehman CAVADOĞLU

# Vardanyanın münəccimliyi

***Ermənistan KİV-lərinin məlumatına görə Baş nazir Nikol Paşinyan öz partiyasının təmsilçiləriylə bir neçə gün əvvəl keçirdiyi qapalı iclasda ilin sonuna kimi Azərbaycanla hərtərəfli sülh sazişinin imzalanmasında maraqlı olduğunu söyləyib və rəsmi Yerevanın sülh danışıqlarından yayınmaq məqsədinin olmadığını bildirib. Bundan əvvəl Azərbaycan prezidenti İlham Əliyev də İtaliyaya səfəri çərçivəsində verdiyi açıqlamalarda Ermənistanla yaxın müddətdə sülh müqaviləsinin imzalanacağının anonsunu vermiş və demişdi: "Biz bütün qonşularımıza ədalətlə və səmimi yanaşırıq və heç vaxt verdiyimiz sözü danmırıq. Bizim sözümüzlə işimiz birdir".***

***Avropa Birliyinin prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən sonuncu Brüssel görüşünün ardınca bu cür məlumatların mətbuata yol tapması təsadüfi deyil, heç şübhəsiz, Belçika paytaxtında əldə edilmiş razılaşmaların nəticəsidir. Xatırladaq ki, həmin görüşdən sonra vasitəçi tərəf mətbuatda nikbin ruhlu fikirlər səsləndirsə də təfərrüatlar barədə konkret bir şey söyləmədiyi üçün cəmiyyətdə müəyyən tərəddüdlər mövcud idi. Yuxarıdakı açıqlamalar isə bu tərəddüdlərə müəyyən mənada son qoydu və görüşdəki bir çox gizli məqamların üstünə az da olsa işıq saldı. Ancaq buna baxmayaraq, prosesin bundan sonrakı gedişi və müsbət nəticələri barədə indidən nəsə söyləmək hələlik çox tezdir.***

***Özü də problem heç də Paşinyanı devirmək üçün marığa yatmış erməni müxalifətində deyil. Bu müxalifətin mariginal bir qüvvə olması 44 günlük müharibədən sonra ard-arda keçirilmiş fasiləsiz və uğursuz etiraz aksiyalarıyla çoxdan sübuta yetmiş, Baş nazir döyüş meydanındakı ağır məğlubiyyətini öz daxili siyasi rəqibləri üzərində çaldığı qələbəylə ustalıqla kompensasiya eləmişdi. Qərbpərəst Paşinyan təkcə ruspərəst müxalifəti və Rusiya diasporunu yox, onu devirmək üçün marığa yatmış möhtəşəm Qərb diasporunu da yerində oturtmağı bacarmış, hətta həmin diasporun bəzi önəmli təmsilçilərinin Ermənistana girişinə belə qadağa qoymuş, aeroportdan deport edib geri qaytarmışdı. Təbii ki, bütün bu uğurlar onun "fövqəlgücünün" yox, erməni cəmiyyətindəki hazırkı ovqatın göstəricisidir.***

***Məğlubiyyət lakmus kağızıymış - bütün paxırları üzə çıxardır, hər şeyi olduğu kimi açıb göstərir. Sən demə, bu xalq heç də bizim düşündüyümüz və qibtə etdiyimiz kimi ən çətin günlərində də yumruq kimi birləşib çəkici bir zindana vuran toplum-zad deyilmiş. Hazırda orda hökm sürən "Qarabağlı - Yerevanlı"qarşıdurması əndazəsini o qədər aşıb ki, hətta erməni mentalitetinin ayrılmaz atributuna çevrilmiş ənənəvi "hay-türk" düşmənçiliyini də kölgədə qoyub.***

***Hazırda erməni cəmiyyətində müşahidə olunan mövcud siyasi konyuktura, yəni müxalifətin gündən-günə zəifləməsi, diasporun əvvəlki gücünü və maqiyasını itirməsi, eləcə də erməni toplumunun şirin röyalardan ayılıb reallığa uyğun davranışı sülh sazişinin hazırlanması və imzalanması üçün unikal imkanlar yaradıb. Açığı, Avropa Birliyinin öz ənənələrinin ziddinə olaraq xeyli konstruktiv mövqe tutması da prosesin uğurla yekunlaşacağına olan ümidləri artırır. Bu baxımdan fransız Şarl Mişelin Fransanın, eləcə də AB-nin ənənəvi mövqeyinə zidd olan konstruktiv davranışlarını da qeyd etmək lazımdır. Təbii ki, xristian təəssübkeşliyini qeyri-rəsmi də olsa özünün əsas fəaliyyət kredosu seçmiş bir təşkilatın başçısının bu cür mövqeyi bir tərəfdən Azərbaycanın 44 günlük müharibədəki qələbəsiylə regionda artan nüfuzuyla bağlıdırsa, digər tərəfdənsə onun Ukrayna müharibəsindən sonra dünya enerji bazarında daha vacib oyunçuya çevrilməsindən qaynaqlanır.***

***Bütün bu müsbət gəlişmələrə rəğmən danışıqların sırf AB-nin vasitəçiliyi altında aparılması onun uğurlu sonluğunu şübhə altına alır. Çünki Qafqazı hələ ki özünün əsas həyati maraqlar sferası, necə deyərlər, arxa bağçası sayan Rusiyanın buna göz yumacağı heç cür inandırıcı görünmür. Son Brüssel görüşünün yekunlarına əvvəlkilərdən daha sərt reaksiya verilməsi də buna əyani sübutdur.***

***Xatırladaq ki, XİN sözçüsü Mariya Zaxarova, ümumiyyətlə, Avropa Birliyinin bu prosesdə iştirakını yersiz sayaraq, "saxta təşəbbüs" adlandırmışdı. "AB-nin Cənubi Qafqazda aktivliyi onun geopolitik aktivliyindən doğur" - deyə xanım Zaxarova Qərbi elə mənasız arqumentlə ittiham etmişdi ki, sanki geopolitik aktivlik nümayiş etdirmək yalnız Rusiyanın boyuna biçilmiş bir siyasi fenomendir.***

***Qərbin Azərbaycan-Ermənistan nizamlamasındakı aşırı fəallığını neytrallaşdırmaq istəyən Kreml son günlər daha bir avantüraya əl atıb. Bu günlərdə Ruben Vardanyan adlı Rusiyalı oliqarx Moskvanı tərk edərək Xankəndiyə köçüb. O öz açıqlamasında bu addımını "aclıq və səfalətdən əzab çəkən xalqının yanında olmaq" arzusuyla izah edib, həmvətənlərinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa çalışacağını bildirib və bundan ötrü "Arsaxın inkişafı və təhlükəsizliyi fondu" yaratdığını bəyan edib. Bu açıqlamada diqqəti çəkən əsas məqam, heç şübhəsiz ki, "Arsax"ın təhlükəsizliyini qorumaq məsələsidir ki, oliqarxın qəfil baş qaldıran "Arsax təəssübkeşliyi"nin kökündə dayanan əsas amillərdən biri də budur.***

***"Troyka Dialoq" investisiya kompaniyasının başçısı olan R. Vardanyan daha çox çirkli pulların yuyulmasıyla, rus oliqarx və məmurlarının kapitalının qeyri-qanuni yollarla ölkədən çıxardıb xarici banklarda yerləşdirməklə məşğul olub. Adı silah və narkotikə alverində də hallanan oliqarx Azərbaycanın işğal olunmuş ərazilərinin yağmalanması prosesində də yaxından iştirak edib. "Korrupsiya və mütəşəkkil cinayətkarlığa qarşı" jurnalist araşdırmaları mərkəzinin məlumatına görə Dialoq" vasitəsilə indiyə kimi ölkədən 9 milyarddan çox pul çıxardılıb.***

***Adam təpədən dırnağa kimi kriminal bioqrafiyaya malik olsa da, həm Qərbin, həm də Rusiyanın siyasi çevrələrində ən arzuolunan şəxslərdən biridir. Yuxarıda haqqında bəhs etdiyimiz jurnalist araşdırmaları mərkəzinin aşkara çıxardığı faktlara rəğmən heç bir sanksiya siyahısında onun adına rast gəlmək mümkün deyil. Maraqlı burasıdır ki, özünü xəstə erməni ideallarının alovlu təmsilçisi və təəssübkeşi kimi qələmə verən kriminal maliyyəçi tez-tez Türkiyədə də peyda olmaqdan çəkinmir. Müxtəlif mənbələrdən sızan məlumatlara görə o burda da özünün əsas peşəsiylə, rus oliqarxlarının və təbii ki, həm də özünün çirkli pulların yuyulmasıyla məşğul olur.***

***R. Vardanyan Xankəndiyə qonaq kimi gəlməyib, Rusiya vətəndaşlığını tərk edərək birdəfəlik köçüb. Bu cür köklü-budaqlı köçün arxasında isə heç şübhəsiz, konkret ciddi niyyət durmalıdır. O bu niyyətini sirr pərdəsinə bürümədi, elə ilk fürsətdəcə Ermənistanın baş naziri kürsüsü uğrunda mübarizə aparacağını bildirdi. Bu məqsədlə birbaşa Yerevana yox, Xankəndiyə pənah gətirməsi isə birbaşa Paşinyanın hədəfinə düşməkdən yayınmaq istəyi ilə bağlıdı.***

***Çünki demokrat baş nazirin hakimiyyət məsələsinə münasibətdə zarafatı sevmədiyini, necə deyərlər, kənək qoz olduğunu, bu həvəsə düşənlərin gününü göy əsgiyə bükdüyünü yaxşı bilirdi. Adaptasiya dövrü üçün Paşinyana asi düşmüş Qarabağ klanı və rus sülhməramlılarının əhatəsindən daha münbit yer tapmaq isə indiki halda, sadəcə, mümkün deyildi.***

***Yuxarıda qeyd etdik ki, Brüssel görüşündən sonra tərəflər arasında sülh sazişi layihəsinin hazırlanması barədə konkret razılıq əldə olunub. R. Vardanyan Xankəndindəki mətbuat konfransında həmin saziş layihəsini adi kağız parçası adlandıraraq deyib ki, bu sənəd heç cür Ermənistanın təhlükəsizliyini təmin edə bilməz.***

***Bax, Kremlin "pul yuyan maşınının" öz milyardlıq əməliyyatlarının başını buraxaraq Qarabağda peyda olmasının əsl səbəbini bu açıqlamada axtarmaq lazımdır. Onun Xankəndinə, gələcəkdə isə ordan Yerevana transferi bütün konfliktləri "nə hərb, nə sülh" devizi ilə idarə etməyə, daha doğrusu, dondurub saxlamağa çalışan Moskvadan ötrü Brüssel görüşündə əldə olunan razılıqları pozmaq üçün lazımdır. Peşəkar bir maliyyə fırıldaqçısının belə bir siyasi missiyanın öhdəsindən nə dərəcədə uğurlagəlib-gəlməyəcəyini isə yaxın gələcək göstərəcək.***



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Dövlətin və millətin qanını soranlar...

Əgər kimsə ölkəmizin iqtisadi böhran keçirdiyi indiki mürəkkəb şəraitdə dövlətimizin büdcəsini dağıdırsa, onu sağa, sola xərcləyirsə və xalqın qanını sorursa, ondan namərd adam yoxdur. Kimliyindən asılı olmayaraq hamımız bu ölkənin övladı, vətəndaşıyıq. Əgər bu ölkənin vətəndaşıyıqsa, onda biz hər birimiz böyük Məmməd Arazın təbirincə demiş olsa, "Vətən daşı olmalıyıq".

İndi gəlin görək, vətən daşı ola bilirikmi? Bax, bu suala birmənalı olaraq cavab vermək olmur. Ən azından ona görə ki, vətən daşı olmayan o qədər vəzifəli şəxslər, məmurlar, nəbilim daha tay nələr var.

Bu xalqı və millətin heç vaxt aldatmaq olmur. Amma zaman-zaman bu xalqı və milləti aldadanlar olub və onların da axırı heç də yaxşı qurtarmayıb. Bəzi nazirlər, icra başçıları və digər vəzifəli şəxslər prezidentin onlara göstərdiyi etimadı doğrultmayıblar. Onlar həm cənab prezidentə, həm də bu millətə və xalqa xəyanət ediblər. Ona görə də neçə-neçə nazir, nazir müavini, icra başçısı, icra başçısının müavini dövlətin büdcəsini dağıtdığına və rüşvət aldığına görə bu gün həbsxanalarda cəza çəkirlər. Bu belə də olmalı idi!

Çünki dövlətin və xalqın malına göz dikənlər nə vaxtsa ya Allahın, ya da qanunun gücünü görməli idilər və gördülər də! Bu gün dünya iqtisadi böhran içində boğulur və bu iqtisadi böhranın dalğası bizim ölkəmizdən də yan keçməyib. Belə bir durumda hər bir nazir, hər bir icra başçısı cənab prezidentə kömək etməli, vicdanla dövlətə qulluq göstərməli və çətin vəziyyətdən çıxmaqda millətə yardımçı olmalıdılar.

Amma gəlin onunla razılaşaq ki, bu gün də dövlətin və millətin qanını soran, xalqa xəyanət edən vəzifəli məmurlar var. Hansısa vəzifəli məmur isə bu işdən əl çəkmirsə, yolunu çaşıbsa, onlar düz yola qayıtmalıdılar.

Çünki cənab prezident İlham Əliyev də dəfələrlə çıxaşlarında bəyan edib ki, kimliyindən və hansı xidmətləri olmasından asılı olmayaraq, xalqa xidmət etmirsə, xalqın malına göz dikirsə, onlar gec-tez məsuliyyətə cəlb olunacaqlar. Cənab prezident bu mesajı dəfələrlə vəzifəli şəxslərə çatdırıb. Ondan nəticə çıxaranlar da var, çıxarmayanlar da. Amma görünən odur ki, dövlətin və millətin qanını soran məmurlar hələ də var və onlar çirkin əməlləri ilə məşğuldur.

Xalqın gözü tərəzidir. Nədən yayınmaq osla da, o gözdən heç vaxt yayınmaq olmaz. Yəni el-oba bilir ki, o rayon icra başçısı və digər vəzifəli şəxslər millətə və xalqa necə xidmət edirlər. Sözümüzün canı ondan ibarətdir ki, hələ də gec deyil. Bəzi vəzifəli şəxslər daşı ətəklərindən tökməli, dövlətin və millətin qanını sormamalı, zalımlıqlarından əl çəkməlidilər. Əgər onlar bu bəd əməllərini davam etdirəcəklərsə, günlərin bir günü həmin məmurların da müttəhimlər kürsüsündə əyləşməsi heç də uzaqda deyil.

---



Mehmet Sosyal

# Qorbaçova sevgi nədən qaynaqlanır?

*Qorbaçovun ölümündən sonra SSRİ-nin dağılmasına aramızda olanların niyə kədərləndiyini anlayırıq...*

*Və niyə soyuq müharibə illərindən ötrü darıxdıqlarını da..*

*Niyə? Sosializm və kommunizmin dağılması səbəbindən...*

*Halbuki Türk dünyasının müstəqilliyini qazanmasına sevinmişdik. Milyonlarla müsəlman türk bu gün həm dininə etiqad edir, həm də öz müqəddəratını təyin edir...*

*1917-ci il Oktyabr İnqilabında Lenin və Trotskini dəstəkləyən və onlarla "minimum ortaqlıq"da görüşən türk liderləri Sultan Qaliyev və Molla Nur Vahidov buna görə də Çar imperiyasına qarşı çıxıb, müsəlman bolşeviklərini təşkilatlandıraraq mübarizə aparırdılar.*

*İnqilabdan sonra onlara verilən "Millətin öz müqəddəratını təyinetmə hüququ" vədləri yerinə yetirilmədi.*

*Milli kommunizmin ideya və qurucularından biri olan tatar lideri Stalin Qaliyevi dəfələrlə həbs edib Sibirdə və başqa yerlərdə sürgünə göndərən Stalin 1940-cı ildə onu Lefortovo həbsxanasının zindanlarında işgəncələrə məruz qoyub.*

*Molla Nur Vahidov isə Çar imperiyasının Ağ Ordusu ilə vuruşmuş, əsir düşmüş, sonra güllələnmişdi. Türklərə öz müqəddəratını təyin etmək hüququ və azadlığı verməyən, körpü kimi istifadə edən, sonra isə kənara atan Lenin və Stalin kimi kommunistlər inqilabdan sonra verdikləri bütün vədləri unudub, başqa irqləri ləğv etdilər...*

*Və bütün körpüləri dağıtdılar...*

*Yoldaşlıq böyük yalan idi...*

*Və heç bir türkə istiqlal vermək istəmədikləri üçün onları illərlə əsir millət etdilər. Ona görə də Qorbaçov ruslara satqın ola bilərdi, amma onu Orta Asiyada bütün türk dövlətləri və xalqları sevir.*

*Bizdən kənarda olan kommunist türklər öldürülərkən, içimizdəkilər bütün bu tarixi faktlara baxmayaraq hələ də kommunist olmağa və böyük yalana inanmağa davam edirlər...*

*Məsələ, körpü olmaq deyil, körpünün başında dayanmaqdır...*

*Dilimizə uyğunlaşdıran:*
*Eminquey*

---

## *Küçə itləri çoxalıb*



**Bakının Yeni Günəşli yaşayış sahəsinin "D" massivində küçə itlərinin əlindən tərpənmək mümkün deyil. Getdiyin yerdə bir də görürsən ki, it sənin dalınca düşür, ya əlindəki hər hansı ərzaqı alıb qaçır, ya da sənə hücum edir. Bax, belə anlarda insanlar dəhşətli məqamlar yaşayırlar. Xüsusən də 282 nömrəli məktəbin həyətində gəzən qadın, uşaq və qocalar belə itlərlə daha tez-tez üzləşirlər.**

O gün bir it yaşlı bir kişinin üstünə hücum çəkdi. Nə yaxşı tutmadı. Yeniyetmə uşaqlar gəlib o iti qovdu. İti vurmaq olmur, güllə atmaq olmur və nəticədə də belə anlar yaşanır. Bax, nə vaxta qədər camaat Yeni Günəşlidə küçəyə çıxanda qorxa-qorxa çıxacaq və itlərin hücumuna məruz qalacaq?!

**Emil FAİQOĞLU**

---

# Sərxoş sürücülər...

## Onlar hər cür qəza törədə bilərlər



**Bu gün heç kimə sirr deyil ki, sürücülərin və hərəkət iştirakçılarının təhlükəsizliyi üçün yol polisi tərəfindən davamlı olaraq tədbirlər həyata keçirilir. Təbii ki, bu tədbirlərin gerçəkləşdirilməsi birmənalı olaraq təhlükəsizliyin təmin edilməsinə hesablanıb. Yəni elə bir gün, elə bir həftə, elə bir ay olmaz ki, adını çəkdiyimiz qurum piyadaların və sürücülərin təhlükəsizliyini qorumaq üçün profilaktik tədbirlər görərək onların maarifləndirilməsini diqqət mərkəzində saxlamasın.**

Ancaq təəssüflə qeyd etməliyik ki, yol polisinin apardığı maarifləndirmə tədbirlərinə baxmayaraq, bir çox halda bəzi sürücülər yol hərəkəti qaydalarını kobud surətdə pozmaqda davam edirlər. Onlar bu hərəkətləri ilə həm özlərinin, həm də digər hərəkət iştirakçılarının həyatlarını təhlükəyə atırlar. Yəni bir sürücü qəza törədirsə, onunla yanaşı, avtomobildəki sərnişinlər və eləcə də toqquşduğu digər nəqliyyat vasitəsindəki insanlar ya xəsarət alır, ya da dünyalarını dəyişirlər. Və bir faktı da qeyd etmək istəyirik ki, bütün bu məsələlər həmişə diqqət mərkəzində olur və baş verə biləcək qəzaların qarşısının alınması üçün qabaqlayıcı tədbirlər hesablanıb.



Abşeron Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları da rayon ərazisində hərəkətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində sözün həqiqi mənasında böyük işlər görürlər. Bu işlər ilk növbədə, hərəkətin təhlükəsizliyi ilə bağlıdır. Və mütəmadi olaraq şöbə əməkdaşlarının təhlükəsizliklə bağlı tədbirlər planının həyata keçirməsi, baş verə biləcək qəzaların qarşısının alınmasında çox önəmli rol oynayır. Onu da deyək ki, Xırdalan qəsəbəsinə şəhər statusu veriləndən sonra burda nəqliyyat vasitələrinin sayı əvvəlki vaxtlara nisbətən daha da artıb, ayrı-ayrı prospekt və küçələrdə günün müəyyən saatlarında sıxlıqlar yaşanır. Elə sıxlığın olması da bilavasitə qəzalara münbit bir şərait yaradılmasına gətirib çıxarır. Amma bütün bunlar Abşeron Rayon Dövlət Yol Polisi Şöbəsi əməkdaşlarının daim diqqət mərkəzindədir. Bir qayda olaraq günün pik vaxtlarında, yəni səhər və axşam saatlarında yol polisi hərəkətin sıx olduğu prospekt və küçədə təhlükəsizlik ilə bağlı xidmət aparır, qarşıya çıxan çətinlikləri və problemləri elə həmin anda aradan qaldırır.

Abşeron Rayon Dövlət Yol Polisi Şöbəsinin rəisi, polis kapitanı Cəmin Abasov bildirir ki, hər ay xüsusi tədbirlər planı hazırlanır və həmin tədbirlər planı da rəhbərliyə təqdim olunur və bundan sonra bu tədbirlərin keçirilməsinə yol polisi gerçəkləşdirir. Son vaxtlar piyadalarla bağlı tədbirlərə daha çox önəm verilir. Çünki təsadüfi deyil ki, yol-nəqliyyat hadisələrinin çoxu piyadaların vurulması ilə bağlıdır. Cəmin Abasov bildirir ki, elə yer var orda piyada məsuliyyət daşıyır, elə yer də var sürücülər. Məsələn, sürücülər təyin olunmuş yerdən piyada keçərkən ona yol vermirsə, bu, qanun pozuntusu deməkdir və bu cür sürücülər əməkdaşlarımız tərəfindən inzibati məsuliyyətə cəlb olunur. Keçirilən tədbirlər nəticəsində piyadalara yol verməyən neçə-neçə sürücü mövcud qanunla 20 manatla 40 manat arasında cərimə ediliblər. Eyni zamanda təyin olunmamış yerlərdən keçən piyadaların da inzibati məsuliyyəti həmişə əməkdaşlarımızın diqqət mərkəzindədir. Bu piyadalar da 20 manat məbləğində cərimə olunublar. Daha kobud qayda pozuntusuna yol verən piyada isə 40 manat məbləğində cərimə edilir. Ümumiyyətlə, bizim məqsədimiz sürücüləri və piyadaları cərimə etmək yox, onları maarifləndirmək, intizama dəvət etmək və baş verə biləcək qəzaların qarşısını almaqdır. Bir faktı da qeyd edim ki, sürücü, piyada və yol polisi bir-birini anlayanda və başa düşəndə müsbət nəticə əldə etmək mümkündü.

Sevindirici haldır ki, Abşeron Rayon Dövlət Yol Polis Şöbəsinin əməkdaşları bu gün həm də kobud qayda pozuntularına qarşı mübarizədə çox yüksək nəticələr əldə ediblər. Təkcə bir faktı demək kifayət edər. Belə ki, cari ilin sentyabrın 2-dək yol polisi əməkdaşları 238 sərxoş sürücü aşkar edib. Bilirsiniz, bu nə deməkdi? Bu, o deməkdir ki, əgər həmin sürücülər sükan arxasında saxlanılmasaydı, hər hansı bir qəzanın baş verməsi istisna deyildi. Çünki sükan arxasında sərxoş vəziyyətdə əyləşən sürücü hər an qəza törədə bilər. Həm özünün, həm də başqalarını təhlükə qarşısında qoyar. Ümumiyyətlə, bir faktı deyək ki, sərxoş sürücülürə qarşı Abşeron rayonunda çox yüksək səviyyədə yol polisi tərəfindən mübarizə təşkil edilib. Başqa sözlə demiş olsaq, sükan arxasında sərxoş vəziyyətdə əyləşmiş heç bir sürücüyə güzəşt edilmir. Bu başqa cür də ola bilməz! Çünki belə sürücüyə humanistlik göstərərsən, o da gedib bir qəza törədər və nəticədə ağır faciələrlə sonlanan hadisə baş verəcəkdir.

Bir faktı da qeyd edək ki, sentyabrın 2-də piyadalarla bağlı keçirilmiş reyddə rayonun müxtəlif yerlərində piyadalar təyin olunmuş yerdən keçərkən onlara yol verməyən 41 sürücü barəsində inzibati protokol tərtib edilib. Bu cür tədbirlərin gerçəkləşdirilməsi onu deməyə əsas verir ki, bu gün yenə qanunu pozan, piyadaların həyatı üçün təhlükə törədən sürücülər az deyil. Yəqin ki, inzibati məsuliyyətə cəlb olunmuş bu sürücülər nəticə çıxaracaq və gələcəkdə təkrarən belə qayda pozuntusuna yol verməyəcəklər. Əgər piyada təyin olunmuş yerdən keçirsə, onda sürücü zəhmət çəkib ona yol verməlidir və eyni zamanda da piyada təyin olunmuş yerdən keçməlidir.

Abşeron Rayon Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları, eyni zamanda digər qayda pozuntularına qarşı da mübarizəni gücləndiriblər. Eyni zamanda dayanma-durma qaydalarını pozanlara, səkidə avtomobil saxlayanlara, atmosferə normadan artıq zərərli qazlar atanlara, avtomobilin konstruksiyasında dəyişiklik edənlərə və eləcə də digər qanun pozuntularına yol verən sürücülərin də inzibati məsuliyyətə cəlb edilməsi heç vaxt unudulmur.

**Bir sözlə, sutkanın 24 saatını hərəkətin təhlükəsizliyinin təmin edilməsinə yönəldən yol polisi şöbəsinin əməkdaşları öz vəzifə borclarını məsuliyyətlə yerinə yetirir, baş verə biləcək hər hansı yol-nəqliyyat hadisəsinin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görür. Təbii ki, bütün qayda pozuntuları son nəticədə sürücülərin və hərəkət iştirakçılarının həyatını təhlükədə qoyur. Ona görə də sürücülər və hərəkət iştirakçıları birmənalı olaraq qaydalara əməl etməlidir. Heç kim tutduğu vəzifəyə arxayın olub qaydaları pozmamalıdır. Çünki yol-nəqliyyat hadisələri baş verərkən hər şey bir anın içərisində məhv olur. Bu mənada sürücü diqqətli olmalı, piyada məsuliyyət hiss eləməli, yol polisi də təhlükəsizlik ilə bağlı tədbirləri vaxtında həyata keçirməlidir.**

**Faiq QİSMƏTOĞLU**

---

**Bizə yazırlar**

# Gəncə şəhər sakinlərinin şikayət müraciəti

*Gəncə şəhəri, Dədə Yediyar küçəsinin bir qrup sakinləri: Atakişiyev Zakir Aydın oğlu, Nağıyev Elşən Aydın oğlu, Tağızadə Nüşabə İsmət qızı və digərləri (cəmi 12 nəfər. Əlaqə telefonu: 055 -254-08-76).*

*Hörmətli redaksiya.*

*Biz olduqca ağır sindroma düşən, dözülməz vəziyyətlə üzləşən, sarsıntılı, üzüntülü, həyəcanlı həyat tərzi yaşayan, yerlərdəki məmur özbaşınalığına tuş gələrək, süründürməçilik, bürokratik əngəllərlə üzləşən, laqeydliyin, biganəliyin qurbanı olaraq səlahiyyət sahibləri tərəfindən səsi eşidilməyən, miqyası gündən-günə genişlənən problemlərinin aradan qaldırılması istiqamətində müraciətləri uzun illərdən bəri diqqət mərkəzinə çəkilməyən, dediklərimizin əksinə inzibati amirlik metoduna üstünlük verərək səsinə səs verilməyən, özünə mükəmməl yer eləmiş, problem səbəbindən övladları, nəvələri parazitar xəstəliklər mənbəyi ilə bir yerdə yaşamaq zorunda qalan Azərbaycan Respublikasının Konstitusion hüquqlara malik vətəndaşları, azad, demokratik və müstəqil ölkənin insanları, ailə başçıları olaraq sizə bəyan edirik ki, "Regionların sosial-iqtisadi inkişaf" Proqramı çərçivəsində Gəncə şəhərinin bütün küçələrində müasir tələblər səviyyəsində kanalizasiya xətləri çəkilib, neçə illərdir ki, istismara verilib, hətta küçəmizə paralel olan küçələrdə, küçəmizin baş və ayaq hissəsində də bu işlər görülüb, hansı səbəbdənsə bizim yaşadığımız küçədə sözügedən məsələnin həllini vəd versələr də, kanalizasiya xətti çəkilməyib.*

*Sovetlər dönəmindən qalan kanalizasiya xətləri boruların çürüməyi səbəbindən çürüyüb-tökülüb, qırılıb-dağılıb xoşagəlməz fəsadlar törədib, yararsız borular ötürücülük funksiyasını yerinə yetirə bilmir deyə çirkab sularının axıdılması qeyri-mümkündür, tez-tez daşıb küçəmizi pis vəziyyətə qoyur, bu üzdəniraq mənzərə parazitar xəstəliklərin yaranma mənbəyinə çevrilmiş, nəinki küçədə yaşayan sakinlər, hətta şəhər üçün böyük təhlükəyə səbəb olmuşdur.*

*Bəzi sakinlər çıxış yolunu onda axtarırlar ki, dağılmış xəttə qoşulmadan öz həyətlərində çirkab sularını axıtmaq üçün quyu qazsınlar. Təmizləyici qurğuları olmayan, dərmanlanmayan, xlordan istifadə edilməyən belə quyular şəhərdə yaşayan sakinlər üçün daha qorxuludur. Digər tərəfdən də 2-3 aydan bir yüksək məbləğdə pulla quyular boşaldılmalı, daşınmalıdır. Biz amansız vəziyyətdə baş-başa qalmışıq. Hamının evində körpə uşaqlar böyüyür ki, mövcud vəziyyətdə uşaqlarımızı tez-tez xəstəxanalara aparmaq, müalicə etdirmək, orqanizmini yudurtmaq, sistem qoydurmaq, dava-dərmana pul xərcləmək məcburiyyətindəyik.*

*Əlaqələr qurumlara gəldikdə isə, deməliyik ki, müraciət etmədiyimiz elə bir ay olmayıb. Yalançı, boş vədlərə, vaxt uzatmaq xətrinə bizi dəfələrlə yola salıblar. Küçədə antisanitariya baş alıb gedir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin yerlərdəki mərkəzi filialları, Gəncə şəhər Su-Kanal Törəmə Səhmdar Cəmiyyətinin rəhbərliyi, ən başlıcası isə Gəncə şəhər İcra Hakimiyyəti sadaladıqlarımız hallara bir reaksiya vermir. Daha usanmışıq, yorulmuşuq. Elə güman edirik ki, yerlərdəki əlaqədar qurumlar tabe olduqları nazirlikləri, baş idarələri də yalançı hesabatlarla aldadırlar. Sonra isə problem həll olunmur, əhali əziyyət çəkir, insanlar yaşaya bilmirlər.*

*Xalqın və dövlətin maraqlarına xidmət etmədiklərindən bəzi məmurlar cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının, ən sevimli prezidentimizin: "Siz bu xalqın xidmətçilərisiniz..." kimi sərt fikirlərinə əməl etmirlər.*

*Sizdən xahiş edirik bizim küçəmiz məşhur bir xalq adamının, vətənpərvərin adını daşıyır, onun adını daşıyan küçəni xüsusi olaraq, göstərişiniz əsasında nəzarətə götürsünlər. Yay mövsümündə vəziyyətimiz olduqca pisləşir. Bir daha bildiririk ki, evimizdə gələcəyin əsgərləri böyüyür. Ana Yasa kitabımız Konstitusiyamızda yazılıb ki, insanlar sağlam ətraf mühitdə yaşamaq hüququna malikdirlər.*

*Ulu Tanrı Sizi qorusun!*

*Redaksiyadan: İnanırıq ki, Gəncə şəhər İcra Hakimiyyəti və aidiyyatı qurumlar vətəndaşların şikayətinin həll olunması istiqamətində lazımi addımlar atacaqlar.*

---

# Dərdimi kimə söyləyim...

**Aylardır ki, Təhsil naziri Emin Əmrullayevə, BŞBTİ-nin müdiri Mehriban Vəliyeva,Yasamal rayon icra hakimi Elşad Həsənova,20 saylı məktəbin direktoru Esmira Ağayevaya dəfələrlə etdiyim elektron müraciətlər, poçtla göndərdiyim məktublar, operatora qoşulan cavabsız zənglər, uzun sürən növbəyə yazılmalardan sonra qəbullarda müraciətim nəticəsiz qaldığı üçün problemimi ictimailəşdirmək məcburiyyətindəyəm.**

**Oğlum Qafarov Ömər Xəyyam oğlu Nizami rayonu 32 nömrəli orta məktəbin 3-cü sinfində (rus bölməsi) təhsil alır (UTİS ID 3636811).**



**Mən 20 saylı tam orta məktəb-liseyin xidməti ərazisində yaşamağıma baxmayaraq, (Yasamal r., M.Müşviq küç., məh.501) əksəriyyəti bu ərazidə yaşamayan şagirdlərlə yerlər dolduğundan övladımın bu məktəbə yerdəyişmə ilə keçirilməsinə icazə verilmir. sy.edu.az səhifəsindən şagird yerdəyişməsi üçün elektron müraciət edərək növbəyə yazılsam da yer olmadığından sorğu yerləşdirmək mümkün deyil. Bu səbəbdən mən Yasamalda yaşamağıma baxmayaraq, maddi və fiziki imkanım yol verməsə də bu il 3 nəqliyyat vasitəsi dəyişərək Nizami r., 32 saylı məktəbə övladımı aparmaq məcburiyyətindəyəm.**

**Əgər 4 minə yaxın şagird təhsil alan məktəbdə yaşayış və qeydiyyat ünvanı uyğun gələn şagird yox, xidməti ərazi üzrə yaşamayan təhsil alacaqsa, xidməti ərazi, ailə vəziyyəti, tək ana olmağı nəzərə alınmayacaqsa, günahkar elektron sistem olacaqsa mən kimə müraciət etməliyəm?**

**Təhsil haqında Azərbaycan Respublikası Qanununun 19.14. Bəndinə əsasən Azərbaycan Respublikasında ümumi orta təhsil icbaridir. Xüsusi proqram əsasında təhsilverən təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisəsinin yerləşdiyi ərazidə yaşayan təhsilalanlar həmin təhsil müəssisəsinə ilk növbədə qəbul olunurlar. Ümumi təhsil müəssisələrinə uşaqların qəbulu, şagirdlərin sinifdən-sinfə keçirilməsi və yerdəyişməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.**

**Aidiyyatı qurumlar bu məsələni həll edə bilmədiklərindən yeganə çıxış yolunu Bakı İnzibati Məhkəməsinə iddia ərizəsi ilə müraciət etməkdə görürəm. Ümid edirəm ki,məktəb başlayanadək bu məsələ tez bir zamanda qanun çərçivəsində həllini tapacaq.**

**Sevinc Qədimova,**
**Yasamal rayon,M.Müşviq küç.501-ci məhəllə sakini**

---

Aqil ABBAS

# TƏRLAN ƏHMƏDOVUN ƏHƏD KƏRİMOVLUĞU

*Əhəd Kərimov adlı çox savadlı, geniş dünyagörüşünə malik və özü də yaraşıqlı bir raykom katibi vardı. Allah rəhmət eləsin. Yeri gəlmişkən, Azərbaycan öz müstəqilliyini elan edəndə Ali Sovetdə həmin iclasa Əhəd müəllim sədrlik edirdi. Özünü raykom katibi kimi aparmazdı, müəllim kimi davranardı insanlarla. Heç vaxt onu hökm edən və bərkdən danışan, kiminsə üstünə səsini ucaldan görmədilər.*

*Ağdərədə ikinci katib işləyirdi. Şuşada birinci katibi işdən çıxartdılar, camaat arasında böyük narazılıq vardı. Əhəd Kərimovun xarakterinə yaxşı bələd olan Heydər Əliyev onu Şuşaya birinci katib göndərdi ki, getsin ab-havanı dəyişsin, narazılıqların qarşısını alsın. Qısa müddətdə Əhəd müəllim şuşalıların sevimlisinə çevrildi. Bir müddət Şuşada işləyəndən sonra Laçında vəziyyət pisləşdi, katibi işdən çıxartdılar. Əhəd müəllimi göndərdilər Laçına ki, vəziyyəti düzəltsin.*





*Birinci iş günündə yanına bir ağsaqqal gəlir. Başlayır çığıra-çığıra danışmağa. Sözünü bitirəndən sonra Əhəd müəllim sakitcə soruşur:*

*- Nə deyirdin?*

*Ağsaqqal yenə qışqıra-qışqıra danışır. Sözünü bitirəndən sonra Əhəd müəllim yenə sakitcə soruşur:*

*- Nə deyirdin? İndi sakit-sakit, çığırmadan de görüm nəyə gəlmisən?*

*Ağsaqqal səsinin səviyyəsini salır Əhəd müəllimin danışıq tərzinə, dərdini deyir.*

*- Beləcə de də sözünü, bayaqdan niyə çığırırdın?*

*- Katib həmişə bizimlə belə danışıb, biz də belə öyrənmişik.*

*- İndən belə belə danışacağıq, sakit, təmkinlə.*

*Əhəd müəllim yenə laçınlıların sevimlisinə çevrildi. Bir müddət Laçında çalışandan sonra Ucarda dava düşdü. Gərək ki, familiyası Ələkbərov idi, katib vardı. Camaatda böyük narazılıq yaratmışdı, qardaş-qardaşa salam vermirdi. Axırda o həddə çatdı ki, İcra Komitəsinin sədri işləyən göyçaylı bir xanımı gecə Büroda işdən çıxartdı və tapşırdı ki, heç kəs onu Göyçaya aparmasın. Xanım qalmışdı Raykomun küçəsində, qorxusundan heç kim ona yaxınlaşa bilmirdi.*

*Elə həmin günün səhərisi Heydər Əliyev katibi biabırçılıqla işdən götürdü və Əhəd müəllimi göndərdi Ucara. Əhəd müəllim Ucarda da xasiyyətinə uyğun gözəl bir ab-hava yaratdı.*

*Bir dəfə Qonaq evində söhbət edirdik. Dedi ki, indi gözləyirəm görüm hansı rayonda ara qarışacaq, məni göndərəcəklər ora.*

*Əhəd müəllim Kəlbəcərin Kolanısından idi, Kolanı qohumluğumuz vardı. Ağdama gedib-gələndə mütləq Ucara dönərdim bir stəkan çay içərdik, söhbətləşərdik, babalarımızdan danışardıq. Bəzən buraxmazdı, gecə qalardım. Tanınmış hüquqşünas Adil Minbaşı onda Ucarda məhkəmənin sədri idi, məni onunla ilk dəfə Əhəd müəllim tanış etmişdi. Həmişə çörək yeyəndə onu da çağırardı.*

*Bir dəfə yenə Ucara dönmüşdüm, Əhəd müəllim dedi:*

*- Təcili Bakıya çıxmalıyam, sən Adillə istirahət elə, yeyin-için, deyəsən, məni Qazaxa göndərirlər, axşama qayıdaram.*

*Gecə gəldi, dedi ki, məni Qazaxa yox, Bərdəyə göndərirlər.*

*Həmin vaxt Bərdənin katibi Rüstəm Səfərəliyev idi. İşdən çıxmışdı, Bərdədə vəziyyət gərginləşmişdi. Əhəd müəllimin yenə dediyi oldu, yenə narahat rayona göndərdilər ki, ab-havanı dəyişsin.*

*Bu xatirələri niyə yazdım? İndi Tərlan Əhmədov Əhəd Kərimovun vəziyyətinə düşüb. Harda bir komanda axsayırsa göndərirlər o klubda vəziyyəti yoluna qoysun. "Neftçi"ni 7-ci yerdən götürüb gətirir 2-ci yerə, Avrokuboklara vəsiqə qazanır, çıxarırlar. Ondan əvvəl "Xəzər"i sahmana salır, əla bir komanda yaradır, ordan da çıxarırlar. Nə bilim pis vəziyyətdə olan "Azal"ı formalaşdırır, yenə çıxarırlar. Gedir "Keşlə"yə, bitmiş komandanı yenidən yuxarı pillələrə qaldırır, yenə çıxarırlar, qalır işsiz.*

*İndi də göndərirlər "Kəpəz"ə - stadionu olmayan "Kəpəz"ə. Axırıncı yerlərdə fırlanan "Kəpəz"ə. İndi "Kəpəz"i də yuxarı pillələrə qaldıracaq, yenidən quracaq, yəqin ondan sonra da yenə çıxaracaqlar, qalacaq işsiz. Sonra da göndərərlər yəqin ki, "Sumqayıt"a.*

*Yəni Tərlan Əhmədov rəhmətlik Əhəd Kərimovun taleyini yaşayır.*

---

# QONŞUYA ÜMİD OLAN DÖVLƏTSİZ QALAR

*Son zamanlar demək olar ki, Ermənistan silahlı qüvvələri sərhəd boyunca Kəlbəcər və Laçın rayonlarındakı postlarımızı intensiv atəşə tuturlar. Eləcə də Qarabağdakı separatçı qüvvələrin terrorçuları bizim mövqelərimizə atəş açırlar. Sülhməramlıların gözü qarşısında. Və hələ də Qarabağda erməni silahlı qüvvələrinin əsgərləri və texnikası fəaliyyət göstərir, 10 noyabr Bəyannaməsində qeyd olunsa da hələ də Ermənistan öz silahlı qüvvələrini Qarabağdan çıxarmır.*

*Nikol Paşinyan Avropada bir bəyanat verir, qayıdıb İrəvanda ayrı bəyanat verir. Müdafiə nazirini ABŞ-dakı havadarlarının yanına göndərir, xarici işlər nazirini də Rusiyadakı havadarlarının.*

*Səbrimizlə oynayır, 44 günlük müharibə deyəsən Ermənistana dərs olmayıb. İstəyir ki, biz təmkinimizi pozaq və onların Ermənistandakı postlarını göyə sovuraq və dünyaya car çəksinlər ki, Azərbaycan Ermənistana təcavüz edir. Bir tərəfədən də KTMT-ni müharibəyə cəlb etsin. ABŞ və Avropa da tumanını başına keçirsin ki, qoymayın Azərbaycan Ermənistanı dağıdır.*

*İki məsələni unudur. Birincisi, KTMT deyilən təşkilat heç bir gücə malik deyil, həm də bu təşkilatın üzvlərinin əksəriyyəti müsəlman və türk dövlətidir. İkinci bir tərəfdən Rusiyanın başı Ukraynaya qarışıb, yeddi aydır ki, hələ bir nəticə əldə edə bilməyib.*

*Qaldı ABŞ və Avropaya, onların da başı Rusiya-Ukrayna müharibəsinə qarışıb və bu müharibə onları da boğaza yığıb.*

*ABŞ-a da çox arxayın olmasın. 2008-ci ildə Rusiya Gürcüstanı işğal edəndə rus tankları Tiflisin 30 kilometrliyinə dayananda ABŞ neyləyə bildi? Bir bəyanat verdi, vəssalam. Uzaqbaşı, belə bir bəyanat da bizə verəcək ki, siz Allah, yazıq ermənilərlə işiniz yoxdur.*

*Qonşuya ümid olan torpaqsız və dövlətsiz qalar. Necə ki Ermənistan müstəqil bir dövlət deyil, bilmirəm, Rusiyanın neçənci əyalətidi. Bir dövlət ki öz sərhədlərini özü qoruya bilmir, ona dövlət demək olmaz. Digər tərəfdən Paşinyanın ikiüzlü siyasəti Rusiyanı da çərlədib, Putini də boğaza yığıb.*

*Bu dünyanın işini bilmək olmaz, Gizir. Əgər Ermənistan sülhə gəlməsə, yenə bambılılığını davam eləsə Dəmir Yumruq heykəlinin biri Qərbi Zəngəzurda da qoyula bilər.*

*Tanrı Azərbaycanımızı qorusun!*
*Tanrı Cənab Prezidentimizi qorusun!*
*Tanrı əsgər və zabitlərimizi qorusun!*

# ZAQATALA: ONUN ADI... QIZIL GÜL

**Biz 2020-ci ilin payızından bəri 44 günlük Vətən müharibəsi zəfərinin sevincini və qürurunu hər gün yaşayırıq. Xalqımız, igid döyüşçülərimiz müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə azğın düşmənə bütün mənalarda qalib gələrək vətən adına yeni qələbələrə doğru irəliləyir. Qarabağda və ətrafında inanılmaz işlər gedir. Cənab Prezidentin tez-tez bu yerlərə səfərləri paxıl və rəzil düşməni ən ağır ruhi xəstəyə çevirməkdədir.**

...Ölkə daxilində isə inkişaf və tərəqqi daha böyük surətlə davam edir. Son vaxtlar regionlar haqqında məlumatların intensivliyi əvvəllərdəki kimi olmasa da, Dövlət Proqramı bütün istiqamətlərdə öz həllini tapmaqdadır. Rayon icra hakimiyyətləri də sakinlərin böyük dəstəyi ilə bu sahədə yeni-yeni uğurlar qazanırlar.





Belə rayonlardan biri də gözəlliklər diyarı Zaqataladır.

"...Bütövlükdə Zaqatala rayonunda işlər yaxşı gedir, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra edilir. Həm şəhərdə, həm kəndlərdə böyük quruculuq işləri aparılır. Bu Proqram bizə imkan verəcək ki, yaxın zamanlarda bütün əsas sosial və iqtisadi məsələlər öz həllini tapsın. Tikinti işləri davam edir. Sakinlər bu işlərdə fəal iştirak edirlər". Zaqatala rayonu haqqında bu dəyərli sözlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə məxsusdur.

...Burada, təbiətin bəxş etdiyi gözəlliklər məskənində, qızıl güllər diyarı Zaqatalada bu günlər hərdən-hərdən payızın sanki uzaqlardan gələn xoş qoxusu da duyulur. Bənzərsiz Zaqatala şəhəri də, bu rayonun qəsəbə və kəndləri də indilərdə elə bil son bahar özləmindədir. Nə olsun ki, bütün fəsillər buralarda ömürlərini çox "rahat" yaşayır. Zaqatalanın payızı ayrı bir ovqatda, ayrı bir biçimdə gəlir sanki, çox uzaqlardan gizlincə gəlir... Bir dünya gözəlinə dönür, görənləri heyran edir, ovsunlayır, eləcə...

Bəs görülən işlər, sakinlərin yaşam tərzi, arzu və istəkləri? Rayon rəhbərliyinin istər mərkəzdə, istərsə də kəndlərdə keçirdiyi bütün görüşlər optimist notlarla çalarlanır. Sakinlər dövlətin, ölkə başçısı cənab İlham Əliyevin siyasətini dəstəkləyir və gələcəyə ümidlə baxırlar. Axı məhz bu düzgün istiqamətli siyasətin nəticəsidir ki, regionlarda aparılan quruculuq işləri daim inkişafda olmuş, çoxlu töhfələr vermişdir. Və bütün bu xoş məqamlar rayonun gündəlik həyatında indi də davam etməkdə, yeni-yeni uğurlara köklənməkdədir. Keçirilən görüşlər və yığıncaqlar yüksək fəallıq, təşəbbüskarlıq və dövlət başçısına inam və dəstək amacı ilə diqqət çəkir. Rayonun sosial-iqtisadi və mədəni həyatını müəyyənləşdirən bir çox amillər optimal müzakirələrə sövq edir. Potensiallar sərf-nəzər edildikcə yeni istiqamətlər formalaşır. Məsələn tütünçülük kimi ənənəvi sahənin bərpası ideyası hamı tərəfindən bəyənilir və qəbul olunur. Elə sənaye təməli üzərində bağçılıq və heyvandarlığın daha şaxəli inkişafı...

Bəli, ölkə boyu nəhəng işlər aparılır. Mütərəqqi bu yüksəliş Azərbaycan Respublikasının adi vətəndaşından tutmuş onun rəhbərinə kimi sevinc və qürur bəxş edir. Ölkə Prezidenti İlham Əliyev regionlara səfəri zamanı ictimaiyyət nümayəndələri ilə görüşlərində ən sadə adamlarla bu sevinci bölüşür, Azərbaycan Respublikasının gələcəyinin daha gözəl olacağına inandığını bildirir.

Cənab Prezident ölkədə qeyri-istehsal sahələrinin də inkişaf etdirilərək xalqın rifatına yönəldilməsini düşünür və potensialları yüksək səviyyədə dəyərləndirir. Bu istiqamətlərdə turizmin də inkişafını ən vacib məsələlərdən biri kimi təqdim edir, dünya praktikasından nümunələr göstərir.

Əslində Zaqatala, elə bütövlükdə ölkənin şimal-qərb bölgəsi daxili və xarici turizmin inkiafı üçün münasib yerlərdir. Biz əgər indi konkret olaraq Zaqatala rayonu haqqında söhbət açırıqsa, mövzunu əhatəli şəkildə şərh etməliyik. Ən azından Zaqatala kəndli-şəhərli həm təbiət gözəllikləri, həm də sosial-mədəni inkişafı ilə turistləri daim cəlb etməkdədir.

Zaqatalanın tarixi abidələri və təbiət gözəllikləri ilə yanaşı, onun şəhər mədəniyyəti, qonaq (turist) qəbul edib xidmət göstərmək ənənəsi həmişə diqqət çəkib, onun bu özəlliklərini uzaqlara daşıyıb. Bu mənada təbii olaraq rayon rəhbərliyi bütün digər məsələlərlə yanaşı, turizmin inkişafına da xüsusi əhəmiyyət verir. Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə bu istiqamətdə söhbət etdiyimiz zaman deyir:

- Zaqatala onsuz da qonaq-qaralı yerdir. Burada turizm üçün də hər bir şərait və bu şəraiti daha da genişləndirmək perspektivləri var. Məsələyə çox ciddi yanaşırıq. Çünki turizm qeyri-istehsal sahələrindən biri kimi yaxşı gəlir gətirə bilir. Təbii ki, bütün infrastrukturlar, xidmət mədəniyyəti və digər amillər yüksək səviyyədə qurulduqda. Regionda turizmin inkişafı rayonumuz, camaatımız üçün əlavə gəlir mənbəyidir.



Bu səbəbdən də bütün imkanlardan maksimum istifadə etməyə çalışırıq...

Doğrudan da Zaqatala rayonunun turizm infrastrukturu ildən-ilə zənginləşir və müasir tələblərə cavab verir. Bütün bunlar turizm bölgəsi üçün təbii haldır. Yəni otel-mehmanxana, iaşə xidmətlərindən tutmuş, yollar, təbiətlə rahat təmas, internet və başqa amillər... Ən vacib məsələlərdən biri də tarixi abidələr, qədimliyi ilə diqqəti cəlb edən məkanlar və bənzərsiz təbiət gözəllikləridir.

Məsələn, Pipan və Silov dərələri Yuxarı Tala kəndinin şimal-şərqində, Böyük Qafqazın cənub ətəklərində yerləşir. 70 hektar sahəni əhatə edir. Tarixi abidələrdən Alban kilsəsi (IV-V əsrlər) vardır.

Yuxarı Çardaqlar kəndi rayon mərkəzindən 14 km məsafədə yerləşir.

Kənddə XIII əsrə aid bürc, Alban kilsə qalıqları, XIX əsrdə tikilmiş məscid vardır. Burada III-IV əsrlərə aid olan, el arasında "Qız qalası" mağarası adlanan "Pəri qala" yerləşir.

Zaqatala qalası Zaqatala rayonunun, uzun illər boyu bütün bölgənin simvoluna çevrilmişdir. Əlverişli hərbi, strateji mövqeyə malik olan Zaqatala hələ qədim zamanlarda xarici qəsbkarların diqqətini cəlb etmişdir.

Car-Balakən qəzası Rusiya tərkibinə daxil olduqdan sonra onun hərbi-strateji əhəmiyyətini nəzərə alan çar hökuməti Zaqatala şəhərinin gün batan hissəsində qala tikdirmək qərarına gəlmişdir. Qala 1804-1830-cu illər ərzində tikilmişdir.

Qala yerli əhalinin üsyanlarının yatırılmasında dayaq mərkəzi rolunu oynamışdır.

**Müstəqillik elan olunduqdan sonra Daxili Qoşunların N saylı hərbi hissəsi bu qalada yerləşirdi. Burada "Yenilməz batalyon" və "Cavadxan" bədii filmləri də lentə alınıb.**

**Məzahir ƏHMƏDZADƏ**

---

*Əntiqə RƏŞİD*



## Görəsən, Ermənistan Rusiyanın pay verdiyi 400 ton silahı geri qaytara bildi?

**Uzaq tarix deyil, 2020 - ci ilin avqustunu xatırlayarsınız: Həmin vaxt Rusiya son bir ayda fasiləsiz olaraq Ermənistana 400 tondan çox müasir hərbi texnika və vasitələr hədiyyə etdi.**

**Özü də proses Tovuzda aktiv döyüşlərin başladığı bir vaxtda başladı və hərbi yüklər Ermənistana gizli şəkildə çatdırıldı . Tovuzda ağır döyüşlərin getdiyi bir vaxtda iyulun 17-də Rusiyadan Ermənistana 2 yük təyyarəsi həcmində "təcili" kodu ilə silah-sursat daşındı. Hərbi yüklərin daşındığı marşrut isə birbaşa rəsmi qeydlərdə də öz əksini tapdı. Rusiyanın Mineralnıy Vodı ərazisindən qalxan il-76 yük təyyarələri Qazaxıstan, Türkmənistan, İran ərazisindən keçməklə 2030 km məsafə qət edərək 3 saat yarımdan sonra Mehri və İrəvana çatdı. Bundan sonra isə ard-arda iyulun 18, 20, 27, 29 və avqustun 4-də 1 reys, avqustun 6-da isə 2 reys olmaqla Ermənistana 400 tondan artıq həcmdə hərbi yüklər çatdırıldı.**

**Bu hərbi yüklərdə Rusiyanın müasir, bahalı və real döyüş şəraitində effektiv radioelektron kəşfiyyat vasitələri olan "Krasuxa", "Avtobaza-M" və "Nebo-M" sistemlərinin olması isə Azərbaycanın narahatlığına səbəb olmaya bilməzdi.**

**O vaxt xalq olaraq güclü və qaniçən olan Rusiyaya hiddətimiz də yadımızdadır. Ötən ay Böyük Britaniya Müdafiə Nazirliyi kəşfiyyat məlumatlarına əsaslanaraq Rusiya silahının və ordusunun gücünün tükəndiyini iddia edirdi. Bu gün Ukrayna Baş Qərargahı müharibənin 194-cü günü üçün Rusiya ordusunun itkiləri haqda məlumatı da Böyük Britaniyanın kəşfiyyat məlumatlarını təsdiq edir. Bildirilib ki, Rusiya indiyə qədər 49 800 hərbçi, 2068 ədəd tank, 4 459 ədəd zirehli döyüş maşını, 1 157 ədəd artilleriya sistemi, 294 ədəd RYAS (reaktiv yaylım atəş sistemi), 156 hava hücumundan müdafiə sistemi, 236 ədəd hərbi təyyarə, 206 ədəd helikopter, 3 286 ədəd avtomobil texnikası, 867 ədəd PUA, 205 qanadlı raket, 15 gəmi/qayıq, 107 xüsusi avadanlıq itirib. Maraqlıdır, görəsən, belə ağır bir durumda olan Rusiyaya 400 ton silah-sursat göndərə bildimi?**

**P.S. Rusiyanın Ermənistana göndərdiyi 400 ton silah- sursatdan açılan atəş nəticəsində Vətən müharibəsində 3 mindən çox şəhidimiz oldu....Bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik! Müharibə səbəbkarlarına və erməni havadarlarına isə lənət olsun...**

---

*Emin Piri*



## Axı, nəyin çatmır?

**Gözəl-göyçək qızdı, təhsili də var.**

**Hələ baxsan dolmada bişirə bilir. Amma şeir yazır. A köpəyin qızı,nəyinçatmır, axı? Bu nə naşükürlükdür? Şəngülümşeirlərinlə o gözəl simana niyə gözmuncuğu əvəziçirkinlik gətirirsən?**

**Özün də bilirsən sənə görə bütün paylaşdığın şeirlərəəhsən, ürəyinə sağlıq,dilinə sağlıq, bəh-bəh, öldüm anatipli şərhlər yazacağıq.**

**Kimi oxuyursunuz deyiləndə sevincək adını tağedəcəklər, müsahibə, açıqlama alacağıq, mükafatalanda "sən( yazarlığın yox ha, məhz sən!) layiq idin,əzizim," deyəcəyik.**

**Amma əlini vicdanına qoy. Ta, Allah hər şey verib, Tanrı səni gözəllişdiribsə qarşılığında ədəbiyyatı niyəçirkinləşdirə, zibilləyəsən? Bax, belə deyim də. Arada bookkafelərdə çayla, kofeilə oxuduğun kitab şəkillərini paylaş, arada mən buratanışlıqçün yox, ciddi informasiya əldə etməkçüngəlmişəm yaz.**

**Yaz ki, inboxa yazamayın, mən çox gec-gec baxıramvə ya baxmıram inboksa.**

**Aşağı statuslu adamların zarafatlrında ciddilik tələbelə. Yerli yazarları oxumadığını bildir, ammaböyükmüş kimi Ahmet Batmandı(adamlar bu qədərdərinliyə varmayacaqlar əsas odur əcnəbidir )! ondansitat paylaş.**

**Sual veriləndə yazan olsa yerli niyə oxumuruq deyibElxandan vəs.-dən status paylaş!**

**Hə, bir də hansı kinoya baxsan, rejissor adlarınıəzbərlə. Intelektual görünməkçün lazım olur.**

**Vəssalam, bundan sonra o simana mütləq hansısa"imkanlı papa"nın "ayı balası" tələnə düşəcək. Sən dəget, yaşaaa da.**

**Nəyin çatmır axı,gözəllik, təhsilin var, baxsan, dovğada bişirə bilirsən...**

**Ta şeir yazmaq nədi, bu nə naşükürlükdü?**

---

*Savaş Özbey*



## Uşaq mahnısını seksual mahnıya çevirmək olarmı?

***Rokçu Gökcan Şanlıman seksual modelin müşayiəti ilə "Red Fish" mahnısına seksual klip çəkdirib. Uşaq mahnısı? Eşidəndə tüklərim biz-biz oldu, açıb dərhal klipə baxdım.***

***"Qırmızı Balıq" mahnısını xatırlayırsınızmı:***

***Kırmızı balık gölde / Kıvrıla kıvrıla yüzüyor / Balıkçı Hasan geliyor / Oltasını atıyor / Kırmızı balık dinle / Sakın yemi yeme / Balıkçı seni tutacak / Sepetine atacak...***

***Rokçu Gökcan Şanlıman musiqi dəyişikliyində imiş və bu mahnını Teomanın prodüseri olduğu son sinqlı üçün yenidən şərh edib:***

***"Son zamanlar daha çox seksual və əyləncəli parçalarla maraqlanıram.***

***Romantik tərəfimi bir müddət geridə qoyub özümü yeniləmək istədim. "Qırmızı balıq" da bu ssenariyə çox uyğundur".***

***Təbii ki, musiqiçinin vaxtaşırı üslub dəyişməsi yaxşıdır.***

***Amma uşaq mahnısı?***

***Berlində çəkilən videoda Sanlıman gah geyinib, gah da yarıçılpaqdır. Mahnını yataq səsi ilə oxuyur:***

***"Kıvrıla-kıvrıla üzüyor..."***

***Onu klipdə model Lotus Sutra müşayiət edir.***

***Belə başa düşürəm ki, Lotus Sutra qırmızı saçlı olduğundan o, həm də "qırmızı balığı" təmsil edir:***

***"Kırmızı balık kaç kaç kaç / Bu aşk seni soyacak..."***

***Amma klipə baxanda "uşaq mahnısından seksual mahnı" narahatlığım sanki bir az səngidi.***

***Çünki bu, əsasən böyüklər mahnısıdır.***

***Maraqlandım ki, başqa belə nümunələr varmı?***

***Dünyanın ən uşaq mahnısı olan "Happy Birthday To You" mahnısını prezident Kennedi üçün dünyanın ən seksual mahnısı kimi oxuyan Merlin Monronu düşündüm.***

***Özümü bir az daha rahat hiss etdim. Amma tam yox...***

***Belə ki, nə düşünürsünüz? Uşaq mahnılarını seksual mahnıya çevirmək olarmı?***

*Dilimizə uyğunlaşdıran:*
*Eminquey*

---

# Sevincin döydüyü qapı...

**Atanı-ananı, müəllimi və doğmalarını sevindirən məzunlar sözün həqiqi mənasında çox istedadlı və savadlı gənclərdir. O gənclər ki, 11 il orta məktəbdə oxuyur, çalışır və axırda bir gün də qəbul imtahanı verərək seçdikləri ixtisasa yiyələnirlər. Əlbəttə, gecə-gündüz çalışan və əziyyət çəkən şagirdlər gec-tez onun xeyrini görürlər. Onlar tək elm və savad almırlar, həm də məktəbdə bir insan, bir vətəndaş kimi yetişir, elinə-obasına layiqli övlad olurlar.**

Bu mənada Füzuli rayonundakı Horadiz şəhər 2 nömrəli tam orta məktəbin şagirdləri də hər il valideynlərini və müəllimlərini sevindirirlər. Daha doğrusu, 11-ci sinifi bitirən məzunlar ali məktəbə qəbul olur və istəklərinə, arzularına qovuşurlar. 2021-2022-ci tədris ilində bu məktəbi 19 məzun bitirib. Onlardan 7 nəfəri ali məktəblərə qəbul olub. Deməli, adını çəkdiyimiz tam orta məktəbin şagirdləri və müəllimləri öz çəkdikləri zəhmətin bəhrəsini görüblər.

Ən azından ona görə ki, onlar 11 il bu məktəbə gedib, bu məktəbdə sevimli müəllimlərindən elm öyrəniblər və tərbiyə alıblar. Bu il ali məktəbə qəbul olan həmin məzunların adlarını və soyadlarını bir daha xatırlamaq və yada salmaq istəyirik:

Nəzrin İlqar qızı Allacova - ADPU, Azərbaycan dili və ədəbiyyat müəllimliyi, 427 bal, İlkanə Bəxtiyar qızı Hacıyeva - AMİU - Kommunikasiya sistemləri mühəndisliyi 398 bal, Əsmər Bəxtiyar qızı Hacılı - ADPU, biologiya müəllimliyi, 306 bal, Könül Rafiq qızı Məmmədova - ADİU iqtisadiyyat, 386 bal, Habil Həsən oğlu Nağıyev, ADİU menecment, 350 bal, Ələbbas Habil oğlu Nağıyev - ADPU coğrafiya, 300 bal,





Aysel Saleh qızı Əhmədova - BDU fizika, 330 bal.

Bu məzunlar həm məktəbin adına şərəf gətiriblər, həm də yeni bir tarix yazıblar. Çünki onlar sevdiyi və seçdiyi ali məktəbin tələbəsi adını qazanıblar. Təbii ki, heç də bu məktəbin məzunlarının hamısı ali məktəbə qəbul ola bilməyib. Elə məktəbin direktoru, gözəl ziyalı və təcrübəli pedaqoq Ləman xanım Əliyeva onlara müraciət edərək bildirib: "Tələbə adını qazana bilməyənlər, üzülməyin! Həyat davam edir! Unutmayın ki, orta məktəbdə "2" alan şagirdlər İkinci Qarabağ savaşında tarix yazdılar. Zaman gələr, sizlər də hər hansı bir gözəl əməlinizlə tarix yazarsınız! Oxumaq, alim olmaq şərt deyil, şərt odur ki, ağıllı başla çalışıb hər hansı bir peşənin sahibi olmaq, insan kimi insan olmaq və ən əsası Dövlətinə, Millətinə vicdanla xidmət edib xeyirli övlad olmaq lazımdı!

Üzülməyin, əzizlərim... Həyat davam edir".

Mən bu sətirləri qələmə alarkən Ləman xanımın öz şagirdlərini necə böyük məhəbbətlə sevdiyini və onların qayğısına qaldığını bir daha yenidən hiss etdim. Hiss etdim ki, Ləman xanım onlara şagird kimi, məzun kimi yox, öz balası, öz övladı kimi yanaşır. Təbii ki, müəllimin də ən böyük pedaqoji ustalığı odur ki, öz şagirdinin ürəyinə və qəlbinə yol tapır. Bugünkü təhsil sistemi şagirdləri döyməklə, danlamaqla deyil, bax, belə bir sevgi və məhəbbətlə elmə, təhsilə bağlaya bilər. Deməli, müəllim ürəyi nə qədər böyük olsa, nə qədər geniş olsa, onun hərarəti ilk növbədə o şagirdləri, o məzunları isidir. Bir faktı da qeyd edək ki, bu il həm də 2 nömrəli tam orta məktəbin 9-cu sinifini 26 nəfər şagird bitirib. 3 nəfər şagird 200-dən çox bal toplayıb. Güləbəyim Elşən qızı Novruzova, Aytac Elşad qızı İbrahimli, Əfruz Elmir qızı Səfərova belələrinə nümunədir. Həm də Əfruz fərqlənmə attestatı alıb, 2 nəfər isə 9-cu sinifdən kollecə daxil olub.

Əsas məsələ ali məktəbə qəbul olmaq deyil, əsas məsələ savadlı, vətənpərvər, ziyalı gənclərin yetişməsidi. Məhz bu məktəbdə də bu ideya və aparıcı xətt həmişə önə çəkilib.

Şagirdlərin təlim-tərbiyəsi, savadı və vətənpərvərlik uğrunda tərbiyə olunması dövrün prioritet vəzifəsidir. Ali məktəbə qəbul olmuş və yaxşı oxuyan şagirdlərin üzərində məktəbin müəllimlərinin zəhməti və əziyyəti çoxdur. Bu mənada Hikmət Xudiyevin, Vüqar Həsənovun, Rəksanə Aslanovanın, Azər Kərimlinin, Vəfa Xudiyevanın, Arifə Xudiyevanın və İradə Behbudovanın bir müəllim, bir ziyalı kimi çox böyük rolu var. Onlar öz şagirdlərinə tək elm öyrətmirlər, bu şagirdləri vətəndaş kimi, insan kimi tərbiyə edib, cəmiyyətə hazırlayırlar. Və bu gün bizim, sözün həqiqi mənasında ali məktəbə qəbul olmaqdan çox vətəndaş və kamil insan kimi yetişəcək gənclərə böyük ehtiyacımız var.



Və bəzən görürsən ki, orta məktəbdə yaxşı oxumayan, bir o qədər də sayılıb-seçilməyən bir məzun həyatda özünə çox böyük bir mövqe tutdu, istedadı və vətənpərvərliyi ilə yeni bir tarix yazdı. Biz bunu Birinci və İkinci Qarabağ savaşında şahidi olmuşuq.

Şahidi olmuşuq ki, orta məktəbdə zəif oxuyan şagirdlər Vətəni müdafiə etmək üçün əllərinə silah alıb, döyüşə atılıb, ya şəhid olub, ya qəhrəman olub, ya da qazi olub. Bu bizim uzaq tarix deyil, bu bizim yaxın tarixdir.

**Bir daha ali məktəbə qəbul olmuş bütün məzunları, o cümlədən Horadiz şəhər 2 nömrəli tam orta məktəbinin tələbə adını qazanmış gənclərini təbrik edirik, onlara gözəl tələbəlik illəri və mənalı bir ömür arzulayırıq. O ömür ki, onu sevə-sevə yaşasınlar, valideynləri və müəllimləri də onlara baxıb sevinsinlər...**

**Faiq QİSMƏTOĞLU**

---

# Şairə qınaq

**Bəzən qınaqlar oxumalı oluruq. Məsələn, cəmiyyətin milyonlar qazandırdığı müğənnilər qalır kənarda, bütün haqsızlıqlara etirazı şair, yazıçıdan gözləyirik. Tətəlşüur olaraq haqqı bu şəxslərdə görmələri də əslində haqlı qərardı. Amma bunu dilinə gətirənlərsə həmin şəxslərin durumu ilə ilgilənməyib, kitablarına xərclər çəkməyib, həmin müğənnilərçün xərcə girənlərdi.**

Tutaq ki, haqlıdılar. Elə isə dolandırdıqlarından bunu tələb etmək daha düzgün olardı. On minlərlə kitablarını aldığı yazıçıdan. Məsələn, Çingiz Abdullayev, Elxan Elatlı və.s-in on minlərlə kitabını alırlar. Elə etirazı da onlardan istəmələri daha düzgün olardı.

Düşünün, bir yetim şair bu cəmiyyət deyəni edir. Sonra işsiz qalanda, balası çörəksiz qalanda həmin cəmiyyət onda deyəcək: canı çıxsın daş atsın, kartof satsın. Burda daş atmaq küçümsəmə sahəsi kimi nəzərdə tutulmayıb. Sadəcə cəmiyyətimizin el üçün ağlayan kor olar deyiminə gətirirəm.

Birindən nəyisə tələb etmək üçün özünün onun üzərində haqqı olmalıdır. O ya təyinatlı dövlət vəzifəsində çalışmalıdır, ya sənin səsinlə seçilmiş biri, ya da dolandırdığın( kitab alışı, qonorar və.s)

Cəmiyyətin bunu tələb edəcəyi şəxsləri ünvan kimi göstərdim. Sırf şair, yazıçıya gəldikdə isə yenə də on minlərlə kitabını aldığı şəxslər.

Adi bir toyda etiraz etdiyiniz vəzifəli şəxs, prokurora necə yanaşmanız da məlum, həmin tələbi istədiyiniz yazıçıya da.

Əlbəttə, bu tələbin sevgidən gəldiyini söyləyə bilərlər. Siz məgər həyatda sevdiyiniz amma sizin olmayan şəxsdən nəyisə tələb edə bilirsiniz?

Digər məsələdə isə hər kəsin öz işini yerinə yetirməsi haqq-haqsızlıqlığı yonuna salır. Bunu tələb edən müəllim, polis, həkim rüşvət almasa şairi, yazıçısı da yazısında ədalətə xidmət etsə hər bolt öz qaykasına düşəcək.

Müqayisə üçün gətirəcəyiniz dünyada baş verən kiçik istisnalar isə bu qaydanı pozmur.

**O ki, qaldı bu və ya digər məsələdə ədalətin yanında olmasına, bu nə şairlik, nə həkimlik, nə və.s ilə əlaqəli deyil, vicdan məsələsidir.**

**Emin Piri**

---

# Bir stəkan çay içmək olmur

**Qabaqlar hansı parka, hansı yeməkxanaya və çayxanaya gedirdin, orda çayniki 1 manata çay verirdilər. İndi çox nadir yerdə 1 manata çay verilər. Mən şəhəri demirəm, lap şəhərdən uzaq hər hansı bir yerdə Bakıda çay içmək istəsən, ən azı 7-8 manat pul ödəməlisən. Yanında da mürəbbə, konfet, şokalad olsa, bu 15 manata çatır. Başa düşmək olmur, bu qədər də insafsızlıq olar? Kiminsə ürəyi çay istəyirsə, isti yay gündə 1 stəkan çay içmək arzusundasa, çətin ki, o hardasa çayniki 1 manata çay tapıb içsin.**



Allah bəzi adamlara insaf versin. O insaf ki, 1 çaynik çayı 7-8 manat yox, heç olmasa 2-3 manata versin. Mürəbbə-filan da lazım deyil.

Sadəcə olaraq bizim nəzarət orqanları bu məsələlərə o qədər də önəm vermirlər. Deyirlər ki, bazar iqtisadiyyatıdır və hər şey bazar tənzimləyir və biz sahibkarların işinə qarışa bilmərik. Amma lazım olanda qarışırlar və həmin sahibkarı elə günə qoyurlar ki, dədəsinin toyu yadına düşür.

**Emil FAİQOĞLU**

---

## NATO: Dönüş nöqtəsinə yaxınlaşırıq!

**Ukraynada müharibə dönüş nöqtəsinə yaxınlaşır, Rusiyanın hücumunun Donbasda yavaşladığını görürük.**

Bu sözləri NATO rəhbəri Yens Stoltenberq deyib.

"Görürük ki, ukraynalılar güclü cavab zərbəsi ilə torpaqlarının bir qismini azad edir", - deyə o bildirib.

Eyni zamanda, baş katib Ukrayna və onun tərəfdarlarını qarşıdakı aylarda sərt qışla qarşılaşacağı ilə bağlı xəbərdarlıq edib.



Əbülfət MƏDƏTOĞLU

# ƏDƏBİYYATIMIZIN MUSTAFA ÇƏMƏNLİSİ

**Bəri başdan deyim ki, Mustafa Çəmənlinin imzasını tanıyanda orta məktəbin son siniflərində oxuyurdum. "Ulduz" jurnalında çap olunmuş hekayəsi diqqətimi çəkmişdi. Hardasa ötən əsrin 70-ci illərinin ortaları idi. Və açığını da deyim ki, Mustafa müəllimin təxəllüsü də məni özünə çəkmişdi. Hardasa bir qarabağlı kimi hiss etmişdim ki, yenicə imzasını tanıdığım bu yazıçı elə biz tərəflərin adamıdı. Mən o qədər yerlipərəst olmasam da, lakin adamın daxilində öz bölgəsinə sevgi, sayğı bir az artıq olur.**

**Bax, o sayğı da, o sevgi də Mustafa Çəmənli imzasını mənim yaddaşıma yazdı. İllər ötdü və bu ötən illər günlərin bir günündə məni Mustafa Çəmənli ilə qarşılaşdırdı. Onda Mustafa müəllim "Yazıçı" nəşriyyatında işləyirdi. Və mən də yazı-pozuya meylli gənclərdən**



**biri kimi redaksiyaların, nəşriyyatların qapılarını artıq tanımışdım. Hətta bəzi yazıçı və şairlərlə dostluq əlaqələri də qurmuşdum.**

**Bu münasibətlər də təbii ki, həmin mühiti, həmin dairəni yavaş-yavaş genişləndirirdi. Genişlənən dostluq dairəsində bir gün ruhuma dualar oxuduğum gözəl naşir dostum Əlican Əliyev də var idi.**

**Bax, məni Mustafa müəllimlə daha da yaxınlaşdıran təbii ki, bir insan, bir ziyalı kimi onu daha da içdən görmək şəraiti yaradan elə Əlican müəllim oldu.**

**Həyatın öz axarı Çingiz Əlioğlu, Zülfüqar Şahsevənli, Musa Ələkbərli və digər dəyərli qələm dostlarımın çalışdığı "Gənclik" nəşriyyatında Mustafa müəllimlə əlaqələrimi daha da möhkəmlətdi. Demək olar ki, artıq biz hər görüşəndə doğma adamlar kimi hal-xoş edib bir-birimizin problemləri ilə maraqlanmağa başlamışdıq.**

**Deməli, həmin o "Ulduz" jurnalında oxuduğum hekayənin işığı düşübmüş bizim dostluğa doğru gedən yolumuza. Və...**

**Azərbaycan oxucusu Mustafa Çəmənli imzasını iki məqamda çalarları ilə, bütün təfərrüatı ilə yaxşı tanıyır. Bu təfərrüatlardan, bu çalarlardan birincisi Mustafa müəllimin yazıçı, nasir, publisist qələmidi.**

**Yəni onun biz oxuculara ərməğan etdiyi bütün əsərlərinin hamısı birmənalı şəkildə maraqla qarşılanıb. Ona görə ki, bu əsərlərin mayası Azərbaycan tarixi, Azərbaycan mentaliteti, Azərbaycan dünyasıdı. O cümlədən Mustafa müəllimin publisist yazılarında da həyatın gerçək tərəfi bədii prizmadan elə təqdim edilib ki, onu maraqla oxumamaq mümkün deyil.**

**Lap elə "Ədalət" qəzetində işıq üzü görmüş sonuncu publisist yazısı, xatirələri, yəni "Nəşriyyatlarda keçən ömrüm" özü-özlüyündə mənim dediklərimi sübut edir. Bu sonuncu publisistik yazı Mustafa müəllimin nəşriyyatla, mətbuatla bütün təmaslarını şirin bir xatirə kimi oxucu qulağına pıçıldayır.**

**İkinci məqam Mustafa müəllimi redaktoru kimi Azərbaycan ouxucusuna sevdiribdi. Belə ki, Mustafa müəllimin redaktor süzgəcindən keçib oxucu auditoriyasına üz tutan kifayət qədər kitablar var.**

**Həmin kitabların müəllifləri də təkcə Azərbaycan yazarları, qələm adamları deyil. onların arasında keçmiş SSRİ respublikalarının yazarları, eləcə də dünyanın müxtəlif millətlərini təmsil edən yazıçılar da var.**

**Bax, bu iki məqam Mustafa Çəmənlini mənə söz adamı kimi ikiqat sevdiribdi. Həm özünü oxumuşam, həm də özünün təqdim etdiklərini. Və burada təvazökarlıqdan uzaq da olsa vurğulamalıyam ki, şəxsən mən, Mustafa Çəmənlinin biz oxuculara təqdim etdiyi, hədiyyə etdiyi əsərlərinin demək olar ki, böyük əksəriyyəti barəsində öz oxucu fikirlərimi zaman-zaman bölüşmüşəm. Onun "Xallı gürzə" və "Ölüm mələyi" tarixi romanlarını isə xüsusi zövqlə mütaliə etmişəm.**

**Bu gün yaradıcılığna az-çox bələd olduğum, sözünü və özünü çox istədiyim Mustafa müəllimin 70 yaşın əlini sıxır. Düzünü deyim ki, ürəyinin təpərinə, sözünün kəsərinə və səmimiyyətinə inandığım, şəxsiyyətinə hörmət etdiyim Mustafa müəllimin bu yaşa gəlib çatmasına o qədər də inanmıram. Çünki ondakı gənclik eşqi rəhmətlik Üzeyir Hacıbəyovun təbiri ilə desək, 50 yaşlı cavandı.**

**Mən də ustadıma, cavan dostuma "yubileyin mübarək!" deməklə bu kiçik yazını ad gününə ünvanlayıram. Bilirəm ki, bu səmimi, amma çox yığcam yazı Mustafa müəllimin bütün yaradıcılığı önündə çox kiçik bir yazıdı. Tanrı imkan versə, növbəti yubileyində bir də ürək sözlərimi daha geniş şəkildə deyəcəyimə söz verirəm. Bəribaşdan isə əlini sıxıb "100 yaşa, Mustafa müəllim, yaz, yarat!" - deyirəm.**

**P.S. Sentyabrın 10-da Mustafa müəllimin 75 yaşı tamam olur! Mən bu yazını Onun 70 yaşına yazmışdım. Aradan keçən 5 ildə baş verənlərlə bağlı isə bu gün yazacam...Buyurun , bu da yazımın ardı...**

***

**Onun barəsində 70 yaşında yazmışdım. İndi aradan 5 il keçib. Otağımda var-gəl edə-edə bu 5 ili çözməyə, vərəqləməyə çalışıram. Çünki içimdən gələn səs məni kağıza, qələmə tərəf çəkir. Və elə bil ki, o səs bir hakim kimi hökm edir ki, otur yaz! Mən də nə yazacağımı qərarlaşdırmağa çalışıram. Ona görə ki, barəsində yazacağım dəyərli ADAM sözün naxışını da bilir, qatlarını da tanıyır, hətta durğu işarələrinin də alt qatından xəbərdardı. Ona görə də ötəri, xətir xoş etməyə yazı yazmaq olmaz. Ən azından bu özümün özümə hörmətsizliyim olar və ...**

**Mustafa müəllimin 70 yaşına qədər mənə bəlli olan həyatını oxucularıma xatırlatdım. Təbii ki, yazının əvvəlində - birinci bölümündə onun 70 yaşına təbrik yazanda. İndi isə birbaşa bu 5 ili çözürəm və istəyirəm hamı bilsin ki, bu 5 ildə mənə Mustafa Çəmənli ilə daha sıx təmasda olmaq, daha tez-tez danışmaq, söhbətləşmək imkanı yarandı. Səbəb də bu oldu ki, pandemiyaya görə virtual görüşlərimiz, telefon söhbətlərimiz sıxlaşdı, sırası genişləndi... onun hər zəngində mən yeni bir fikrin dinləyicisi oldum.**

**Xüsusilə Zəfər müharibəmizin ilk günündən Şuşaya bayraq sancılana qədər demək olar ki, hər gün danışdıq... hər gün bir-birimizə göz aydınlığı verdik!..**

**Və mənə elə gəldi ki, Mustafa Çəmənli həmin günlərdə yenidən doğulmuşdu.**

**Səsindəki həzinlik də, doğmalıq da, sevinc də, bir sözlə, xoşbəxtlik çalarları o qədər artmışdı ki, mən artıq hərdən düşünürdüm ki, bu xoşbəxtliyə onun ürəyi dözməyəcək. Amma Ağdamı görmək, ziyarət etmək, torpağı öpmək arzusu onun dözümünü bir az da artırdı. Və beləcə bu dözümün sahibi mətbuatda daha çox çıxış etməyə başladı... İstər "Ədalət"də, istər "525-ci qəzet"də, istər digər mətbu orqanlarda. O, "Erməni polkovnikinə məktub" yazanda da, Şuşayla bağlı bilgilərini bölüşəndə də, savaş qəhrəmanlarımızı təbliğ edəndə də, korifey sənətkarlarımızı kitablaşdıranda da...**

**Bu gün musiqimizi, xüsusilə muğamlarımızı dünyada tanıdanlardan bəhs edəndə də... Oxucularına, daha çox da mənə "Oxu, bu yazını!" - deyirdi sanki və mən də oxuyurdum. Eləcə də mənim yazdıqlarımı Mustafa müəllim oxuyub səhər-səhər zəng vurub münasibət bildirəndə də mən onun böyük ürəyinə təkrar-təkrar heyran qalırdım və indi də belədi!**

**İndi 5 ilin ən önəmli məqamlarından biri olan Ağdamın, Şuşanın, ümumiyyətlə, işğal altındakı torpaqlarımızın azadlığı hamımız kimi Mustafa müəllimin də çiynindəki vətənsizlik yükünü, ürəyindəki yurd nisgilini yuyub aparıb. Ona görə də o, mənə əvvəlkindən daha gümrah görünür . Onun dəyərli yazıçımız, çox böyük ziyalımız olan Əli Əmirli ilə bağlı yazdıqlarını oxuyanda və bir də təkrar "Nəşriyyatda keçən ömür"ü vərəqləyəndə, ağsaqqal dostumun keçdiyi yolun bilmədiyim məqamlarını yenidən öyrənəndə, tam səmimi deyim ki, ürəyimdən bir istək gəlib keçdi. O sözü indi deyəcəm:**

**- Mustafa müəllim, siz elə-belə, sıradan bir yazıçı, publisist, redaktor ömrü yaşamadınız. Siz külünglə daş çapan, iynəylə yer qazan və seçdiyi yola alın tərini su kimi çiləyib, ümid göyərdən ziyalımızsınız, yazıçımız, publisistimiz, redaktorumuzsunuz, tədqiqatçımızsınız, arışdırmaçımızsınız. Yaşadığınız halal ömür həmişə halal qələmə xidmət edib.**

**Ona görə də sizin öyünməyə, şair kimi desəm, yaşamağa haqqınız var. Özü də halallıq dolu haqqınız!**

**Bəli, mən Mustafa müəllimlə məclisdə də, tədbirdə də, redaksiyada da, bir sözlə, hər yerdə özümü rahat hiss etmişəm.**

**Bu gün yazımı kağıza köçürəndə də, bilgisayara diktə edəndə də içimə bir rahatlıq hakim olub. Ona görə ki, dost haqqında, qardaş haqqında yazıram və inanıram ki, onun barəsində içimdə olanların bir misqalı olan bu yazı diqqətindən yayınmayacaq. Çünki o, həm də diqqət adamıdı. 75 yaşın mübarək, tanıdığım, dost bildiyim ADAM!**

# Ramiz Məmmədzadə ilə...

## Yazdığım yazı

**Bizə verilən ömür həyatımızın həm ölçüsüdü, həm çəkisidi, həm tutumudu, həm də ifadəsi. Yəni biz nə qədər yaşayırıqsa, o qədər də söylədiyim cizgiləri özümüzdə əks etdiririk. Bir az da xırdalasam onda deyə bilərəm ki, ömrümüzün ölçüsü yaşadığımız illər, çəkisi bu ömrün özümüzə, çevrəmizə, millətimizə, bütövlükdə insanlığa verdiyi töhfə, tutumu bizim cəmiyyətdəki yerimiz, ifadəsi isə xatirələrimizdi. Deməli, bütün bunların toplum halında bir insanda, daha dəqiq onun ömründə cəmlənməsi Tanrı işidi. Yaradan boynumuza bu haqqı, bu missiyanı qoyub. O ki, qaldı onun icrasına, gerçəkləşdirilməsinə, reallaşdırılmasına, bu, artıq hər kəsin gücündən, qabiliyyətindən, istedadından və nəhayət bütövlükdə adamlığından asılıdı. Ona görə də ,sonda bəzi adamlar evdən gedir, bəziləri də eldən.**

Bu, müdrik deyim özü-özlüyündə hər şeyi ifadə edir və mən də kitab rəfimin qarşısında dayanıb düşüncələrə dalanda köməyimə ağsaqqal şairimiz, dəyərli ziyalımız, köklü qarabağlımız Ramiz Məmmədzadə çatdı. Əlimi uzadıb götürdüyüm kitabın adı da çox maraqlı idi.

Ramiz Məmmədzadənin 2014-cü ildə işıq üzü görmüş və "Qarabağımızın şair oğlu Əbülfət bəyə müəllifdən" avtoqrafı ilə bağışladığı "Ümid kitabı" həm tərtibatı, həm də dəyəri ilə mənə çox əzizdi. Elə açıb oxuduğum ilk şeir də məni çəkib uzaqlara, xatirələrə apardı.

Özüm də bilmədən öncə söylədiyim eldən gedən insanları düşündüm, onların həyatdakı yerini, izini gözümün önünə gətirdim. Bax, bu duyğuların içərisində Ramiz müəllimin səsini eşitdim:

*O nəydi, düşmüşdüm bəxtiyarlığa...*
*O kimdi ağlımı aldı da getdi...*
*Ürəyim az qaldı yerindən çıxa,*
*Bu da bir sevdalı haldı da, getdi...*

Doğurdan da bizim hər bir halımız, hər bir ovqatımız istər vüsalımız olsun, istər həsrətimiz bir an çəkir. Amma onun ağrısı, onun izi, fəsadları, yaşantıları ömrümüzə hopur və biz "O nəydi" deyə-deyə qalırıq.

Həmin o anda da kökləndiyimiz duyğular ya bizi sakitləşdirir, ya daha da kövrəldir, ya da içimizdən qopan "ah"la özümüz-özümüzü yola veririk. Baxmayaraq ki, bu yazdıqlarım, bu ifadə etdiklərim ötəri deyil.

Bunu mən elə Ramiz müəllimin həmin şeirinin işığında pıçıldadığım misralarımda da əks etdirməyə çalışmışam. Yazmışam ki:

*Ağrıyan qəlbimi xatirələrim,*
*Bükdü göz yaşına, layla oxudu...*
*Mənə bir içim su gətirən əlin -*
*Dönüb son ümidə çiçək qoxudu...*

Hə, görürsünüzmü, xatirələr bizlərə nələri yaşadır, nələri təkrar çəkdirir. Bu təkrar hardasa ömrün çarxının geri fırlanması deyil, əksinə o geridə qalanı çəkib bugünümüzə gətirməsidi. Sadəcə olaraq burda an məsələsi var. Biz o anı tuta biləndə bir də görürük ki, bu anın içində keçmişi yaşadıq, itirdiyimizi, xatırladığımızı ömrümüzdə yenidən sərgilədik və bizim duyğusallığımız da bu nöqtədə misraları bir-birinin ardınca düzdü. Qələmkağızla, kağız da ürəklə həmsöhbət oldu. Sonda bu misralar gəldi dünyaya:

*Məndən betərlərə baxıb dözürdüm*
*Hər gələn qovğaya ta müntəzirdim.*
*Bəxtimi yazmağa qələm gəzirdim ,*
*Bir quş lələyindən saldı da, getdi...*

Yəqin diqqət yetirdiniz. Ramiz Məmmədzadə mənim düşüncələrimi özünün şair qüdrəti ilə elə ifadə edib ki, sanki ürəyimi oxuyub, ruhumun cizgilərini kənardan izləyib və nəticədə də onun çox uğurlu və məntiqi fikri dörd bənddə özünü təsdiq edibdi. Bizim hamımız təbii olaraq dözməyə, bir az da səbirli olmağa üstünlük vermişik. Düşünmüşük ki, sabah bu gündən daha yaxşı olacaq.

Amma bu düşüncələr bəzən daşa dəyəndə, onda elə mənim... İndi yazacağım misralar hardasa ötəri bir təsəlliyə çevrilir. Yəqin ki, diqqət yetirsəniz mənimlə həmfikir olacaqsınız:

*Ömründə, günündə olan bu bəndə,*
*Düşübdü eşq adlı açılmaz bəndə!*
*Sənə danışıram, dinləyib sən də -*
*Deyirsən, gördüyüm köhnə yuxudu...*

Bir halda ki, özünü həsr edirsən, özünü oda-közə vurursan və rahatlığını, dincliyini heç nə düşünmədən, nəzərə almadan, qarşına hansısa bir məqsəd qoymadan fəda edirsən, cavabında da gözlədiyinin heç tozunu da ala bilmirsən... Onda yaşam mənasını itirir, ümid təkcə daşa dəymir, həm də ölür. Amma xoşbəxt o kəsdir ki, onun iç dünyasının işığı hər gün daha da gurlaşır və o işıq düşdüyü nöqtələrdə həqiqi mənada sevinclə, şəfqətlə, hörmətlə, sayqıyla qarşılanır. Bax, onda həyat, yaşam mənalı olur. Baxmayaraq ki, heç nə əbədi deyil. Bu əbədi olmayanın biri də elə varlıq olaraq insandır! Ramiz Məmmədzadə də həmin nöqtəyə toxuna-



raq bir kövrək notla, bir səmimi, həm də yadda qalan pıçıltı ilə yazır:

*Qolumu qaldırıb asıldım sözdən,*
*Bir ovuc dən umdum sünbüllü düzdən.*
*Kimsə deyəsimi heyf Ramizdən*
*Getdi...*
*Gedər-gəlməz yoldu da, getdi...*

Hə, biz ömrümüzün ölçüsündən, illərindən asılı olmayaraq, arxaya baxmalı, dünəndə qalanları xatırlamağı bacarırıq. Təbii ki, bunu bacaran insan sabahını da dəyərləndirə bilir. Bu məqamda Ramiz müəllimin söylədiyi "Kimsə deyəsimi heyf Ramizdən Getdi...Gedər-gəlməz yoldu da, getdi..." - birmənalı, həm də çox sanballı fikir adamın ürəyini sirkələyir, içində od qalayır və öz-özünə (təbii ki, burda söhbət məndən gedir - Ə.M.) o da deyir. Görəsən mənim arxamca da kimsə "heyf" deyəcəkmi. Göz yaşı tökən, xatirələr söyləyən tapılacaqmı?!

Mən bu ağrılı sualların məntiqi cavabını bilirəm. Ən azından ailə var, uşaq var...

Amma Ramiz Məmmədzadənin birmənalı şəkildə söylədiyi GETDİ! - təkcəailə- uşağa deyil, əslində hamıya aiddi. Və hamının da hara necə gedəcək, onu bir Allah bilir.

Mən isə indiki anda ustadıma qoşulub deyirəm:

*Didir baxışını bir tikan kolu,*
*Asılır havadan uzanan qolu.*
*Yetişir mənzilə cığırı, yolu -*
*Gedən Əbülfətdi, qalan ruhudu.*

**Bəli, budur həyat, budur yaşam, budur insanın "ol"dan "öl"ə olan məsafəsi. Amma məsafədən asılı olmayaraq xatırlanmaq, anılmaq iz qoymaq özünə, ömrünə, torpağına dəyər verənlərin işidir. Bax, elə ağsaqqal şair, qardaşım, dostum Ramiz Məmmədzadənin məni də özünə qoşan "Kimsə deyəsimi" şeiri ruhumu təbdən-təbə, haldan-hala saldı. Ortada isə elə bu yazı qaldı - Ramiz müəllimlə birlikdə yazdığım yazı!**

**Əbülfət MƏDƏTOĞLU**

# Keçid



Vüqar Abbasov

*Özümü bildim biləli "Keçid dövründəyik, bir müddət sonra hər şey fərqli olacaq" eşidirəm. Hara keçirik? Necə keçirik? Bu da artıq məsələnin başqa tərəfidir. Hər halda ümid edirik ki, keçəcəyimiz yer indikindən daha yaxşıdır. Bu keçid dövrü nə qədər sürəcək? Hələ də bizlərə keçid dövründə olduğumuzu deyirlər...*

*Yox, gərək belə başlamayaydım. Gəlin sizə bir əhvalat danışım/yazım. Sizə bir keçiddən söhbət açacam. Hər dəfə yanından keçəndə maşındakılara zarafatla "Vüqar Abbasov keçidinin yanından keçirik" - deyirəm...*

*Səhv etmirəmsə 2016 - cı il idi. Niderlandlı bir həmkarımla Bakının Sabunçu qəsəbəsi tərəfdə, köhnə Sabunçu dairəsindən Pirşağıya gedən yolu bir trəfdən qarşı tərəfə keçmək istəyirdik. Maşınların ardı-arası kəsilmirdi ki, yolu keçək. Bir çoxları sürətlə gedən maşınların arasından yolu keçib getməyə cəhd edirdilər və keçirdilər də. Bu mənzərədən niderlandlı tanışımın gözləri bərələ qalmışdı. Bir müddətdən sonra dözmədim "Bu camaat niyə yığışıb buna bir əncam çəkdirmir?" - deyə bərkdən deyinməyə başladım. Yanımda dayanlardan biri "Camaat neyləsin? Hər yerə yazmışıq, xeyri yoxdur" - dedi. Üzümü mənə cavab verənə tutaraq harasa yazdıqları ilə bağlı əllərində sübutun olub-olmaması ilə maraqlandım. Məlum oldu ki, varmış. Uzatmayım, tanışlıq verdim və aidiyyatı təşkilatlardan aldıqları cavabları görmək istədiyimi dedim və adam yaxınlıqdakı evindən məktubları gətirdi. Çəkildik bir tərəfə və başladım məktublara baxmağa. Orada yaşayanlar müvafiq bildikləri təşkilatlara sözü gedən yolda keçid tikilməsi xahişi ilə müraciət etmişdilər. Məktubun biri Bakı Şəhər Dövlət Yol Polis İdrasinə (BŞDYP), digəri isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə (AAYDA) ünvanlamışdı və ən qəribəsi isə bu idi ki, hər iki dövlət təşkilatı onlara ünvanlanmış məktubu bir-birinin üstünə göndərmişdi; BŞDYP ona ünvanlanmış məktubu AAYDA -ya, ikinci də ona ünvanlanmış məktubu birinciyə yönləndirmişdi. Bu yerdə bir dənə "aydaa" deməyə bilmədim. Elə oradaca telefonla BŞDYP - yə zəng etdim və oradan mənə bildirdilər ki, keçid məsələsi AAYDA lıqdır. Düşündüm ki, ora sakit başla zəng etməliyəm və beləcə məktubları götürüb gəldim evə. Düşünüb daşınandan sonra AAYDA - ya zəng etdim, tanışlıq verdim və birbaşa dedim ki, məndə olan məlumata görə planda filan yolda keçid tikilməsi olduğu halda hələ də orada keçid tikilməyib. Niyə tikməmisiniz? Sonra da əlavə etdim ki, mən burada niderlandlı dostumlayam və buraya dövlət əhəmiyyətli bir tədbirdə iştirak etməyə gəlmişik. Tədirdə Azərbaycanın bütün rəhbərliyi iştirak edəcək və mən bu məsələni onlarla müzakirə etməyə çalışacam. Adam xahiş etdi ki, ona bir neçə saat vaxt verim ki, bu məsələni araşdırsın. Bir neçə saat sonra zəngləşdik və bu yerdə etiraf edim ki, adını unutduğum bu şəxs çox mədəni danışırdı. Bəli, zəng edən şəxs dedi ki, müəllim, biz araşdırdıq və məlum oldu ki, planda bu keçidin tikilməsi var və keçid yaxın zamanlarda tikiləcək. Daha orasını bilmədim və soruşmadım ki, o zaman camaatın yazdıqları məktublara niyə belə cavab veriblər və məndə belə təəssürat yarandı ki, bu zəng, təbirdə iştirak və.s. olmasa idi keçid tikilməyəcəkdi (sonda sizlərə buna uyğun bir lətifə payım da olacaq). Xülasə, anlaşdıq ki, keçid tikilənə kimi oradakı yola "zebra" çəksinlər və Sabunçu rayon DYP - si ora bir müddət nəzarət etsin ki, camaat yolu rahat keçə bilsin. Mən Azərbaycanda olduğum müddətdə "zebra" da çəkildi, DYP əməkdaşları ora nəzarət də etməyə başladı. Məmləkətdən çıxmamış AAYDA - ya yenə zəng etdim və keçidi bir daha xatırlatdım. Müəllim də məni əmin etməyə çalışdı ki, keçid mütləq tikiləcək və tikildi də. Doğrudan da bir müddət sonra orada keçid tikdilər. İndi adamlar yolu bir tərəfdən digər tərəfə rahatlıqla keçirlər. Demək ki... Qalanını siz düşünün.*

*Siz düşünün, amma mən də fikrimi bildirim. Məndə belə bir fikir yarandı ki, o keçid orada tikilməli imiş, tikməyiblərmiş. Ona ayrılmış pullar necə olacaqmış, burası da bir başqa məsələ.*

*Qayıdım yazımın əvvəlinə. Yazımın əvvəlində "Bu keçid dövrü nə qədər sürəcək?" deyə sual etmişdim. Hər cür müqayisəni qüsurlu hesab etsəm də, demək istəyirəm ki, bax bizi əvvəl yaşadığımız sistemdən keçmək istədiyimiz sistemə keçirtməli olan "keçidin" də "tikintisi"nə başlamayıblar. Bu "keçidin" pullarını isə bəzi rüşvətxor məmurlar həzm-rabedən keçiriblər və bu proses yenə də davam etməkdədir, yəni hər dəfə keçid (bu dəfə bilərəkdən dırnaq işarəsi içərisində yazmadım) üçün ayrılmış pulları yeyirlər. Bunu çox da uzaq olmayan (müxtəlif) tarixlərdə həbs olunmuş nazirlərin və digərlərinin evlərindən çıxmış, bizlərə göstərilmiş sərvətlərindən görmək olar. Hələ bundan sonra çox belə məqamları görmə ehtimalımız belə var. Bizə məlum olan və olmayan, dövlətdən oğurlanmış bütün pullar həmən keçidə, bizi gələcəyə aparmal olan keçidə ayrılmış pullardır, dəyərli oxucu. Keçidə ayrılmış pullar oğurlandığı üçün biz hələ də keçid dövründəyik və o keçiddin pulları oğurlandığı müddətdə də keçid dövründə qalacağıq. Odur ki, keçidi tikmək lazımdır.*

***P.S.** Yuxarıda söz verdiyim lətifə.*

*Bir gün Amerikanın, Almaniyanın və Azərbaycanın yol və körpü tikintisinə məsul nazirliklərinin başçıları bir yerdə çörək yeyirlər. Qonaqlığı da ABŞ - lı rəhbər ABŞ - da verir. Qonaqlıqdan sonra qonaqlar soruşurlar ki, ay nazir, bu qonaqlığı hansı pulla verdin? ABŞ - lı nazir əlini bir istiqamətə uzadıb:*

*- Baxın, o körpünü görürsünüz? - soruşur*

*- Bəli, görürük.*

*- Bax o körpüyə 1 000 000 dollar ayrılmışdı. Onun 990 000 mini xərcləndi. Yerdə qalan pulla da sizə qonaqlıq verirəm, yerdə pul qalmasa idi sizə qonaqlıq verə bilməzdim.*

*Növbəti qonaqlıq Alnaiyada olur. Yenə də eyni sual, bu dəfə Alman nazirə verilir və o da eynən amerikanlı həmkarı kimi əlini bir istiqamətə uzadıb:*

*- Baxın, o körpünü görürsünüz? - soruşur*

*- Bəli, görürük.*

*- Bax o körpüyə 1 000 000 avro ayrılmışdı. Onun 990 000 mini xərcləndi. Yerdə qalan pulla da sizə qonaqlıq verirəm, yerdə pul qalmasa idi sizə qonaqlıq verə bilməzdim.*

*Növbəti qonaqlıq Azərbaycanda olur. Yenə də eyni sual verilir və bizim nazir də digər həmkarları kimi əlini bir istiqamətə uzadıb:*

*- Baxın, o körpünü görürsünüz? - soruşur.*

*Amerikanlı və Alman nazir ha baxırlar bir şey görə bilmirlər və:*

*- Yox, körpü filan görümürük - deyirlər.*

*- Hə, görə də bilməzsiniz. Orada körpü tikintisi üçün 1 000 000 ayrılmışdı. Əgər o körpü orada tikilmiş olsa idi, bu gün mən sizə qonaqlıq verə bilməzdim.*

*Niderland.*
*vugarabbasov@hotmail.com*

**Bizə yazırlar**

# Sabiq gömrükçülər pensiyalarından narazıdırlar

**Hörmətli Baş redaktor.**

**Yazıb Sizə bildiririk ki, biz dövlət qulluğunun xüsusi kateqoriyasına aid olduğumuzdan bizim xüsusi rütbəli şəxs kimi əmək pensiya hüququmuz 20 təqvim ili tamamında yaranmışdır. Lakin biz həmin hüququmuzdan istifadə etməyərək Gömrük Orqanlarında öz fəaliyyətimizi davam etdirmişik.**

**Sonra sabiq Dövlət Gömrük Komitəsi sədrinin 2019-cu ilin iyulunda imzaladığı əmrlə bizə heç bir xəbərdarlıq edilmədən Gömrük Orqanlarında fəaliyyətimizə xitam verilmiş və pensiyaya çıxarılmışıq. Dövlət Gömrük Komitəsi pensiya haqqında məlumat vərəqəsini Əmək və Əhalinin Sosial Müdafıəsi Nazirliyi yanında Dövlət Sosial Müdafıəsi Fondunun Xüsusi Rütbəli Şəxslərlə Təyinat İdarəsinə göndərmişdir.**

**Həmin məlumat vərəqəsində bizim işlədiyimiz dövrlərdə aldığımız digər əlavələr öz əksini tapmamışdır. Bizə çox az pensiya hesablanmışdır. Gömrük Komitəsi bunu onunla əsaslandırmışdır ki, 30 noyabr 2018-ci il tarixli 1362-V Q D-nömrəli Azərbaycan Respublikası Qanunu ilə 1.0.5,-ci maddəyə "digər əlavələrdən" sözlərindən sonra (büdcədənkənar vasitələr hesabına hesablanan əlavələr və digər ödənişlər istisna olmaqla) sözləri əlavə edilmişdir və həmin dəyişiklik 01 yanvar 2019-cu il tarixindən qüvvəyə minmişdir.**

**Qeyd edək ki, 2019-cu ilin yanvar ayından əvvəl pensiya hüququna çatmış gömrük əməkdaşları kütləvi şəkildə pensiyaya çıxdılar. Lakin içərisində biz də daxil olmaqla az sayda gömrük əməkdaşları iş fəaliyyətlərini davam etdirdilər. Amma sabiq Gömrük Komitəsinin rəhbərliyi bu işçilərin fədakarlığını nəzərə almayaraq 6 aydan sonra onların (biz də daxil olmaqla) müəyyən hissəsini heç bir xəbərdarlıq etmədən pensiyaya çıxardılar. Halhazırda biz bizdən 6 ay əvvəl pensiyaya çıxmış eyni rütbəli, eyni iş stajına malik olan həmkarlarımızdan 2,5-3 dəfə az pensiya alırıq.**

**Bu cür pensiya hesablamalar nə hüquqa, nə ədalətə, nə də sizin insanların rifahının, həyat tərzinin yaxşılaşdırılması üçün apardığmız siyasətə uyğun gəlmir. Bizim işlədiyimiz son dövrlərdə aldığımız maaş (baza maaşı 180-270 azn digər əlavələr 1500-2000 azn) pensiya hesablanarkən yalnız baza maaşı nəzərə alınmışdır. Digər əlavələr nəzərə alınmamışdır. Ancaq biz digər əlavələrin verilən günündən yəni 2011-ci il tarixindən sosial sığortaya pul ödəmişik.**

**Yuxarıda göstərildiyi kimi biz pensiya hüququmuzu göstərilən normativ hüququ aktlarda edilən dəyişikliklər qüvvəyə minənədək qazanmışıq. Həmçinin normativ hüquq aktlarda edilən dəyişikliklər bizim hazırda vəziyyətimizi ağırlaşdırır. Ona görə də sözügedən qanunun bu maddəsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsinə əsasən bizə şamil edilə bilməz. Həmin bənddə göstərilir. Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.**

**Bizim müraciətimiz əsasında bank tərəfindən bizə təqdim edilən əmək haqqı və digər əlavələrin bank çıxarışlarından görünür ki, yuxarıda göstərildiyi kimi Azərbaycan Respublikası Prezidentinin fərmanına uyğun olaraq aldığımız əlavələrdən qanunda nəzərdə tutulmuş sığorta ödənişləri Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafıəsi Nazirliyi yanına Dövlət Sosial Müdafıə Fonduna köçürülmüşdür.**

**Pensiyamızın düzgün hesablanmayaraq bizə ödənilməsi barədə dəfələrlə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafıəsi Nazirliyinə şikayətlər etməyimizə baxmayaraq bizə cavab olaraq bildirmişlər ki, Dövlət Gömrük Komitəsi tərəfindən göndərilmiş məlumat vərəqəsində bizim aldığımız əmək haqqımıza olan əlavələr göstərilməmişdir. Məcburiyyət qarşısında bir sıra məhkəmələrə etdiyimiz müraciətlər nəticəsiz qalmışdır.**

**Yazıb Sizə bildiririk ki, Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun 2022-ci il iyun ayında imzaladığı aşağıdakı qərarda göstərilir:**

**Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:**

**1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, NQ 10, maddə 1899; 2020, N29, maddə 1207) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nın 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:**

**"1.3. Vəsaitin 60 (altmış) faizi dövlət büdcəsinə köçürülür və həmin vəsait tam həcmdə Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq**

**vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə edilir".**

**2. Bu qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.**

**Verilən qərardan göründüyü kimi 2022-ci il iyul ayının 1-dən etibarən gömrük orqanlarında pensiyaya çıxan əməkdaşlar 2019-cu il yanvar ayının 1-dən əvvəl çıxanlarla təxmini eyni pensiya alacaqlar. Ortada qalan 30-40 nəfər biz əməkdaşlarıq. Yəni bizdən əvvəl və bizdən sonra pensiyaya çıxanların bütün aldığı məvaciblər pensiyaya hesablanır.**

**Xahiş edirik verilən bu qərarın bizə də şamil olunnmağı üçün öz köməkliyinizi göstərəsiniz. Gömrük Orqanlarının fəaliyyətinin inkişafında bizim də əməyimiz danılmazdır. Biz də ümidvarıq ki, Siz bizim hüquqlarımızı bərpa etməyə köməklik edəcəksiniz.**

**İmza:**
**Qazıbəyova Nəzakət Hacı qızı**
**və 22 nəfər**

# Azərbaycan reallığı hər kəsə nümunədir



**Bütün dünya gec də olsa Azərbaycan həqiqətlərini artıq qəbul etməyə başlayıb. Bu həqiqətlərin qəbulunu təbii ki, ən böyük xidmət Azərbaycan ordusuna və onun Ali Baş Komandanına məxsusdu. Mövzu ilə bağlı fikirlər öyrənərkən əməkdar jurnlist, əslən Füzuli rayonundan olan Faiq Qismətoğlu vurğuladı ki: ”Həqiqətən 2020-ci ilin sentyabr ayının 27-ə qədər bir məğlub xalq idik, torpaqlarımız işğalda, özümüz isə qaçqın, köçkün, didərgin. Şükürlər olsun ki, noyabr ayının 10-da böyük zəfərimiz bizi qalib xalqa çevirdi. Bunun üçün cənab prezidentə və ordumuza minnətdarıq”.**

Bəli, həqiqətən Azərbaycan torpaqlarının işğal altında olduğu dövrdə biz təkcə erməni silahları ilə, Ermənistan ordusu ilə deyil, həm də bütün dünyada ermənilərə havadarlıq edənlərlə döyüşürdük. Bu həm siyasi müstəvidə, həm də hərb meydanında reallaşırdı. Azərbaycan prezidenti cənab İlham Əliyev hakimiyyətə gəldiyi gündən ardıcıl olaraq Azərbaycan gerçəkliyini dünyada qəbul etdirmək üçün yorulmadan uğurlu xarici siyasət həyata keçirtdi. Məhz bu uğurlu xarici siyasətin bir qanadı da dünyaya səpələnmiş azərbaycanlıların bir mərkəzdə birləşməsi, yəni diaspora təşkilatlarının yaradılması idi. Ölkə rəhbərinin qarşıya qoyduğu bu məqsədi Diasporla İş Üzrə Dövlət Komitəsi də planlı şəkildə reallaşdırmağa çalışırdı. Xüsusilə bu komitənin rəhbərliyi dəyişildikdən sonra aparılan işin həm miqyası, həm məzmunu, həm də intensivliyi artıq hər kəsin diqqəti çəkməyə başladı. Ona görə də Şuşada keçirilən beşinci Zəfər qurultayında çıxış edən Azərbaycan prezidenti vurğuladı ki, ”Biz hamımız - həm Azərbaycana yaşayan Azərbaycan vətəndaşları, həm də Dünya Azərbaycanlıları bir nöqtəyə vurduq, bir hədəfə çatmaq üçün çalışdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq öz əməlimizlə, öz işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib iş yox idi. Məhz buna görə də ordu quruculuğu sürətlə aparılmışdır”.

Göründüyü kimi, ölkə rəhbəri birmənalı şəkildə görülən işin real mənzərəsini cızmış, onu öz çıxışında vurğulamaqla, hər kəsə bəyan etmişdi. Əslində bu bəyanat həm də diaspora təşkilatlarımıza, Dünya Azərbaycanlılarına yeni bir mesaj, yeni bir çağırış idi. Əgər diqqət yetirsəniz, onda görərsiniz ki, cənab İlham Əliyev qurultay iştirakçılarına xatırlatmışdı ki, böyük Zəfərə qədər gördüyümüz işlərlə yekunlaşmaq olmaz. İndi əvvəlkindən də çox işləmək, əvvəlkindən də çox birləşmək lazımdır ki, qələbəmizin əbədiliyi təmin olunsun, Azərbaycan reallığı dünyanın yaddaşına yazılsın.

Hər gün diqqətlə izlədiyimiz informasiyaların içərisində diqqət çəkənlərdən biri də Azərbaycan diaspora təşkilatlarının dünyanın müxtəlif guşələrində həyata keçirdikləri tədbirlərlə bağlı bilgilərdi. Həmin bilgilər içərisində ən çox yer alan isə Şuşayla, Qarabağla bağlı reallaşan tədbirlər, konfranslar, sərgilərdi. Bax, elə bugünlərdə Parisdə keçirilən böyük və diqqətçəkən mərasimlərdən biri Heydər Əliyev Fondunun vitse prezidenti Leyla xanım Əliyevanın kitabının təqdimatı idi. Verilən məlumatlara görə böyük maraqla qarşılanan və kifayət qədər də iştirakçı cəlb edən bu təqdimat Azərbaycan ədəbiyyatının, mədəniyyətinin tanıdılması istiqamətində atılmış uğurlu addımlardan biri sayıla bilər. Həmin təqdimata qatılmış Fransanın ictimai-siyasi xadimləri, görkəmli ədəbiyyat və dövlət adamları təkcə Leyla xanım Əliyevanın kitabı ilə deyil, həm də Azərbaycan həqiqətləri ilə bağlı informasiya əldə etmək fürsəti qazanmışdılar. Bu da öz növbəsində həm Heydər Əliyev Fondunun, həm Fransa-Azərbaycan Dostluq Cəmiyyətinin, həm Xarici İşlər Nazirliyimizin, həm də diaspora təşkilatımızın fəaliyyətinin bəhrəsidir.

Bu qəbildən başqa bir tədbir isə Niderlandda təşkil edilmişdir. Verilən məlumata görə Azərbaycanın bu ölkədəki təmsilçiləri, xüsusilə diaspora təşkilatı üzvləri Haaqadakı festivalda çox fəal iştirak etmişdilər. Bu ölkədə fəaliyyət göstərən səfirliklər festivalında iştirak edən diaspora təşkilatımız Azərbaycanın 70 ölkənin səfirliklərinin iştirak etdiyi bu tədbirdə layiqincə təmsil edərək hər kəsin diqqət və marağını qazana bilmişdilər. Hətta verilmiş informasiyadan bəlli aydın olub ki, Haaqa şəhər meri şəxsən Azərbaycan pavilyonuna baş çəkmiş və bizim nümayəndələrin zövqlü və müasir dizaynlı pavilyonunu çox yüksək qiymətləndirərək bəyəndiyini vurğulamışdır. Həmən pavilyonda Azərbaycanın mili mədəniyyəti və mətbəxi, eləcə də qədim tariximiz, coğrafiyamız, adət-ənənələrimiz nümunələrlə iştirakçılara təqdim olunmuşdu. Yəni saydığımız çalarları ifadə edən kitablar, jurnallar, milli atributlar, mətbəx nümunələri, həmçinin mədəniyyət işçilərimizin canlı ifaları, ölkəmizi səfirliklər festivalının öncüllərindən biri hesab etmişdi.

Bu gün bütün dünyanın diqqətini cəlb edən və hələ də uzanan Ukrayna-Rusiya müharibəsinin fəsadlarına, ortaya çıxardığı problemə baxmayaraq, bu ölkələrin özündə də Azərbaycan Diaspor təşkilatları bir anda olsun öz fəaliyyətlərini dondurmurlar. Yəni, həmin təşkilatlar birmənalı şəkildə Ukrayna- Azərbaycan və Rusiya-Azərbaycan münasibətlərinə öz töhfələrini verirlər. Xüsusilə Azərbaycan hökumətinin Ukraynaya yardımı dost əlinin uzatması həmin münasibətlərin daha da möhkəmlənməsində öz sözünü deyir. Bütün bunlar isə birmənalı olaraq Azərbaycan prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasətinin bəhrəsidir. Cənab prezidentimizin dəfələrlə vurğuladığı kimi: ”Hər kəs bilməlidir. Bu gün Azərbaycan ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruhu, həm mənəvi ruhu, silah-sursat, texnika, yeni döyüşdə hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini, - əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq!”.



**Bəli, istinad etdiyimix ixtibasdan göründüyü kimi, Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da kimsənin torpaqlarına göz dikmədən qorumağa və bir xalq, bir dövlət olaraq öz həqiqətlərini dünyada tanıtmaq, qəbul etdirmək istiqamətində hər cür addımlar atır və bundan sonra da atacaqdır. Ona görə də Dünya Azərbaycanlıları onların birləşdiyi təşkilatlar, diaspora qurumları, prezidentimizin söylədiyi fikirlərin qarşıya qoyduğu məsələlərin mahiyyətinə varmalı və onu reallaşdırmaq üçün daha çox səfərbər olmalıdılar. Günün reallığı bizim daha səfərbər və daha əzmkar olmağımızdır! Düşünürük ki, bu istiqamətdə görəcəyimiz işlər üçün kifayət qədər qətiyyətimiz də var. Bunu prezidentimiz dəmir yumruğu ilə hər kəsə göstərib.**

Əbülfət MƏDƏTOĞLU

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Bu bir tarixdir, unudulmur

## Arif Əbdüloğlunun kitabı haqqında düşüncələr



<ins>*Asif Quliyev*</ins>
<ins>*SSRİ jurnalistlər ittifaqının qızıl qələm mükafatı laureantı*</ins>

**Azərbaycan jurnalistlərinin tanınmış simalarından söhbət düşəndə bir vaxtlar ”Sovet kəndi” qəzetində xüsusi müxbir, şöbə müdiri vəzifələrində işləmiş Arif Əbdüloğlunun da adı iftixarla çəkilir. Kəndin təbiətini, insanların psixologiyasını aydınlığı ilə qələmə alan Arif Əbdüloğlu (İsmayılov) bir jurnalist kimi hansı məsələni qələmə alırsa alsın, onun bütün yazılarında insanların daxili aləmi üstünlük təşkil edirdi. Bu da onun şair təxəyyülündən irəli gəlirdi.**

Şair təbiətli jurnalist 1939-cu ildə Xəzərin sahilində, Maştağa qəsəbəsində dünyaya göz açmış, burada da böyüyüb boya-başa çatmışdır. Heç şübhəsiz ki, ”Vətəndir - sevdiyim, sevildiyim yer” adlı kitab da o torpaqdan bəhrələnmiş lirik duyğuların bariz ifadəsidir. Müəllifin doğma Məştağaya bağlılığı onun bütün şeirlərində, poemalarında özünü aydın göstərir. Kitaba daxil edilmiş ”Solların çətin yolu” poemasında A.Əbdüloğlu böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Şollar - Bakı su kəmərinin çəkilişinə göstərdiyi misli bərabəri olmayan xidmətlə Hacının vətəninə bağlılığının aydın obrazını yaratmışdır. Bakının su problemini böyük ürək ağrısı ilə qələmə alan müəllif yazır:

***Suyu bura gəmiylə***
***Gətirib satırdılar.***

***Demək olar yox idi***
***Xalqı düşünən, sayan.***
***Bir mərhəmət göstərib***
***Suya kapital qoyan...***
***Bu problem Dumada***
***Qoyulmuşdu lap çoxdan,***
***Amma onun həllini***
***Var idimi bir tapan?***

Dərin, ağıllı fikirlər dərin mismar kimidir. Adamın ağlına elə batır ki, sonra onu dartıb çıxartmaq mümkün olmur. Çoxlarının ağlına Kürdən, Arazdan Bakıya su kəməri çəkilməsi gəlsə də, hətta dənizin duruldulub içməli su kimi Bakıya verilməsi üçün çoxlu təkliflər olsa da, Hacı razılaşa bilmirdi. Bakının ən təmiz içməli su ilə təmin olunması üçün hər tərəfə addımlar atır, ağlına gələnləri həyata keçirmək üçün az qala dünyaya müraciət edirdi.

Müəllif daha sonra bu problemin necə həll olunduğunu, layihə müəllifinin necə tapıldığını. Hacının bu məqsədlə nələr etdiyini və necə etdiyini nə qədər xərc çəkdiyini tarixi faktlar və sənədlərlə göstərir:

***...Öyrəndi Hacı bir gün***
***Dünyanın hər yerindən***
***Yığışıb hidravliklər***
***Odessaya gələrək***
***Qurultay keçirəcək.***

Bunu bilən Hacının Odessaya mütəxəssislərdən ibarət xüsusi nümayəndə göndərdiyini, Bakı-Şollar su kəməri layihəsinin müəllifi İngilis Vilyamın necə tapıldığını, bu xəbərin Hacıya çatdırılmasını müəllif su kimi axan xoş ifadələrlə nəql edir:

***... Nəhayət, Harleyn Bakıya gəldi,***
***Suyun mənbəyini axtarmaq üçün***
***Baxmadı keçilməz daşlı yollara,***
***Çıxdı Şah dağına, gəldi Qusara.***
***Hər kiçik bulağın nəbzin dinlədi.***
***Nəhayət, dağlardan Xudata endi,***
***Şollara çatanda yaman sevindi.***

...Bakıya su kəmərinin çəkilməsinin mənbəyi və yolları tapılsa da, ortaya həm gözlənilən, həm də gözlənilməyən problemlər çıxdığını ürək ağrısı kimi qələmə alan müəllif göstərir ki, Şollar su kəmərinin çəkilməsi üçün yaranan problemlər, - Birinci Dünya Müharibəsinin başlanması, Rusiyada, eləcə də Avropanın bəzi ölkələrində baş qaldıran üsyanlar, inqilablar, kəmərin tikintisi üçün nəzərdə tutulan xərci nə qədər artırsa da, əsas işçi qüvvələri işdən uzaqlaşdırılıb cəbhəyə göndərilsə də, xalq hamılıqla ayağa qalxıb tikintinin inşası üçün səfərbər olundu. Qiymətlər qalxdıqca Hacı Allahı çağırıb pul kisəsinin ağzını açdı. Bu iş illərlə uzansa da, arzular çin oldu.

Günəşli bir gündə Şollar suyunun Bakıya çatdırılması barədə xoş bir xəbər yayıldı:

***Yayıldı bir xoş xəbər:***
***Bakıya çatır kəmər!***

Əbdüloğlu poeziyanın yanıq qələmi ilə təsvir etdiyi bu həsrəti, xalqın böyük sevinci kimi təqdim edir. Su həsrəti ilə şəhərin kənarına qalxıb onun yolunun gözlənildiyini, Şollar suyunun sanki anasından ayrılmış balanın onun qucağına tələsdiyi kimi Bakıya tərəf qaçdığını vurğulayır:

***Şəhər kənarında - hündür təpədə,***
***Xeyli adam vardı səssiz-səmirsiz.***
***Bir sual gəzirdi beyinlərdə:***
***”Bəs nə vaxt Şolları görəcəyik biz?***

***Üçüncü gün idi öz axarıyla***
***Sular ”yola çıxıb” Şərqə gəlirdi.***
***Sanki anasından ayrılmış bala***
***Onun qucağına çox tələsirdi.***

Həm layihə müəllifi Vilyamın, həm də böyük xeyriyyəçi Hacının səbirsizliklə gözlədiyi sevincli, həm də sonsuz həyəcanlı anları təsvir edən müəllif elin istəyi kimi, xalq dilində yazır:

***Birdən şəlaləninmi,***
***Yoxsa dağ selininmi***
***Səsi gəldi yaxından.***
***Sevinclə elə bu an***
***Səsləndi Harleyin Vilyam:***
***-Su gəldi, bir bax, Hacı!***
***-Su gəldi ay Camaat.***
***Gözünüz aydın olsun...***

Bu şad xəbəri qaranquş adlandıran şair, qaranquşun uçub Bakının küçələrinə xəbər çatdırdığını bildirir. 180 kilometrlik su yolunun Bakıya 63 saata çatdığını vurğulayır:

***Bakı görməmişdi belə izdiham,***
***Bakı etməmişdi belə toy-bayram.***
***Qurbanlar kəsildi... sayı yox idi***
***Bir şənlik oldu ki, ... tayı yox idi!***

Bakıya içməli suyun gəlişinin Dumada təntənə ilə qeyd olunduğunu yazan müəllif deyir:

***Neçə natiq danışdı***
***Şollardan iftixarla***
***Hacıdan və Vilyamdan***
***Xoş söz ilə, vüqarla.***
***Dinləyərək onları***
***Duma qərara aldı:***
***Vilyam bizim Bakıya***
***Fəxri vətəndaş oldu.***

Şollar - Bakı su kəmərinin çəkilişini əvvəldən axıra diqqətlə araşdırıb, tarixi bir poema yazan müəllif Vilyam Lindleynin 64 yaşında Londonda vəfat etdiyini və bu xəbərin Dumada böyük ürək ağrısı ilə qeyd olunduğunu, Bakının mərkəzində, geniş abad küçələrin birinə Lindley adı verildiyini göstərir. Daha sonra:




***Yaratdığı kəməri***
***Çoxdan sınayıb zaman.***
***Yüz ildir ki, işləyir,***
***Bircə gün dayanmadan.***

Yazan müəllif təəssüfünü də gizlətmir, həmin küçənin adının dəyişdirildiyinə kədərləndiyini bildirir:

***Onu dəqiq bilirəm:***
***Yoxdur belə bir küçə!***
***Çıxıb baxsan şəhərə,***
***Dəyişib çoxdan adı***
***Neçə yol, necə kərə***
***Dünya üzündə bu cür***
***Əvəzsiz qurğu varmı?***
***Deyin belə insanı***
***Heç unutmaq olarmı?...***

Yazan müəllif bu layihənin müəllifinin adının əbədiləşdirilməsini təklif edir.

***

Son illərdə qələmə aldığı bədii yazılarında əsasən tarixi mövzulara toxunan Arif Əbdüloğlu ”Qeyrət qalası” poemasını 1918-ci ilin mart soyqırımında müsəlmanların, əsasən də Məştağada insanların başına gətirilən müsibətlərə, Bakı kəndlilərinin birləşərək qaniçən Erməni daşnaklarına, Saumyanın başçılıq etdiyi dığalara qarşı mübarizəsinə, beş ay mühasirədə qalan Maştağa kəndinin və onlara hər vasitə ilə kömək əlini uzadıb, yardım edən Bakı kəndlərinin fədakarlığına həsr etmişdir.

Müəllif bir vaxtlar insanlar arasında bir növ asan, kəsən, haqlı və ya haqsızlığından asılı olmayaraq istədiklərini tələb edən Bakıdakı və Bakı kəndlərindəki qocaların, din xadimlərinin, el ağsaqqallarının, cavanların bir yumruq kimi birləşib mənfur düşmənə qarşı vuruşduqlarını poeziya dili ilə qələmə almışdır.

...bu müharibələrdə igidlik göstərib torpaq yolunda qəhrəmanlıqla həlak olanların hər birinin fədakarlığı faktlarla yada salınır. Maştağanın tarixinə nəzər salan müəllif yazır:

***Türk tayfası massağetdir əcdadın,***
***Bu kəlmədən qaynaqlanıb çağ adın.***
***Tarix boyu çalxalandın, çağladın,***
***Öz adına sadiq qaldın Maştağam!***
***Xaqanları atdan saldın Maştağam!***

***Kəndimin qeyrətli övladlarıdır,***
***Pis gündə birləşib qalaya dönür.***
***Nə qədər fitnəkar olsa da düşmən,***
***Onun qarşısında çırağı sönür...***

Dövrün tarixini vərəqləyən müəllif Bakı qoçuları ilə Bakının ətrafındakı kəndlərin, xüsusilə Maştağa qocalarının dar gündə birlikdə olduqlarını, elin-obanın müdafiəsi, müsəlmançılığın qorunub saxlanması üçün necə birləşdiklərini yazır:

”Biz ya kəndimizin rifahı uğrunda vuruşmalı, yaxud da onunla birlikdə məhv olmalıyıq” ideyası altında birləşib cəbhəyə atılan Maştağalılar düz beş ay, Türklər xilaskar əlini uzadana kimi hamılıqla çöllərdə gecələdilər, vətəni xilas etdilər.

Haradasa oxumuşam ki, Dünyanın sirri, həyatın sehri, mənası sözdədir. Yerində deyilmiş məzmunu mənası ilə üst-üstə düşən söz zülmət gecədə çaxan ildırım kimidir.

Qəfil gurlayan ildırım aləmi işıqlandırdığı kimi ağıllı söz, mənalı ifadələrdə xalqı oyadır, düşmənə qarşı mübarizə üçün ayağa qaldırır. Ağsaqqal sözünün gücü, xalqın çağırışı ilə yaradılmış ”Məştağa qarnizonu”nun qəhrəmanlıqlarından yazan müəllif ”Türk oğluyam - dedi mən!” Məştağa qarnizonu” ifadəsini bir bayraq kimi göylərə qaldıran igidlərin qat-qat güclü düşmənə qarşı mübarizədəki qələbəsinin sirrini türkçülükdə, müsəlmançılıqda görür.

Bu müharibədə xalqın böyük qəhrəmanlıqları haqqında yadda qalan hadisələri dəqiqliyi ilə qələmə alan Arif Əbdüloğlu dövrün tələblərindən irəli gələn bəzi məsələləri sətiraltı ifadələrlə qeyd edir, bəzən də öz fikrini lap açıq-aydın yazır. Üstündən yüz ildən çox bir zaman keçsə də, Maştağanın müdafiəsi üçün canından keçənlərin xatirəsinin əbədiləşdirilməsinin vacibliyini ürək ağrısı ilə qeyd edir. Maştağa uğrunda gedən mübarizədə canlarından keçmiş bu igidlərin şərəfinə layiqli bir abidə ucaldılmasını, xüsusi qəhrəmanlıqlar göstərilmiş yerlərdə xatirə lövhələrinin asılmasını həm öz adından, həm də Bakı kəndliləri adından təklif edir.

Uzun illər respublikanın ən tanınmış qəzetlərindən biri olan ”Sovet kəndi” qəzetində xüsusi müxbir, şöbə müdiri vəzifələrində çalışan Arif Əbdüloğlu (İsmayılov) işi ilə əlaqədar hələ sovet dövründə Azərbaycanın bəlkə də bütün kolxoz və sovxozlarında olmuş, bu kəndlərin çoxunda zəhmət adamları ilə çörək kəsmişdir. Burada çalışan əmək adamlarının fəaliyyətini qələmə almış, kimin kim olduğunu yüz minlərlə oxucusu olan qəzet vasitəsi ilə xalqa çatdırmışdır. Sevdiyi vətəninin hər elini, obasını qarış-qarış gəzən jurnalist öz yazılarına görə də hamı tərəfindən sevilmişdir. Elə buna görə də, kitabının adını ”Vətəndir - sevdiyim , sevildiyim yer” qoymuşdur.

**Azərbaycanın tanınmış jurnalisti, xalqın ürəkdən bəyənib sevdiyi şair, yazıçı, incəsənət xadimi, ən baxımlı kinoların ssenari müəllifi, xalqına da, qələminə də sədaqətliliyi ilə tanınıb seçilən Sədaqət Kərimovanın redaktorluğu ilə işıq üzü görmüş ”Vətəndir - sevdiyim, sevildiyim yer” kitabı oxucular tərəfindən maraqla qarşılanmışdır.**

## *Ağrılı həyat*

Bu dünya bir oyundur. Bu oyuna girdinsə axıra qədər oynamalsan. Ancaq bu oyunun yazılmamış çəx qəddar, sərt qanunları var Mən bunları bilmirdim. Firavan, qayğısız xoşbəxtcəsinə yaşayırdım. Hərdən də düşünürdüm:

**Nə xoşbəxt imişəm,**
**Doğulmamışdan öncə…**

... Bəli, İnsan həyata gələndə xoşbəxt, qayğısız həyat bitir. Hər seyi əvvəlcədən görən, dərk edən insan əbəs yerə deyil ki, həyata gələndə ağlayır. Həyata aglaya ağlaya gəlir. İçəridən qovulur, yanır həyatın xoş anlarına əlvida dediyinə görə. Amma nə etməli, insan dərdli-ələmli, min bir qayğılı həyatda ömür-gün sürməlidir. Və biz bir gün dünyaya göz açan insanın bir gündə dünyadan köç edəcəyinə yanırıq, ağlayırıq. Bu da bir qanundur. Sübuta ehiyacı olmayan qanun.

Bu dünyadan bərk-bərk tutub yapışmağa dəyməz. Çünki ömrün müvəqqəti olduğu həyatımızda dünya boyda varliq heç kimdir. Dünya hamımızın və eyni zamanda heç kimindir. Axı dünya da bizim kimi gəldi gedərdir:

***Bu get-gəllər bazarına***
***dəvədi dünya,***
***Bu ömür-gün naxışına***
***həvədi dünya,***
***Əbədiyə qəh-qəh çəkər***
***əbədi dünya,***
***Dünya sənin,***
***Dünya mənim,***
***Dünya heç kimin.***

Hamının əlindən tutan, hamının əlindən çıxmaq qorxusu olan dünya. Hamıya məlum və naməlum dünya. Hamılı və heç kimli, tək, tənha dünya. Dərdi özündən də böyük dünya. Biz dünyadan gedir, onu itiririk. Hərəmiz bir dərd daşı olub sallaşırıq dünyanın ətəyindən. Getdiyimiz yerdən, ordan dünyanın o biri qoynundan ruhumuzla oğrun-oğrun baxırıq dünyaya. Hərdən dərd əlindən karıxırıq. Ömür bitəndə ulduz kimi sönür, axırıq. Bəlkə də nə yaxşı ki, bu dünyadan köçür, orda əbədi rahatlıq tapırıq. Axı ömür, yaşamaq o qədər də asan deyil. Ağrılı-açılı, ehtiyaclı, məşəqqətli ömür bəzən yorur usandırır həyatdan:

***Gündoğandan günbatana,***
***Qürub edən ömrün***
***Bir***
***Ağ günün görmədim…***

**Adil Misirli**



*ETİBAR ƏBİLOV*

# MƏNİM LENİN ORDENİM

(Hekayə)

**(əvvəli ötən sayımızda)**

Karpenko yenə də mat-mat mənə,əlimdəki ordenə baxdı.

-Padles!- Maya növbəti dəfə ərini söydü -Tı zver!!!..

-Zomalçi qovoryu tebe!!! -Korpenko həmişə dilinin ucunda olan bir ana söyüşü söyərək qışqırdı və mən bu vaxt imkan tapıb otağa baxdım.Qəzet sərilmiş stolun üstündə qaynanmış kortoflar,iki-üç sarı qabıqlı soğan,çörək,duz Bir də başı yarımçıq araq butulkası (Bir daş stəkan araqla dolu idi).Kolya köhnə ,bir neçə yerdən burma telləri çıxmış divanda oturmuşdu.Yalnız evdə istifadə etdiyi qoşa qoltuq ağaclarını divanın ona yaxın olan küncünə qoymuşdu..Yəqin evlərində belə davalara adət etdiyindən sakit görünürdü.

-Tı merzaves- Maşa yenə qışqırdı.Zalım qızının elə bil ətini kəsirdilər.

Və bu vaxt Karpenko qeyri-şüuri olaraq əlimdəki ordeni alıb arvadına tərəf tulladı və tərs kimi,orden Maşaya yox,araq dolu stəkana dəydi.Və ordenin stəkana dəyməsi ilə,araq dolu stəkanın kağız süfrəyə aşması bir oldu...Və əsl mərəkə də bundan sonra başladı.Karpenko qəzəblə arvadının üstünə yeridi və sol əli ilə arvadının ağzının üstünə var gücü ilə bir yumruq vurdu.Ərindən yumruq zərbəsi almış Maşa elə qışdırdı ki...Yox,buna qışqırtı demək olmazdı.Allaha açıq getməsin,Maşa ölümcül zərbə almış köpək kimi zingildəyə-zingildəyə,ərinə yumruq,sillə atmağa başladı.Ağzı-burnu qanın içərisində olan Maşa,həm də dayanmadan ərinin üzünə tüpürürdü.Tüpürcəklərinin bəzisi süfrəyə düşürdü.Korpenko get-gedə özündən çıxırdı.Ər-arvad əlbəyaxa olub evin içərisində süpürləşirdilər.Kolya da əsəbiləşmişdi.Əlindəki qoltuq ağacını irəli uzada-uzada atasının ünvanına:

-Ubyu tebya...Ubyu tebya...- deyərək qışqırırdı.Bütün bədəni gərilmiş yazıq Kolyanın gözləri az qala hədəqəsindən çıxacaqdı.

Amma ər arvadın gözünə nəinki Kolya,nəinki mən,ümumiyyətlə,deyəsən heç nə görünmürdü.Bir-birlərini necə gəldi çırpırdılar.Karpenkonun zərbələrinə Maşa necə dözürdü?- bu bir sirri xüda idi.İndi Maşanın təkcə ağzı,burnu,sinəsi yox,paltarı,hətta süfrə,hətta döşəmə də...qan ləkələri içərisində idi...Yazıq Kolya,ayağı yox ki,durub anasını müdafiə eləsin.Elə:

-Ubyu tebya,ubyu tebya- deyərək qoltuq ağacı ilə atasını vurmağa çalışırdı...Nəhayət dözməyib qoltuq ağacını var gücü ilə atasına tərəf tulladı və qoltuq ağacı atasına yox,üstündən cəmi 100 qram götürülmüş (bayaq süfrəyə dağılan) araq butulkasına dəydi.Zərblə tullanmış qoltuq ağacının butulkaya dəyməsi ilə butulkanın süfrədən "uçub" otağın küncündəki polad qaz sobasına çırpılaraq çilik-çilik olması bir oldu...

Daha mən burada qala bilməzdim.Qaçaraq onların həyətindən çıxdım.Dilim dodağım təpimiş halda evimizə gəldim.Atamın -Ordeni qaytardın?- sualına qeyri-ixtiyarı halda:

-Qaytardım- dedim.

-Karpenkonun özünə verdin?

-Hə.

-Nə dedi?

-Heç nə.

Həmin gecə səhərə qədər yata bilmədim.Mən ki,o davanı gördüm,o davada nəsə bir xəta baş verəcəyini,ya Maşanın,ya Karpenkonun,ya da Kolyanın öləcəyini düşünürdüm.Karpenkonun gözü elə qızmışdı ki,arvadını boğub öldürə bilərdi.Maşanın gözü elə qızmışdı ki,ərini bıçaqlaya bilərdi.Kolyaya da nəsə ola bilərdi...Hava açılar-açılmaz geyinib qorxa-qorxa küçəyə çıxdım...Şükür ki,sakitlik idi.

O hadisə mənə çox ağır təsir etmişdi.Onlarla üz-üzə gəlməkdən həm utanır,həm də çəkinirdim.Amma narahatlığım,əndişəm yersiz imiş.Bir neçə gündən sonra Karpenko ilə də,Maşa ilə də üz-üzə gəldim.Sanki o hadisə heç olmamışdı- hər halda özlərini heç nə olmamış kimi aparırdılar.Yəqin belə hadisələrə öyrəncəli idilər.Kolya da həmişəki Kolya:

-Salam qoşi (Kolya qonşu yox,qoşi deyərdi),nə var,nə yox?..

Bax belə...

Həmin hadisədən heç iki il keçməmiş Karpenko qəfildən dünyasını dəyişdi.Gecə yatıb səhər durmamışdı...Ərinin ölümündən sonra,onsuz da özünü güclə idarə edən,yeriməyə çətinlik çəkən şişman Maşa da xəstələndi.Üç ilə yaxın yataq xəstəsi kimi yatdı.Nəhayət günlərin bir günü o da dünyasını dəyişdi.O zaman səhv etmirəmsə 10-cu sinifdə oxuyurdum.Maşanı da,qəsəbəmizdəki rus qəbristanlığında,ərinin yanında dəfn etdilər...

...Üstündən illər keçdi...

1980-ci illərin ortaları idi.Mən artıq qəsəbəmizdəki İnternat məktəbində müəllim işləyirdim...Artıq yaşa dolmuş,arıqlamış,xəstəhal Kolya da,daha küçəyə əvvəllərdə olduğu kimi tez-tez çıxmırdı.Təbii ki,aldıgı təqaüdlə dolanırdı və onun üçün bazarlığı həmişə Petya adlı bir dostu edirdi.Petya da fiziki qüsurlu biri idi,amma Kolyadan fərqli olaraq o, yeriyə bilirdi.Əsl sadiq dost elə Petya kimi olardı.Hətta Kolyanın paltarlarını da o yuyurdu,hətta çimməyinə də kömək edirdi...Petyanın da Kolya kimi heç kəsi yox idi...

Bax,həmin ərəfələrdə,günəşli,eyni zamanda küləkli,tozlu-torpaqlı,həm də çox darıxdırıcı bir gündə Kolyanın qapılarının ağzında,əlil arabasında (Hökumət ona əlil arabası vermişdi) əyləşdiyini gördüm.Onu görməyimə sevindim.

Kolya özü də bu dəm darıxdırıcı payız fəslinə bənzəyirdi.

-Salam Kolya.

-Salam.

-Necəsən Kolya?

-Belə də... -Kolya həmişəki kimi cavab verdi.

Artıq bəlalı Lenin ordeni məsələsini hamı unutmuşdu.Amma mən unutmamışdım... Məni gerçəkdən də o ordenin taleyi çox maraqlandırırdı...

-Popirosun var?

-Var Kolya.

Cibimdən "Radopi" siqareti çıxarıb Kolyaya uzatdım.

-Mən bundan çəkə bilmirəm.Mənimki "Prima"dır.

-Onda gedim sənin üçün "Prima" alım. -Sidq ürəkdən dilləndim.

-Yox,lazım deyil,Petya alıb gətirməlidir.

-Onda bundan çəkmirsən?

-Yox.

-Kolya...

-Nədi?

-Səndən bir söz soruşa bilərəm?

Kolya təəccüblə mənə baxdı.Üzündəki ifadədən -Məndən söz soruşmaq nə vaxtdan icazə ilə olub - ifadəsini oxudum.

-Kolya,o ordenin axırı necə oldu?

-Hansı ordenin?

-Mənə verdiyin ordenin.O Lenin ordeni indi hardadır?

-Orda -Kolya çiynini atladan gülüşlə gülüb yaxınlıqdakı kanalizasiya lükünü (qapağını) göstərdi.

-Başa düşmədim, Kolya.

-Nəyi başa düşmürsən? Sən Lenin ordenini soruşursan,mən də deyirəm ki,həmin orden kanalizasiyanın içərisindədir.

-Zarafat edirsən?

-Nə zarafat...düz sözümdü.

-Ordeni ora kim atıb ki?

-Atam.

-Bir düz-əməlli danış, Kolya.Heç nə başa düşmürəm.

-Danış deyirsən danışım də...- Kolya bir anlıq susdu.Gözləri yol çəkdi.Mənə danışacağı hadisəni yadına salırdı sanki...

- Bir dəfə atam yenə möhkəm içmişdi.Piyan idi.Atam çox içəndə anam həmiçə nervçat olurdu.Sən özün görmüsən ki... - Demək o qanlı əhvalat Kolyanın yadından çıxmamışdı- Televiziyada da Brejnev danışır.Atam başladı Brejnevi söyməyə.

-Niyə söyürdü ki,Brejnevi?

-Nə bilim...Acığı gəlirdi Brejnevdən...Anamda bir xasiyyət var idi.Atam piyan oldu,olmadı, kimisə söyəndə,anam həmin adamı atamın acığına tərifləyirdi.Atamın acığına anam hər şeyi tərsinə edirdi. Qəribə adam idi anam.Əslində anamın da Brejnevdən acığı gəlirdi.Amma atamın acığına həmin gün anam Brejnevi təriflədi.Təki atam hirslənsin...Atam nervçat oldu.Başladı Brejnevi yıxıb sürüməyə.Anam da deyir ki,Brejnev sənə nə pislik edib? Sənə o boyda Lenin ordeni verib,ona görə söyürsən?

Atam:

-O ordeni mənə zəhmətimə görə veriblər- dedi.

-Yox,Brejnev verib.

-Sənə dedim ki,o ordeni mənə zəhmətimə görə veriblər.Özü də Brejnev yox,Sovet dövləti verib.Brejnev kimdi? Anam da başladı,nə başladı:

- Sən nə pis adamsan.Brejnev sənə o boyda orden verib.Sənə verilən ordenin dokumentinə o qol çəkib. O razı olmasaydı,kim idi sənə o ordeni verən?

Kolya susdu.Yola baxdı:

-Bu Petya da gəlib çıxmadı ki...

-Sonra nə oldu Kolya?

-Nə olacaq?Anamın bu sözündən sonra görərdin atam necə hirsləndi.Başqa vaxt olsaydı o ordeni günlərlə axtarsaydı da tapa bilməzdi.Həmin gün isə elə bil əli ilə qoymuşdu ordeni.Şfonerdən,ayaqqabı qutusunun içərisində olan Lenin ordenini də,ordenin dokumentini də götürüb ayaqyalın küçəyə çıxdı.Bax,o lükün deşiyi var ha...bax,o deşikdən knijkanı da,ordeni də kanalizasiyanın içərisinə tulladı.

Mən mat-mat Kolyaya baxırdım:

-Bəs sonra atan peşiman olmadı?

-Peşiman olub olmamağının nə mənası?

Belə...Kolya,başıbəlalı Lenin ordeninin acınacaqlı taleyini danışıb dərindən ah çəkdi.

-Of...Axır ki...-Kolya baxan tərəfə baxdım.Əyri pəncəli Petya tələsik addımlarla bizə tərəf gəlirdi.Əlində Kolya üçün aldığı 7 qutu "Prima" popirosu var idi.

O günəşli, küləkli,tozlu-torpaqlı və eyni zamanda çox darıxdırıcı olan payız günündən 30 ildən artıq vaxt keçir.İndi Kolya da həyatda yoxdur.Onu da,qəsəbəmizdəki rus qəbristanlığında (indi qəsəbəmizdə tək-tük rus yaşayır) anası ilə atasının yanında dəfn ediblər.Onun ata-anasının məzarının baş ucunda,təxminən 1 metr hündürlüyündə dəmir xaç var... Kolyanın məzarının baş ucunda isə heç dəmir xaç da yoxdur.Təkcə kiçik bir baş daşıdır.Kolyanın baş daşına çox primitiv şəkildə (sanki mismarla) adı,atasının adı və soyadı yazılıb:

"Nikolay (Kolya) İvanoviç Karpenko"

Küləyin,yağışın,günəşin ovduğu,üstündəki yazıları belə güclə oxunan baş daşında Kolyanın nə doğum tarixi yazılıb,nə də ölüm tarixi...

**Neftçala.**
**28 mart 2021**

## TƏBRİK



*Nəvələrimin sonbeşiyi, evimin tər çiçəyi - Nərgiz xanım. Sənin dünyaya gəlişin və 1 yaşın mübarək olsun. Allah səni bizə, xüsusilə ata-anana çox görməsin. Gün o gün olsun ki, məktəbli, sonra da tələbə olasan. Yolun həmişə açıq olsun!*

*Adı Nərgiz, özü çiçək,*
*Hamıdan da gözəl-göyçək,*
*Biz saçına bircə ləçək -*
*Nərgiz taxaq Nərgizimin.*

*Bəxti gülsün, üzü gülsün,*
*Güləndə də düzü gülsün,*
*Xoşbəxt ömrün yüzü gülsün,*
*Sayıb baxaq Nərgizimin.*

*Hər anına sağlam, gümrah,*
*Mükafatın versin Allah,*
*Pişvazına axşam-sabah,*
*Biz də çıxaq Nərgizimin.*

**Baban Əbülfət Mədətoğlu və nəvələri Atilla, Nigar, Aysu**

*Əntiqə Kərimzadə*

# Biz onları necə yetişdirməliyik?..



*Ümumiyyətlə müasir cəmiyyətlərdə, inkişaf etmiş ölkələrdə insanlar ən birinci öz daxili tərbiyələri ilə məşğul olurlar. Məsələn hər şeyə münasibət bildirməyə məcbur deyilik. Bəzi məqamlar var ki, insan susmalıdır. Və ya susmağı bacarmalıdır. Bəs biz susmağı bacrarırıqmı?*

*İnsan, düşüncələrində dəyişiklik etmək üçün daim öz üzərində çalışmalıdır. İnkişafın ilkin mərhələsi kitab oxumaqdan başlayır. Daha sonra səyahət də inkişaf prosesində mühüm rol oynayır. Məsələn, müxtəlif ölkələrin mədəniyyəti ilə tanış olmaq insana çox şeyi öyrədir. Hələ başqa mədəniyyətlərlə bizim mədəniyyəti müqayisə etmək, oradan ortaq məxrəcə gəlmək isə ümumən inkişafı sürətləndirir desəm, yanılmaram. Hələ sovetlər dönəmindən bizə "miras" qalan "atamızla eyni süfrədə çörək yemərik", "atan gəldi, qaç gizlən", "böyüyün yanında səsin çıxmasın" kimi sözlər daim bizi öz doğmalarımızdan uzaq salıb. Bir uşağa "hər sözünü atanla bölüş", "atan sənin ən yaxın dostundur" nəsihətini vermək daha gözəldir. Övlad ailədə sərt çərçivə görəndə doğmalığı , mehribanlığı yad toplumda axtarmağa başlayır. Bu isə bəzən xoşagəlməz hallarla nəticələnir. Pis vərdişləri olan bir insanın uşaqla "xoş rəftar"ının sonluğu əlbəttə, bir çoxumuza məlumdur.*

*İndi deyəcəksiniz ki, bəs uşaq öz yaşıdları ilə zaman keçirməsin? Ancaq ailəsi ilə vaxt keçirsin? Heç kəs bir insanın uşaqlıq illərini və gəncliyini onun əlindən ala bilməz. Uşaq öz yaşıdları ilə zaman keçirdikcə uşaqlıq illərinin necə bir xoş zaman olduğunu anlayır. Ailəsi ilə vaxt keçirdikcə isə cəmiyyətə yararlı şəxsiyyət kimi formalaşmağı öyrənir.*

*Belə bir atalar sözü var: "Uşaq evin güzgüsüdür". Hər bir ailə o güzgünü cəmiyyətin üzərinə tutur. İnsan evdə öyrəndiklərini cəmiyyətdə tətbiq edir. Cəmiyyətdə rast gəldiyini isə evdə müzakirə edir. Bu məqamlarda valideynlər kifayət qədər həssas olmalıdır. Uşaqların yeniyetməlik dövrü ən çətin və ən məsuliyyətli dövrü hesab olunur. Onların insanlarla münasibəti, təhsilə və ya hər hansı bir peşəyə marağı həmişə diqqətçəkən məqam olub.*

*Düşünürəm ki, valideynlər bu mövzuda müəyyən qədər diqqətli olmalıdır. Uşağı məcbur hər hansı bir peşəyə yönəltməklə onu ancaq uğursuzluğa düçar etmək olar. İnsan sevmədiyi bir peşədə ancaq və ancaq uğursuzluq əldə edə bilər. Ailəsinin istəyi ilə ali məktəbə qəbul olub, universistet pilləkanlarında ağlayan tələbələri də çox gördüm. Çox ağır hissdir. Məsələyə daha həssas yanaşsaq mənəvi işgəncədir deyərdim. Bütün bu problemlərin mənbəyi valideynlərin hökmranlıq eşqidir. Və bu həvəs də övlad üzərində bərqərar olarsa, həmin övlad cəmiyyətdə öz mövqeyini tapmayan, içində böyük bir hirs yetişdirən insana çevrilir. Beləliklə, övladınız da sizi təkrarlamağa başlayır. İşini sevməyən işçi, kobud həyat yoldaşı, hökmran valideyn olur.*

*Bütün bu neqativlərin olmamağı üçün övladlarımıza ilk növbədə qayğı və nəvaziş göstərməliyik. Unutmayaq ki, insanın qəlbində bütün gözəl hisslərin açarı uşaqlıq illərindən gördüyümüz ata-ana sevgisidir.*

# Astarada 65 il əvvəl çəkilən və hələ də sevilən «Qızmar günəş altında»

**Bu il retro filmlərdən ən sevilənı olan "Qızmar günəş altında" filminin çəkilməsindən 65 il ötür.**

Adalet.az xəbər verir ki, tanınmış nasir, kinodramaturq, kinorejissor Həsən Seyidbəylinin "Kənd həkimi" povesti əsasında ekranlaşdırılmış bu film 1957-ci ildə lentə alınıb. Filmə istedadlı aktyor, rejissor, ssenarist Lətif Səfərov quruluş verib. operator-Arif Hərimanbəyov, rəssam-Cəbrayıl Əzimov, bəstəkar-Tofiq Quliyevdir.

Rolların böyük əksəriyyətini ifa etmək üçün o vaxt Azərbaycan tamaşaçısına tanış olmayan gənclər cəlb edildi. Əkbər Fərzəliyev (Aydın), Əfrasiyab Məmmədov (Eldar), Ağasadıq Gəraybəyli (Sərdarov), Süreyya Qasımova (Gülpəri), Tofilə Ələsgərova (Nərminə), Sara Manafova (Gülnaz), Z.Gəraybəyova (Fatma), Lütfi Məmmədbəyov (Xəlil), Məmmədrza Şeyxzamanov (Əmir dayı), Cabbar Əliyev (Mürsəl), İsmayıl Əfəndiyev (Nadirov), Ağadadaş Qurbanov (professor), Ağahüseyn Cavadov (Piri oğlu), Münəvvər Kələntərli (Gülbahar), Faiq Mustafayev (Cəlal)filmin səmimi, koloritli və təbii alınmasında böyük əmək sərf ediblər.

15 mart 1958-ci il İlk baxış tarixi ilə yadda qalan "Qızmar günəş altında" filmi kənd həyatından və orada yaşayan zəhmətsevər, mehriban, qayğıkeş, sadə insanların taleyindən bəs edir. Astara rayonunda bir çayçılıq təsərrüfatında baş verən ictimai , gündəlik eləcə də digər hadisələr təbii cizgilərlə tamaşaçıya sərgilənir. Filmin süjet xətti və məqsədi sovet adamının daha doğrusu, sovet həkiminin istedadı, savadı, humanizmi, mənəvi zənginliyini açmaq, tamaşaçıya belə insanları sevdirməkdir.Beləki, şəhərdən kəndə işləməyə gəlmiş gənc həkim Aydının (Əkbər Fərzəliyev) fədakar əməyi təlqin olunur və qısa ezamiyyətə gəlmiş gəncin özünün həkimlik borcunu burada, sadə insanların arasında qalmaqda görür.



Filmdə sevilən aktyor Ağasadıq Gəraybəylinin yaratdığı Niyaz Sərdarov obrazı da maraqlıdır eyni zamanda, qəliz və qəribə xarakterlidir. Aydın və Niyaz qarşılaşdıqda maraqlı dialoq və səhnələrdə yaranır. Sərdarov çay əkini zamanı quraqlıqla mübarizə aparmaqda, tarlaların suvarılması üçün lazım olan su anbarının tikilməsində, kanalın çəkilməsində, tibb məntəqəsinin bərpa olunmasında əmək adamlarına kömək etmək istəmir, hadisələrə birmənalı yanaşır. Bununla yanaşı, cəsarətsiz kolxoz sədri kimi görünən Sərdarov Eldarın və həkim Aydın Zeynalovun mərd cəhətlərini də alqışlayır.

O, cəsurluğun insana yaraşan xüsusiyyət olduğunu bilir, bəyənir, özü isə ətrafdakılara qarşı biganə yanaşır.

Hətta həyat yoldaşının (aktrisa Barat Şəkinskaya) aşırı həddə olan tənə və iradlarına normal, sakit münasibət bildirir. Bununla da obrazın qüsurlu cəhətlərini ifşa edir".

Filmin maraqlı bir obrazı isə Gülpəridir. Tələbə bir qız-Süreyya Qasımova filmə çəkilməsi haqqında modern.az verdiyi açıqlamasında kinoya təsadüfən gəldiyini bildirib:" Anam sevməsə də, həmişə idmanla məşğul olardım, mahnı oxuyardım. Amma kinoya çəkilmək heç ağlıma da gəlməzdi...

O vaxt mən Pedaqoji Xarici Dillər İnstitutunda oxuyurdum. İmtahandan "5" alıb çıxmışdım. Qızlar məni aşağıda gözləyirdi. Sevincimdən pilləkənləri iki-iki hoppandım. Əlimlə göstərdim ki, "5" almışam. Elə o vaxt mənə bir qadın yaxınlaşdı. Dedi, kinoya çəkilmək istəyirsən? Sən demə, o, kinorejissorun assistentiymiş.

Dedi, çox yaxşı bir roldu, üstəlik də, çoxlu pul verəcəklər. Mən də o vaxtlar kirayədə yaşayırdım. Pula çox ehtiyacım vardı. Fikirləşdim, razılıq verdim. "Qızmar günəş altında" filmindəki Gülpəri roluna bax belə çəkildim".

Məhz bu filmdən sonra onu "Aygün", "Kölgələr sürünür", "Yeni il gecəsi" filmlərinə dəvət elədilər.

Yəqin ki, oxucularımız filimdə səsləndirilən bu mahnını da unutmayıblar

***Açdı gül, gün oyandı,***
***Hər tərəf ağ boyandı.***
***Dərdimdən neçə oğlan***
***Yanar oda qalandı.***
***Nəqarət:***
***Mən güləm, gül üzüm, balam,***
***Heç zaman solmaz.***
***Mənim kimi gözəli, balam,***
***Sevməmək olmaz!***

Yazar Tofiq İlk bu filmlə bağlı məqaləsində yazır: "Əslində insan mənəviyyatının mürəkkəb nüanslarından bəhs edən bu film eyni zamanda Azərbaycan kinematoqrafiyasında ən koloritli filmlərdən biri hesab olunur.

Azərbaycanın təbiəti, onun qəlbə ruh verən gözəllikləri milli bədii kino nümunələrimizin heç birində bu ekran əsərindəki qədər panoramlı əks olunmayıb.

Reyissor qızmar günəş altında yaşayıb işləyən zəhmət adamlarının daxili dünyasını, təzadlı duyğularını böyük ustalıqla təsvir obyektinə çevirərək öz filmində ayrı bir məkan-psixoloyi bir məkan yaradır".

**Lentə alınmasında 65 il keçməsinə baxmayaraq sovet kinosunun ən sevilən nümunələrindən biri olan "Qızmar günəş altında" filmi hazırda baxıldıqca baxılan, dövrünə və zamanına görə heç vaxt dəbdən düşməyən filmlərdəndir.**

**Əntiqə Rəşid**

# *Psixoloq:* "Belə olan halda xoşagəlməz hadisələrin qarşısı alınar"

**Hər uşaq bir dünya deməkdir. Onların öz aləmi, öz rəngli fikirləri olur. Fiziki məhdudiyyəti olan uşaqların isə həssaslığı daha çox olur. Onlarla çaılşan müəllim və psixoloqlar o uşaqların valideynləri qədər məsuliyyət daşımalıdırlar. Ancaq son zamanlar günümüzdə gündəm olan işgəncə mövzusu yalnız və yalnız vicdansızlığın göstəricisidir. Uşaqlara deyirik ki, heyvanlara zərər vermək olmaz. Ancaq uşaqlar əzilir, təhqir edilir, döyüyülür. Cəmiyyətdə bu xoşagəlməz halları yaradan kimlərdir? Və bu insanlara necə cəzalar tətbiq edilməlidir?**

Düşünürəm ki, belə hərəkətlərin ən böyük cəzasını həmin insanların öz vicdanı versin.

Günümüzdə çox təəssüf ki, aktuallığını itirməyən mövzu ilə bağlı psixoloq Fərqanə Mehmanqızı Adalet.az-a danışıb. Psixoloqun sözlərinə görə, bu kimi məsələlər təkcə reabilitasiya mərkəzində deyil, baxcalarda, uşaq evlərində, məktəblərdə də baş verə bilir. Sadəcə ictimailəşdirlən bu hadisədir:

"Biz ellə etməliyik ki, psixoloji problemli, özgüvənsiz, natamamlıq kompleksindən əziyyət çəkən gənclik yetişməsin. Uşaqların formalaşdığı yerlərə ciddi nəzarət olunmalıdır. Uşaqlar bizim gələcəyimizdir. Onları qorumaqla gələcəyimizi qorumuş oluruq. Əslində bu kimi hallarda təkcə reabilitasiya mərkəzi deyil, o quruma rəhbərlik edən şəxslər də məsuliyyət daşımalıdırlar.

Necə ki evdə uşaq hər hansı bir hərəkəti edəndə valideyn cavabdeh olursa, qurumun rəhbəri də eyni cavabdehliyi daşımalıdır.



Düşünürəm ki, bütün reabilitasiya mərkəzlərində, uşaq evlərində, baxçalarda nəzarət üçün kameralar olmalıdır. Düzdür, indi özəl fəaliyyət göstərən mərkəzlərin çoxunda bu sistem mövcuddur. Bu kameralar təkcə rəhbərlik deyil, həm də qurumlar tərəfindən də nəzarətə götürülməlidir.

**Bundan əlavə hər hansı bir fiziki məhdudiyyəti olan uşaqlarla işləmək üçün psixoloqlar və loqopedlər mütləq hər il sertifikasiya olunmalıdır. Belə olan halda xoşagəlməz hadisələrin qarşısı alınar".**

**Əntiqə Kərimzadə**

# Rumeli fənəri qalası



**Dəniz səviyyəsindən 58 metr hündürlükdə və 30 metr hündürlükdə inşa edilən Rumeli qalasının fənəri əvvəllər kerosinlə işıqlandırılırdı.**

Adalet.az xəbər verir ki, Rumeli qalası füsunkar tarixi quruluşu və möhtəşəm mənzərəsi ilə turistləri valeh edir. Qala nəhəng ölçüsü və dörd tərəfdən unikal dəniz mənzərəsi ilə seçilir. Boğazın Qara dəniz sahilindəki ən uzaq nöqtəsi olan Sarıyerdə yerləşən Rumeli qalasının tarixi genuyalılara qədər gedib çıxır.

Osmanlı sultanı IV. Murat dövründə bərpa edilən və şəhərin müdafiəsində böyük rol oynayan qalanın iki gözətçi qülləsi var idi. Boğazın girişində əcnəbi gəmi göründüyü zaman qalanın mühafizəçiləri digər qalaların mühafizəçilərinə xəbər verir və müdafiə tədbirləri görməyə işarə edirdi. Qala Osmanlı imperiyasından sonra, Cümhuriyyət dövründə 1950 ve 1960-cı illərə qədər müdafiə məqsədi ilə istifadə edilmişdir. Rumeli qalası bu günə kimi muzey və açıq səma altında teatr kimi fəaliyyət göstərir. Müxtəlif açıq hava sərgilərinə ev sahibliyi edən qala yayda konsertlərin keçirildiyi yer kimi də tanınır.

Lakin son illərdə burada keçirilən konsert və tamaşaların qalaya mənfi təsir göstərə biləcəyinin müəyyən edilməsi səbəbi ilə İstanbul İnzibati Məhkəməsinin qərarına əsasən qalada konsertlərin keçirilməsi qanunla qadağan edilib.

**Sübhan**

## *Akademik Milli Dram Teatrından müjdə - "Zəfər yolu" gəlir*



**Adalet.az xəbər verir ki, Akademik Milli Dram Teatrının aktrisası Rada Nəsibova yeni teatr mövsümü ilə bağlı tamaşaçılara öz müjdəsini verib.**

Aktrisanın sözlərinə görə, yeni mövsümün açılışı "Zəfər günü"nə həsr olunmuş "Zəfər yolu" tamaşası ilə baş tutacaq. Tamaşanın müəllifi və rejissoru Azər Paşa Nemətovdur.

Rada Nəsibova bu tamaşada döyüşlərdə şəhid olan bir gəncin xanımı qismində rol aldığını, teatrsevərləri tamaşada görəcəyindən məmnunluğunu qeyd edib. Qeyd edək ki, "Zəfər yolu" tamaşası 23-24-25 sentyabr nümayiş olunacaq.

## *"Qaranlıqdan işığa" "Səhnə"də olacaq*

**"Səhnə" teatrı yeni mövsümlə bağlı planlarını Adalet.az-la bölüşüb.**

Teatrın bədii rəhbəri Xaqani Əliyev bildirib ki, mövsümün açılışı ilə bağlı Bakı Şəhər Mədəniyyət Baş İdarəsi ilə birgə layihəmiz baş tutacaq. Bu layihə çərçivəsində avqust ayında Bakı kəndlərində narkomaniya əleyhinə tamaşa oynanılıb və həmin layihə davam edir. Sentyabr ayının 20-də Nardaran Mədəniyyət evində "Qaranlıqdan işığa" adlı tamaşa nümayiş olunacaq. Bundan əlavə noyabr ayında 44 teatr festivalının keçirilməsi nəzərdə tutulub və "Səhnə" teatrı bu festivalda da iştirak etməyi planlaşdırır. O, həmçinin nümayiş olunan tamaşaların insanlarda teatra marağı daha da artıracağına inandığını bildirib.

**Eminquey**


Qaraisayev Teymur Ənvər oğlunun adına verilmiş şəhidlik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ədilzadə Tahir Adgözəl oğluna İsmayıllı Bələdiyyəsi tərəfindən verilmiş (Reyestr nömrəsi 407012000436) çıxarış və Plan ölçü itdiyi üçün etibarsız sayılır.

***

Məmmədov Əmrah Rəfi oğluna ƏƏSMN-nin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 16 sentyabr 2021-ci ildə Abşeron rayonu Yeni Yaşayış Kompleksi bina 27 mərtəbə 1, mənzil 6-da verilmiş 1 otaqlı mənzilin sənədləri itdiyi üçün etibarsız sayılır.


Sədi Fətəlizadə **Buludxan müəllimə, Zamin və Ramin qardaşlarına** əzizləri

**Hacı Babaxanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 95**
Çapa imzalanmışdır:
09.09.2022